**Soylu Atalı**

# İNAM SORAĞINDA

**Soylu Atalı**

# İNAM SORAĞINDA
## (Avtobioqrafik Oçerk)

**Atakənd – 30**
**Bakı - 2008**

Redaktoru: Safruh
Bilgisayar işi:

Soylu Atalı
İnam Sorağında. Avtobioqrafik oçerk. "Adiloğlu" nəşriyyatı, Bakı, 2008 – səh.

İnam Ata (Asif Ata) Ocağının Yükümlüsü, "İnamçı Harayı" kitabının yazarı, görkəmli publisist Soylu Atalının bu yeni kitabı onun həyat yolundan, Mütləqə İnam Yaradıcısı Asif Ata ilə tanış olma tarixçəsindən, Ocaqdakı ömrünün ilk mərhələsindən bəhs edir. Kitabı insani cəhalətdən (qaranlıqdan) Ruhaniyyat Yolu İşığına çıxma da adlandırmaq olar. Kitab öz ömrünü Yurdçu, İnamçı mübariz kimi qurmaq istəyən hər bir gənc üçün ibrət qaynağı ola bilər.

*Mütləqim, Müqəddəsim, Ulu Peyğəmbərim*
*Asif Ataya – İnam Ataya Ali Səcdəylə!*

## Öncə bu yazını ortaya çıxaran gərəklik barədə...

28 Sərt Ayı, 29-ildə adətim üzrə, iş yerimdən İnam Evinə zəng elədim. Ocağın vəziyyəti və aqibətinə yönəlik Safruhla aramızda söhbət oldu. Hansısa səbəbdən Atanın 15-ci ildə (1993) xəstələnməsi mövzumuza daxil oldu. O dövrün bəzi məqamlarını xatırladım. Safruh bunların yazılıb-yazılmadığını soruşdu. “Yalnız ayrı-ayrı qeydlər var” dedim. “Amma bütövlüyü yazılmış olsa, nə yaxşı olar!” deyə Safruh əlavə elədi və bu məsələnin önəmini özünəməxsus bir əhvalnan açıqladı. Bu məsələnin önəmi mənim ağlımda xeyli cilalandı və özüm üçün aydınlıq, müəyyənlik yarandı. Safruhun “Başlanğıc” və “Ata Səcdəsində” kitabları Asif Atanın ömrünə, işinə, zəhmətinə, təqibinə, yalqızlığına güzgü tutan ulusal bir tarixdir əslində. Aparılmış müşahidələr gedişlərin zamanında yazıldığından orada deyilənlər böyük cazibə və inam yaradır. Həyatı anlamaq, xalqın həqiqi vəziyyətini dərk eləmək üçün bu kitabların önəmi mənim ağlımda bütün çılpaqlığı ilə görünür. Kitabların başqa bir özəlliyi ondadır ki, Safruh Asif Atanı, eləcə də özünü heç kim üçün bəzəməyib, bəzəmək məqsədi güdməyib. Doğrudan da ulus’unun, insanlığın həqiqi vəziyyətini bilmək, dərk eləmək, onun yıxılmasına, enməsinə ağlamaq istəyində olubdur. Hər şeyi öz rəngində görüb, olduğu kimi deyib.

Ocaq ideyalarından, Atanın fikirlərindən, kitablarından onun şəxsiyyətini, zəhmətini təsəvvür eləmək mümkündür. Lakin onun ömrünün canlı hadisələrini təqdim eləmək, adamın gözlərinin qarşısında canlandırmaq işin qiymətini dəqiqləşdirir, əhəmiyyətini birə-beş artırır. Mən illər öncə yaşanan hadisələri indi yazıya götürürəm. Əlbəttə, müşahidələri elə öz çağında yazmaqla sonradan onu xatırlayıb yazmaq eyni təsirə malik olmur. Üstünlük birinci yanaşmanın tərəfindədir. Ancaq nə etməli, indi

xatırlanacaq hadisələr onsuz da öz vaxtında ardıcıl qələmə alınmayıb. Bunun da özəl səbəbləri var. Əvvəla, mən qələm adamı olmamışam. Sistemli, nizamlı gündəlik yazmağa içimdə təpər olmayıb. Həm də o vaxt yazsaydım, uydurmalarım, bəzəmələrim də olacaqdı. Doğrunu axıra qədər səmimiyyətlə yazmağa gücüm yox idi. O vaxt bir çox şeylərin mənə əskiklik gətirəcəyini düşünərdim. Özümün xidmətlərimin bir çox çalarları anlamazların qarşısında başıaşağılıq yükü kimi sıxardı məni. Çünki İdrakda həqiqətə doğmalığım başqalarından çox da üstün deyildi. Xırda duyğular yazının səmimiyyətinə ziyan verəcəkdi. Bir az fədakarlığı üç az göstərəcək, mənəmliyin təsirindən də qaça bilməyəcəkdim. Mən həqiqətçi kimi danışmağı gec öyrənmişdim, çünki həqiqəti gec tanımışdım. Yaddaşımda olanları indi yazmağımda hadisələrin tarixini dəqiqləşdirmələrimdə qüsurlar ola bilər, amma doğruluğunda bütövlük olacağına əminəm.

***xxx***

# İnam Ata ilə ruhani təmaslarımın başlaması
# və
# ilk axtarışlarım

Təxminimə görə, 11-ilin Köçəri ayında (fevral, 1990) təhsil aldığım Azərbaycan İnşaat Mühəndisləri İnstitutunda Asif Atanın görüş elanı asılmışdı, daha doğrusu, institutun yataqxanalarından birində. 9-qatlı binanın birinci qatında “Cəngi” kino-konsert zalı yerləşirdi. Görüş də burada keçirildi. Bu vaxta qədər Asif Ata adlı ziyalı tanımamışdım. Dərsdən çıxıb yataqxanaya gəldim (onda yataqxananın 5-qatında 509-cu otaqda yaşayırdım). Binanın girişində şüşəyə afişa vurulmuşdu: “Sizi Böyük Azərbaycan filosofu Asif Ata ilə görüşə dəvət edirik”. Oxuyub keçdim, çox laqeyd yanaşdım. “Ata” sözü bir az xarici gəldi mənə. Ağlıma Atatürk sözü gəldi. Yəqin bu da o cür sözlərdəndir. Deyə düşündüm. Şəkil də məndə yad hisslər oyatdı, – “hansısa müftə yeyənin biridir” pıçıldadım.

Burada çox düşündürücü məqamlar var. Əvvəla, Türkiyəyə qarşı içimdə hər hansı bir doğmalıq duyğusu yox idi. Başqa bir tərəfdən, böyük söz, böyük şəxs qulağıma, mənliyimə yad gəlir, yad görünürdü. Biz sxemləşdirilmiş təhsil alırdıq, bizə milli heç nə öyrədilmirdi. Millətin içi pozuntuya uğradılmış, onun ləyaqətinə inamsızlıq qana işləmişdi. Doğrudan da qananların yükü çox ağırdır! Milləti gözümüzdən necə düşürüblər, onu yenidən gözümüzdə qaldırmaq üçün necə böyük mənəvi, idraki zəhmətlər gərəkdir!..

6-qatda tələbə yoldaşların otağında oturmuşdum, hansısa qəzet oxuyurdum. İki nəfər də yerdə orutub nərd oynayırdı. Qapı döyüldü. Yoldaşlardan biri diqqətini nərddən ayırmadan “gəl” dedi. Qapı açıldı, bir nəfər bizdən 3–5 yaş böyük görünən, gülərüz, mehriban bir oğlan “Sizi Asif Ata ilə görüşə dəvət edirəm” dedi. Mən dinmədim, uşaqlar “yaxşı, gələrik” deyə oyunlarına davam elədilər. Gələn oğlan qapını örtüb getdi. 15–20 dəqiqə

sonra yenidən gəldi. Eyni gülərüz əhval və doğmalıqla dəvətini təkrar elədi. Yenə "yaxşı, gələrik" vədi verildi və oğlan getdi.

Mən o vaxtlar çox qanunpərəst idim, qorxaqlığım da vardı. "Kimsə üstümə səsini qaldırar, sözeşitməz kimi institutda cəzalandırarlar" deyə düşündüm. Bu cür çağırışlara lap könülsüz də olsa, getməyə məcbur idim. Heç bilmirdim bu görüş nə üçündür, institut bu görüşü istəyir, ya istəmir?! Biz həmişə rəsmi çağırışları əmrlə eşitmişik. Bu dəfə isə az qala yalvarış eşidirdim. Gələn kimdir, institutun məsul adamlarındandırmı, niyə əmr eləmir, göstəriş vermir, xahiş edir?! Hərçəndi o vaxtlar bir çox tələbələr, mən də daxil olmaqla, fəal sayılırdıq. İnstitutun rəhbərliyi bizdən çəkinirdi. Xalq Cəbhəsinin üzvü olmasam da, bütün müəssisələrdə ümumi bir Xalq Cəbhəsi xofu yaranmışdı. Ona görə bizim başı-ayağı bilinməyən fəallığımızdan çəkinirdilər. Bununla belə, məni ələ almaq, təsir eləmək çox asan idi. Belə "incəlikləri" bilməyən təsərrüfat işləri üzrə prorektor və bəzi başqa məsul vəzifəlilər özlərini tələbə həşirinin baş verəcəyindən qorumaq üçün bizimlə dostlaşmışdılar. Mən bu cür dostlaşmaqdan qürur duyurdum. Prorektorla, məsul vəzifə sahibləri ilə oturub-durmaq şərəfli görünürdü mənə, şöhrətli hiss edirdim özümü. Bu münasibətin qalması xatirinə onların məni hansısa fikirlərdən, addımlardan daşındırmaq istəklərinə təslim olmağa meyilli idim. Gizli şöhrət, necəliyindən asılı olmayaraq başqalarından fərqlənmək və bu əhvaldan doğan gizli xudbinlik adamın mənliyini təslimçi kökdə saxlayır.

Bütün bunlardan başqa, həm də içimdə doğmalığa meyil, isti, gözəl münasibətlər istəyi məni gələn oğlanın çağırışına müsbət reaksiya verməyə sövq elədi. "Durun gedək, görək nə istəyirlər, iki dəfə gəlib, ayıbdır" dedim. Və özüm geyinib aşağı düşdüm. Sonralar bildim ki, bu oğlanın adı Elxandır, Asif Ata ona Əsil adı veribmiş. Bu oğlan çox cəsarətli, bacarıqlı, girici idi. Asif Ataya bağlı olub. Hərçəndi onun bacısı ilə Asif Atanın ailə həyatı baş tutmayıb və Asif Atanı əqidəsinə görə DTK ailəsindən təcrid etmişdi. Elxan isə bacısına görə Asif Atadan üz

çevirməyib, əksinə, onun əqidəsinə qoşulub, xidmətində durub – "Əsil"lik edib. Bu oğlanın Ocaqçılıq fəaliyyəti öyrənilməyə layiqdir. O, Asif Atanı təqdim eləmək üçün çox qapılar döyüb. Özünə isti yuva qurmaq, başını dinc saxlayıb dolanmaq kiçikliyinə düşmədən bir çox risklərə gedib. Elə haqqında bəhs elədiyim görüşü təşkil eləmək üçün bir-bir tələbələrin otağına gedib onları çağırmaq, rahatsız eləmək də başqa bir biçimdə riskdir. Qayıdıb onu qova bilərdilər, "nə zəhlətökənlik edirsən" deyə təhqir edə bilərdilər. Şübhəsiz ki, bu cür əhvallarla hardasa qarşılaşıb da. (Yeri gəldikcə bir sıra adamların Asif Ata ilə ünsiyyətlərinin özəlliyini burada vurğulamaq istəyirəm. Hələlik isə...).

"Cəngi" zalında keçib oturdum. Asif Ata səhnəyə çıxdı və başladı danışmağa. Bəstəboy, dolu bədənli bir kişi. "Azərbaycanımızın–Azərbaycanlığımızın ruhani mahiyyəti aşağıdakılardır" deyərək, özünün ruhani məna verdiyi dəyərləri (Zərdüştçülüyümüz, Babəkliyimiz, Dədə Qorqudluğumuz, Hürufiliyimiz, Füzuliliyimiz, Muğamlığımız, Sazçılığımız) izhar eləməyə başladı. Düzünü deməliyəm ki, heç nə anlamadım. Çünki mənim ağlımın gücü o cür fəlsəfi harayları tuta bilmək üçün çox yetərsiz idi. Onun əsasən halı mənə təsir etmişdi. Yoldaşlar çoxsaylı yetkin suallar verirdilər. Onda mən içimin nə qədər passiv olduğunun fərqinə vardım. Doğrusu, özümün aşağı şüurlu olmağımdan utandım. Yoldaşlar isə məni özlərinə tay bilirdilər. Halbuki onların əksəriyyəti normal dünyagörüşlü, mütaliəli adamlar idi. Mən isə dərslikdən əlavə üst-üstə götürsək, beş kitabı axıra qədər oxumamışdım. Beləcə Asif Atanın görüşü bitdi və daxili yoxsulluğumu aşkarlamaqla məni qüssəyə qərq etdi. Sonralar öyrəndim ki, Dövlət Təhlükəsizlik orqanı Asif Ataya zəng edib, "20 Yanvar" kimi qırğından sonra belə bir görüşü keçirməməyi tələb edibmiş. Asif Ata isə görüşün baş tutmasında israr edib və çox çətinliklə tələbələri oraya toplayıblar. Bununla belə, görüşə yüzdən çox tələbə gəlmişdi.

Bir gün sonra dərsdə bərk darıxdım, otura bilmədim, son saatlardan çıxıb getdim. Mənə elə gəlirdi ki, öz gözümdən

düşürəm. Heç nə bilmirəm, heç nəyə yaramıram, təfəkkürüm çox zəifdir, çox şeyi dərk eləyə bilmirəm, təhsildə də dərk eləmədiyim sahələri əzbərləməklə yola verirəm. Beləcə gərgin, qüssəli halda yataqxanada düşünürdüm, otaq yoldaşım (əslən Borçalının Başkeçid rayonundandı) gəldi. Halımı görüb təəccübləndi. Niyə qaralıbsan? – soruşdu. Vəziyyətdən yayınmağa çalışdım: "Mənə elə gəlir ki, kənddə nəsə baş verib, sümüyümə damıb" dedim. Oğlan güldü, "Yəqin Asif Ata səni də ovsunlayıb" dedi. "Rədd ol sən də, sənin Asif Atan da" deyə oğlana kobud cavab verdim. Əslində mənim bu reaksiyam təsirə düşməyimi ört-basdır eləmək üçün idi. Həm də bu oğlanın düzgün fəhmi məni çaşdırdı. Bununla belə, ürəyimə bir rahatlıq gəldi. Asif Ata görüşdə onunla əlaqə qurmaq istəyənlərə telefonunu yazdırmışdı. Mən də yazıb götürmüşdüm. Yaxşı oldu, zəng edib görüşəcəm. Amma görüşə biləcəyimə o qədər də ümidli deyildim. Axı mən kiməm ki, bu kişi mənimlə görüşmək istəsin? Yəqin telefonunu verib ki, səviyyəli, döşünə döyən, elmli adam varsa, gəlsin söhbət edək. O vaxtlar bizdən bir kurs yuxarıda oxuyan otaq qonşum vardı. Onunla tez-tez görüşürdük. Mülahizələri mənə cazibəli görünürdü. Zəifliyimin zəif telləri ilə bağlanmışdım ona. Mənə özünün AMAC (Azərbaycan Milli Azadlıq Cəbhəsi) yaratdığını demişdi. Hətta məni özünə müavin sayırdı. Guya məndən başqa da özünün çoxlu ətrafı var. Amma DTK işi pozmasın deyə onları bir-birindən gizli saxlayır. Mən də inanmışdım ona. Oğlan bu yolnan ətrafına tələbələr cəlb eləmək istəyirdi. Qabiliyyətli və vətənpərvər oğlandı, amma nə istədiyini bilmirdi. Bu gün də öz içinə qapılıb vurnuxmadadı. Adı Şahindir, Qəbələ rayonundandır.

Asif Atanın yanına getmək istəyimi bu oğlana bildirdim. Dedi get dinlə, fikirləri bizə gərək ola bilər. Amma çaşıb o kişinin təsirinə düşmə, onun cazibəsi güclüdür. Avtomat telefondan zəng elədim (95-59-48), həyəcanlı idim, dəstəyi Asif Ata özü götürdü. Salamlaşdım və onun tanımadığı bir gənc olduğumu, onunla görüşmək istədiyimi bildirdim.

Çox ehtiraslı, cazibəli, inamlı səs eşitdim: – “gəl, oğul!” Telefonda mənə evinin ünvanını dedi – “Tibb Universitetinin əsas binası ilə yan-yana, S.Vurğun küçəsi, 116, giriş 6, 2-qat, mənzil 44. Saat neçədə gələcəksən?” deyə soruşdu. “Saat ikidə (14.00) sizi narahat edəcəm” dedim. “Çox yaxşı, gözləyirəm”. Bu inamlı səs məni öz mühitimdən elə ayırdı ki, ondan sonra demək olar başqa heç nə haqqında düşünmürdüm. Həyəcanlı idim. Bilmirdim ondan nə soruşacam, mən də nəsə danışmalıyam, danışmalı deyiləm?! Gəldim ünvanı tapdım. Amma hələ vaxt vardı, gec vəd verdiyimə peşiman olmuşdum. Həyəcan məni möhkəm darıxdırmağa başlamışdı. Özümü toxdada bilmirdim. Sözlər düşünürdüm, onunla görüşəndə nə deyəcəm?! Necə eləyim ki, onunla üz-üzə gələndə özümü maymaq kimi aparmayım?! Bəlkə mənə üstdən aşağı baxacaq, təhər-töhrümdən xoşu gəlməyəcək, görüşdən imtina edəcək?! Əslində hələ heç bilmirdim ki, kimin görüşünə gedirəm, bu görüşdə məni nə gözləyir? Bu məchul düşüncələr içində ikinci qata qalxdım və qapını döydüm. Tək yaşadığını bilmirdim. Bəlkə arvadı-uşağı bu gəlişimdən rahatsız olarlar deyə düşünürdüm. Qapı açıldı. Çaşıb qaldım. Görüşdə gördüyüm qırımdan, haraydan, hikkədən əsər-əlamət yox idi. Üzündə ifadəli təbəssüm, doğma əhval vardı – sanki illərin tanışı, dostu idik. Qucaqlaşdıq, öpüşdük. Əhvalım qaynar bir sevincə bürünmüşdü. Mənə elə gəlirdi ki, özümə bərabər bir adamla görüşürəm. Onunla görüşümün xəyalımdakı çətinlikləri, mürəkkəbliyi yox olub getmişdi. Keçib oturdu, mənə də yer göstərdi. Əhvalımı soruşdu, minnətdarlıq etdim. Dinləməyə hazır vəziyyətdə dayanıb “Eşidirəm səni” dedi. Mən də söhbətimə Borçalıdan başladım. Azərbaycanın tarixini bilmirdim, problemlərinin nədən ibarət olduğunu dərk eləmirdim. Azərbaycanın tarixini heç indi də dərin bilmirəm. Borçalının problemlərini də əsaslı bilmirdim. Axı bu dediyim məsələlərnən ciddi məşğul olmamışdım da. Ona görə nə istədiyimi bilmirdim, yaxud nəsə istəyirdimmi? Dərinə getsək, heç təhsil qayğılarım da əsaslı deyildi. Təbii bir həyat normativi ilə yaşayan sıradan

birisi idim. Ona görə Asif Ata "səni dinləyirəm" deyəndə, heç də məni gündəlik məşğul etməyən, hansısa ciddi axtarışında olmadığım şeylərdən danışmağa başladım. Yalnız azdan-çoxdan fitri natiqlik qabiliyyətim vardı. Mənə elə gəlir ki, o vaxtlar bu qabiliyyətim tay-tuş arasında zahiri görüntü yarada bilirdi. Mənim fəal sayılmağımın yeganə səbəbi də bu idi. Çünki mənim fədakarlıq kimi başqa fərqli bir keyfiyyətim başqaları üçün elə də önəmli deyildi. O vaxtlar institut həmkarlar təşkilatının idarə heyətinə üzv seçilmişdim. Fakültə təşkilatında olmaqla yanaşı, ümuminstitut üzrə mənzil nəzarət komissiyasının sədri seçilmişdim. Özümü fəda edirdim. Otaq-otaq gəzib tələbələrin məişət problemləri ilə tanış olurdum, hansı otaqda divar kağızı cırılıb, divarda dağıntı, qapı-pəncərədə sınıq var idi, qeyd edirdim və mənzil-təsərrüfat işlərinə cavabdeh şəxslər qarşısında məsələ qaldırırdım, həll etmələrini tələb edirdim. Fitrətən fədakar və təmənnasız olduğuma görə, elə bilirdim mənim bu qayğılarım hər kəsin xoşuna gələcək. Gizli bir şöhrət duyğusu da mənə həvəs verirdi. Amma qısa müddətdə bəlli oldu ki, institutun nəzdindəki tikinti-təmir idarəsinin rəhbərliyi üçün arzuolunmaz tələbəyə çevrilmişəm. Əllərində imkan olsaydı, məni institutdan qovdurardılar. Hətta həmkarlardan tələbə yoldaşlarım, eləcə də otaq şəraitlərinin qeydinə qaldığım bir çox tələbələr arxamca danışmağa, lağ eləməyə başlamışdılar. Mənimlə birgə fəal sayılan və həmkarların idarə heyətinə seçilən tələbələr özləri üçün müəyyən imtiyazlar əldə eləmişdilər və başqa heç bir qayğıları yox idi. Mən isə mənasını, sonrasını bilmədiyim (ötəri bir şey olsa da) hər cür xidmətdən ləzzət almışam. Məni Soylu Atalı eləyən məhz bu keyfiyyətim olub.

Beləcə Borçalı ilə bağlı o qədər də dərin olmayan qayğılarımı Asif Ataya bəyan elədim. Bu kişinin bütün ciddiliyi ilə, maraqla məni dinləməsi içimi həvəsə gətirirdi. Elə hey danışmaq istəyirdim. Amma sözüm tükənmişdi, özümü təkrar eləməyə başlayanda Asif Ata dilləndi: – "Aydındır, oğul, indi Atanı dinlə". Və başladı...

Artıq mənə tanış əhval idi: eynən yataqxanada görüş vaxtı olduğu kimi çılğın, hayqırtılı. Gözlərini yummuşdu. Üzü qızarmış, alnında tər puçurlamışdı. Elə bil böyük bir auditoriya qarşısında danışırdı. Mənə elə gəlirdi ki, sakitcə aradan durub çıxsaydım, yenə danışacaqdı. Ehtirası alov püskürürdü. Alov qarşısına nə çıxır yandırır. Yalnız yandırmağa heç nə qalmayanda dayanır. Və mənə elə gəlirdi ki, bu kişi yanğısını tam verməyincə dayanmayacaq. Canım su içində idi, tər gedirdi. Yoox, bu yalnız kişinin alovlu nitqinin hərarətindən deyildi. Xəcalət təri idi. Gör kimin qarşısında "mən də varam" demişəm, ötkəmliklə danışmışam?! Görüşənə qədərki əhvalım qayıtmışdı içimə, amma başqa biçimdə. Onun mehribanlıqla, sadəlik və doğmalıqla məni qarşılaması belə, bu insanın qarşısında kiçik bir çöp olduğum təsəvvürünü ağlımdan uzaqlaşdırmırdı. Bu bir saatlıq (bəlkə də bir az çox) söhbətdə Azərbaycanın, İnsanlığın obrazı haqqında təsəvvürlərimin dayazlığını anladım. Fikirlər sel kimi yağırdı üstümə. Çox şey duman içində qaraltı kimi çatırdı ağlıma. Ata dayandı, gözlərini açıb üzümə baxdı. Yanaqları parıldayırdı. Doğma bir təbəssümlə "Sualın varmı, oğul?" dedi. "Yox", deyib ayağa durdum. Heç əl ilə görüşmədən "sağ olun" deyib tələsik onu tərk elədim. Pilləkənləri düşəndə elə bil havada yeriyirdim, havalanmışdım. O mənim arxamca nə düşünürdü, – bilmirəm. Amma mən heyrət və təəccübdən keyimişdim. Ağlım heç nəyi kəsdirə bilmirdi. Hara getdiyimin fərqində deyildim, fəhmlə yeriyirdim, şüurum özümə qayıtmamışdı. Su köşkünün qarşısında başımı qaldırdım. İki stəkan dalbadal sərin su işdim. Hərçəndi isti havalar düşməmişdi, amma içim yanırdı. Birinci dəfə idi ki, indiyə qədər nümayiş elətdirdiyim vüqarımın təməlsiz olduğunun fərqinə varırdım. Bu adam mənim hər şeyimi sındırıb tökmüşdü. Özümü ələ almağa, sındırmamağa çalışırdım, amma bacarmırdım. Cavabsız suallar içimdə sel kimi o yana, bu yana axırdı. Çox qəribədir, bu kişi niyə haldan-hala düşürdü? Onun haraylı səsi məni yanından qovurdu, amma sonra sadə təbəssümü elə bil "qal" deyirdi. Qala bilmirdim.

Bəlkə onun bu vəziyyəti hamını yanından qovur? Həm qovur, həm də elə bil tutub saxlayır. Şahin niyə deyirdi onun cazibəsi var, düşmə təsirinə? Nədir bu insanda mənim anlamadığım sehr, cazibə və itələmə? İçimdə inam şübhəyə qarışmışdı, şübhə inama. Ancaq heç nəyə cavab tapa bilmirdim. Sonralar mən bildim ki, Asif Ata görüşdüyü hər kəsi həqiqətlə, inamla üz-üzə qoyur. Onun kimi olmaq, həqiqətlə bir olmaq, inama qovuşmaq – gərgin ömür və ciddi mübarizə tələb edir. Düşünmək, beynini sıxmaq, əsilləşmək, özünü və heç kimi aldatmamaq, birüzlü, biryönlü, fədakar, təmənnasız, vicdanlı yaşamaq, böyük insan olmaq, böyük Vətən yaratmaq, cəmiyyəti xalq səviyyəsinə yüksəltmək uğrunda döyüşmək, özümləşmək – özümləşdirmək, insanlaşmaq – insanlaşdırmaq ağır işdir, bütün ömrü buna həsr eləmək tələb olunur. Bunu kim istəyər, kim bacarar?! Asif Ata təkləri, təkcələri, ömrünü bu Amala vermək istəyənləri axtarırmış. Siyasət işlətmir, aldatmır, şirnikdirmir, qorxutmur. Öyrədir, qandırır, sevdirir. Gələn gəlsin, bu yükü götürməyi bacaran mənə qoşulsun, yol gedək, xalq olaq. Bu yükün altında oyun oynamaq, başqa məqsəd güdmək, nisbi mənafelər aramaq, ucuz şöhrət qazanmaq mümkün deyil. İçəridən doğruçu, səmimi, özünü dərk eləyən, özünü həsr eləyən böyüyəcək, inamçı olacaq, təməl tökəcək, Qiblə yaradacaq, İnsan böyüklüyünü göstərəcək, Yurd müqəddəsliyini sevdirəcək, ümumbəşər məzmunundan doğan Meyarı tanıdacaq. Əlbəttə, bunları mən o vaxtlar dərk edəcək qədər xoşbəxt deyildim.

Beləcə, qayıtdım yataqxanaya. Təsadüfən Şahinlə görüşdük. Asif Ata ilə görüşüb-görüşmədiyimi soruşdu. Xatırlamıram, nə isə ona cavab verdim. Onu bilirəm ki, cavabım Şahinin "nə danışdınız" sualından yayınmaq məqsədi daşıyırdı. Asif Ata ilə nə danışdığımı özümə izah edə bilmədiyim halda, başqasına heç nə deyə bilməyəcəyim aydın idi. Asif Ata ilə görüşümüzün anlamı mənə dalğa-dalğa çatırdı. Bunları sözlə ifadə edə bilmirdim. Lakin əsasən hər şey dumanlı idi. İçimdə hər an inamla şübhə üz-üzə gəlirdi. Asif Ata düzmü danışır, səhvmi deyir? Necə

edim, kimdən soruşum, kimlə məsləhətləşim ki, mənə həqiqəti desin? Axı bir də ciddi cavab verə biləcək adam tanımırdım. Ağlıma gəlirdi ki, bəlkə bu kişi ilə əlaqəni kəsmək və unutmaq doğrudur. Bunu bacaracaq iradəm isə yox idi. Artıq görüş öz işini görmüşdü. Səhər dərsdən yenə qaçdım. Avtomat telefondan Asif Ataya zəng elədim, gəlmək istədiyimi bildirdim. Ata məmnunluqla "gəl" dedi. Getdim. Dinlədim. Deyəsən, inamım artmağa başlamışdı. Yavaş-yavaş hiss edirdim ki, ən yaxşı gənəşmə, ən doğru məsləhət elə Asif Atanın özüylə görüşməkdir. Beləcə hər gün zəng edib görüşünə getməyə başladım. Bu kişi hər gün maqnit kimi məni çəkir, gözəgörünməz tellərlə özünə bağlayırdı. Hara gedib-gəldiyimi yoldaşlara bildirmirdim. Hər gün yüksək həvəslə, şövqlə gedirdim Asif Atanın yanına. Bu kişiyə mane olub-olmamağım haqqında da düşünmürdüm. Bir dəfə Ata Evinə gedəndə başının ortasında saçı tökülmüş, gözlüklü bir oğlan gördüm. Mən içəri keçəndə Ataya çay süzüb aparırdı. Asif Ata məni oğlana təqdim elədi: "Tanış ol, oğul, Atanın pərəstişkarı Zülfüqar bəy". Amma o oğlanı mənə təqdim eləmədi. Sonralar bildim ki, bu oğlan mənim gəlişimə qədər Ocaqda "Soylu" adını daşıyan Vidadi (Rzayev) imiş.

Atanın yanına təxminən üçüncü dəfə gələndə görüşümüz məni təəccübləndirmişdi. İçəri keçdim, Atayla görüşmək istəyəndə ovcunu yerə paralel tutub əlini mənə uzatdı, özü də lap yuxarıdan. Mən də Atanın əlini salamlaşmaq qaydası ilə tutdum və təbii bir salamlaşma ilə aşağı apardım. Atanın əlini aşağı aparmağa bir az güc də tətbiq elədim. Bu hal sonrakı görüşdə də təkrar olundu. Heç nə anlamırdım, nə deməkdir bu? Özündən də soruşmağı yersiz hesab elədim. Növbəti görüşlərimizin birində Atanın yanına niyəsə çox fərəhli gəlmişdim. İçəri girən kimi Atanın əlini öpdüm və "Müqəddəs Ataya Ali ehtiram və hörmət" ifadəsi işlətdim. Ata da özünəməxsus sevinclə "Oğul, Ocaqçılardan kimi görmüsən?" deyə sual verdi. Doğrusu, tutuldum və nə cavab verəcəyimi bilmədim. Asif Atanın nə soruşduğunu anlamamışdım. "Ocaqçılar" sözü əcnəbi söz təsiri bağışla-

mışdı mənə. Ata döyükdüyümü görüb bir də soruşdu: "Bizimkilərdən kiminlə görüşmüsən?" Dedim "heç kimlə". Ata "bizimkilər" deyəndə kimləri nəzərdə tutduğunu bilmirdim. Keçib oturduq. Ataya qutuda konfet almışdım. Ondan heç nə soruşmadan mətbəxə keçdim, çay süzüb gətirdim, konfet qutusunu açıb qarşısına qoydum. Mənim bu ərkyana qulluğumdan Ata məmnun qalmışdı. Bir-iki qurtum çay içib qırağa itələdi. Ciddi bir görkəm alıb sözə başladı: "Oğul, sənin fitri ləyaqətin iş görə bilər. Mən istəyirəm sən Ataya Evlad olasan". Dedim: "Elə mən də Asif müəllimi özümə mənəvi Ata hesab edirəm". Dedi: "Yox, oğul, belə hörmət bəsləmək azdı. Bizim Ruhaniyyat Ocağımız var, Atanın Evladları var, biz iş görürük. Ataya rica yazmaq, Ocağa qəbul olmaq gərəkdir. Get düşün, yaz və gəl". "Yaxşı" deyib getdim. Oturub bir ərizə yazdım: "Ocaq cəmiyyətinin rəhbəri Asif Ataya ərizə"... Axşamtərəfi durub gəldim yanına. Ata məni gözləmirdi. Mənim isə xislətimdə həmişə bir tələskənlik olub. Ərizəni qoydum qarşısında stolun üstünə. Özüm də şəstnən dayandım yanında. Ata oxuyub üz-gözünü turşutdu. "Aydındı, oğul, qalsın, sonra baxarıq" dedi. Ata gördü ki, Ocaq haqqında heç nə bilmirəm, heç nəyə daxilən hazır deyiləm. Mən isə nəyi isə düz eləmədiyimi düşünüb xəcalət çəkdim. Ata ayağa durub "Yaxşı, oğul, vaxtını itirmə. Qaranlıqlar yarılsın" deyərək mənə getməyi işarə verdi. Ata Evini çox pərt halda tərk elədim. Bu məni niyə belə yola saldı, "Qaranlıqlar Yarılsın" nə deməkdir, bəlkə bir də gəlmə deyir?! Beləcə kefsiz, könülsüz getdim yataqxanaya. Gecəni yaxşı yata bilmədim, səhər dərsə getmədim. Yerimin içində hər şeyi götür-qoy eləməyə çalışdım. Necəsə yuxuya dalıram. Bir də günorta otaq yoldaşımın qayıdışı məni oyatdı. "Dərsə niyə gəlməmişdin, müəllimlər sənə qaib yazdı" deyərək qüssəmin üstünə bir az da bu əlavə elədi. "Xəstəyəm" deyib ayağa durdum. Əl-üzümü yuyub aşağı düşdüm. Avtomat telefona yaxınlaşıb zəng elədim. Ata dəstəyi qaldırdı. Qorxa-qorxa "mənəm" dedim. Atanın səsində sevinc duydum. "Kefin niyə yoxdur?" deyə soruşdu. Həqi-

qəti ona demədim, başqa səbəb göstərdim. Əksər hallarda içimi gizləməyə meyilli idim, səbəbini isə bilmirdim. Ata Evinə gəlmək istədiyimi bildirəndə "Gözləyirəm" dedi. Sevincimdən beşinci qata qaça-qaça çıxdım. Ata Evinə tələsirdim. Ürəyim az qalırdı yerindən çıxsın, tövşüyürdüm. Əhvalım tamam dəyişmişdi. Otaq yoldaşım məni bu əhvalda görüb təəccüb elədi: "Bəs deyirdin xəstəsən?" Cavab verмədən ayaqqabılarımı geyinib tələsik dəhlizə çıxdım. Birbaşa Ata Evinə yollandım. Doğmaca görüşdük, söhbətləşdik. Beləcə Yağış Ayına (noyabr) qədər Ata ilə əlaqə saxladım. Özüm də artıq yataqxanadan böyük bacımın (Çəmənin) evinə ("Neftçilər" metrosunun yaxınlığına) köçmüşdüm. Əri yazda Rusiyaya (qazanc dalınca) gedirdi. Mənimlə söhbət eləmişdi ki, bacımgili tək qoymayım, yığışıb onların yanına köçüm.

12-ilin Yağış Ayında Atanın Razin (sonradan Bakıxanov oldu) qəsəbəsinin mədəniyyət sarayında görüşü keçirilirdi. Ata özü məni görüşə çağırmışdı. Getdim, keçib bir tərəfdə oturdum. Gəlib oturanları müşahidə edirdim. Onlardan bir neçəsi bir-birinə yaxınlaşanda əllərini ürəklərinin üstünə qoyub nəsə deyirdilər. Bu, o vaxtlar mənim hələ bilmədiyim "Ürəyində Ata Günəşi olsun" ifadəsi ilə Ocaq qaydasında görüşmək imiş. Elə bilirdim ki, içəri girənlərin hamısı bir-birinə belə deməlidi. Birdən ağlıma çatdı ki, Atanın "Ocaq Evladları" dediyi yəqin bunlardır və yalnız bir-biri ilə o cür görüşürlər. Görüşün sonunda bir qrup adam (aralarında qızlar da vardı) səhnəyə çıxıb bir-bir Atanın əlini öpməyə başladılar. Bunların arasında mən də səhnəyə qalxdım. Özüm də onların bəzilərini yara-yara qabağa keçdim. Artıq mənim üçün bəzi şeylər aydınlaşmağa başlayırdı. Deməli, Atanın əlini öpmək ənənəsi varmış. Ata əlini yuxarı qaldıranda öpməyim üçün təqdim edirmiş.

Görüşdən sonra Atanın əlini öpənlərdən (Evladlarından) bir neçəsi onu dövrəyə alıb söhbət edirdilər. Mən də onların qabağına keçirdim. Qəribə bir qısqanclıq duyğusu baş qaldırmışdı içimdə. Ən qəribəsi isə bu idi ki, bu vaxta qədər Soylu-Vidadidən başqa heç kimi Atanın yanında görməmişdim. Onu da cəmi iki dəfə görmüşdüm.



***Anası Cahan xanımla. Ocağın 15-ili (1994)***



***Ailəsi və üç oğluyla. Ocağın 20-ili (1998)***

*xxx*

Ocağa gəlməyin qaydalarını öyrənmək üçün Ata mənə Ocaq Evladı Yüksək-Əvəzin ev telefonunu vermişdi. Bacımgildən zəng elədim, Yüksək-Əvəzi soruşdum. “Yüksək evdə yoxdur, mən Elliyəm, nə kömək eləyə bilərəm?” deyə cavab verdi-lər. Görüş istədim. Dedi “Neftçilər” körpüsünün altında görüşək. Görüşün vaxtını dedi və tanımaq üçün bəzi nişanələrini də söylədi: – “Başımda kommunistlərin şapkasına bənzər bir şey, qoltuğumda isə iri həcmli qırmızı kitab olacaq”. Vəd olunan saatda görüşdük, bacımın evinə qalxdıq. Xeyli söhbət elədik, bacım süfrəyə çay-çörək gətirdi. Oğlan Ocağa qəbul qaydasını başa saldı, oxumaq üçün kitabı məndə saxlayıb getdi. Bu, “Mütləqləşmək – Var olmaq” (II Müqəddəs Kitab) idi. Həmin Kitab bu günə qədər də məndədir.

Hazırlaşdım, rica yazdım və Sərt Ayının 25-də Atanın hüzurunda oldum. Ata Ocağa qəbul mərasimi keçirdi və mənə “Soylu” adı verdi. Artıq məndən öncəki Soylu adını daşıyan Vidadi bəy Ocaqdan çıxarılmışdı. Beləcə təxminən bir il öncə həyatımda yaranmış dönüş mərhələsinə Asif Ata tərəfindən, necə deyərlər, rəsmi imza atıldı. 27 Sərt Ayı, 12-ildə Ocağın “Səfər Günü” Mərasimində Mütləqə İnam Ocağına təqdim olundum və Atadan Evladlıq Nişanəsi (N-66) aldım.

Çox inamlı və fərəhli idim. Elə bilirdim ki “məndən yoxdur”. Ağlıma çatmırdı ki, bu, ötəri əhvaldır, ömür bir anda qurulmur, hər şey bir anda dəyişmir. Bir anda görünən dəyişikliyin arxasında durmaq gərəkir, – yeni iradə yaranmalıdır. Həqiqəti tanıya bilmək və sevmək, mənəviyyat aşiqi olmaq. Bunlar hamısı odun içində yerimək kimi bir şeydir. Həvəs yalnız başlanğıcdır,– imkanı göstərir və çəkilir. Yuxarıda vurğulanan keyfiyyətlər olmasa, imkanlar yetirilməyəcək və həvəs də tükənib gedəcək. Həvəslə gələn iradənin yetərsizliyini hər addımda hiss edirdim. Həvəs tez alışıb, tez sönür, idrak isə gec yaranır və davam edir.

Ocağa gəldiyim ilk günlərdən papiros çəkməkdən imtina elədim. Böyük bacımın qızını öyrətdim, şirnikdirdim və Ocağa cəlb elədim. Atanın hüzuruna apardım, Ata ona "Göylü" adı verdi. Ruhaniyyat haqqında heç bir biliyim, təsəvvürüm olmadığı üçün, özümdən çox, bu qızın davranışlarına nəzarət edirdim. Az qala mexanizm kimi idarə olunan davranış yaratmışdım. Hələ ki, qız mənim yasaqlarıma uyur, çətinliklə də olsa dözürdü. Onun həyatını sxemləşdirmişdim. Öz ömrümü isə əsasən zahiri görüntülərə çevirirdim. İçəridən dəyişməyi dərk eləmirdim. Getdikcə ünsiyyətlərimdə quruluq və kobudluq görünürdü. Atanın fikirlərini hərfi mənada qəbul edirdim. Məsələn, Ata deyirdi "Siz cəmiyyətin ruhani müəllimlərisiniz". Mən də başqalarına üstdən aşağı baxırdım, içimdə xudbinlik duyğusu böyüyürdü. Yolu bilməmək, mənəviyyatı dərk etməmək fəaliyyətə başlayan adamda ilk öncə mənfi keyfiyyətlər aşkarlayır. Belə halda adam düzgün yönəldilməyəndə hədəfdən yayınır, başqa yerə gedib çıxır. Adam hədəfini dərk eləmək istəyəndə qarşısına özünü qurmaq tələbi çıxır.

Mənim çətinliyimin başqa bir özəlliyi də vardı, – təməlim yox idi, müstəqil olaraq özümü qurmaq iqtidarında deyildim. Ömrüm əsasən qıraqdakı təsirlə (Atanın təsirilə) cilalanırdı, içəridən öz gücümlə cilalanmırdı. Ona görə də mənim qurulmağım ən çox əməli fəaliyyətimin inkişafı ilə sonuclanırdı. Şübhəsiz ki, əməl də ömürdə quruculuğa yön verir. Amma bir var, birbaşa mənəviyyatla məşğul olmaq, bir də var hünərə doğmalaşmaqla, çətinlikdən dərs almaqla mənəviliyə yetmək. Ömür yalnız ikinci hala köklənərsə, mənəviyyatlı olmaq həm çox gecikir, həm də nisbi olur.

Mən ilk gəncliyimdə kitab adamı olmamışam. Düşünmək, ciddi məsələlərdə baş işlətmək imkanım xaricində idi. Ayaq əməllərinə daha çox meyilli olmuşam, bu yöndə uğurlarım da yetərincə olub. Əməl mənə həm qanad verib, həm də aldadıb. İdrak işiynən ciddi məşğul olmurdum.

Amma əməli gedişlərimdə çox inamlı idim. Bununla belə, inamçılığımda müdriklik yox idi. Əməllərimin ifadə elədiyi məzmunun heç də asan qəbul olunmayacağını düşünmürdüm. Bəlkə də düşünməmək mənim xeyrimə idi. Çünki əməli müşahidə edənlər məzmunu dərk eləmirdilər, mən isə məzmundan başqa çətinliyi də dərk eləmirdim. İnadkarlığım Ocağa bağlanmaq yolunda xeyrimə işləyirdi. Bəzən adamda elə keyfiyyətlər olur ki, ideala bağlanmaq baxımından hələ aşkarlanmamış idrakiliyin gizli köməkçiləri kimi çıxış edirlər. Məsələn, məndə fədakarlıq, inadkarlıq, hünərçilik, intizamçılıq kimi keyfiyyətlər çox fəal olub. Lakin bu keyfiyyətlər hələlik idealı dərk eləmək, ona vurulmaq tələbindən deyil, şöhrətə dartınmaq tələbindən qaynaqlanırdı. Hərçənd şöhrət məsələsi üzdə bir o qədər qabarmırdı. Burada özünü hissi olaraq ifadə eləmək meyli də vardı. Hədəfə doğru özümə dərindən bəlli olmayan bu gedişlərimdə əməllərimi bəzəmək, artırmaq çalarları da özünü göstərirdi. Atanın daim diqqətində olmaq, başqalarından üstün görünmək xislətimdə nümayişçiliyin olduğunu üzə çıxarırdı. Ataya hesabat verirdim, gördüyüm, hətta görmədiyim işlərdən danışırdım. Gördüyüm işləri də çox vaxt artırırdım. Ata filosofdur, güclü idrak yiyəsidir. Kimin nəyə qadir olduğunu, düz və ya əyri danışdığını, əlbəttə, bilirdi, görürdü. Sadəcə üzə vurmurdu. Adamı pərt edib işdən-gücdən çəkindirmək yox, ağlını, ləyaqətini böyütməklə işə, səmimiyyətə, doğruçuluğa öyrədirdi, yönəldirdi. Atanın qiymətləndirməsi yığcam, konkret və dəqiq idi. Hər kəsi özünə, hünəri baxımından, olduğu kimi göstərirdi. Tənqid eləmirdi, hər kəsi özünə tanıtmaq, özüylədöyüş ləyaqətini göstərmək – Atanın Evladlarına yanaşmaq üslubu idi. Danlayanda belə sevgisiz, inamsız olmurdu.



***Ilk övladı türkellə və həyat yoldaşı Ucatay-Xəzangüllə Asif Atanın "qonağıdır" (1992)***



***Asif Ata zamanının Ocaq Mərasimində... Soldan üçüncü.***

***xxx***

Kəndimizdə təbliğat aparırdım. Asif Ata kimi hər şeyi bilən, tanınmış bir dostumun, tanışımın olması ilə öyünürdüm. İstəyirdim Asif Ata ordakıların tez-tez mövzusu olsun. Qulağım səsdə idi. “Filankəs böyük adamlarla oturub-durur” kəlməsini kimdənsə eşitmək həsrətində idim. Hərdənbir atam yarıciddi “Onun atası peyğəmbərdir, alimdir, mən deyiləm” deyə qürrələnirdi. Bu mənə yaxşı təsir edirdi. Amma içimdə bu deyilişin uzunömürlü olmasına inanmırdım. Ötəri bir fəxarət idi bu münasibət. Yenə də seçilmək, kimlərdənsə artıq görünmək xudbinliyi gizlənirdi mənim bu istəklərimdə və atamın bu istəklərimə qoşulmasında. Adamlıq səviyyəsində hər bir kəsin puluyla, varıyla, vəzifədə olan bir dostuyla başqalarının qarşısında qürrələnmək, öyünmək ehtiyacı olur. Adam, vüqarı içində yarada bilməyəndə özünə kənarda vüqar qaynağı axtarır. Nə atam, nə də onun söhbət elədiyi adamlar bilmirdilər ki, mənim öyündüyüm Asif Ata heç bir vəzifədə işləmir, heç bir rəsmi nüfuzu yoxdur, cəmiyyət tərəfindən qəbul olunmur. Onlar elə bilirdilər ki, Asif Ata yüksək bir vəzifədə işləyir, peyğəmbərliyi də təsirinin, nüfuzunun, rəsmi hörmətinin çox olduğuna verdiyimiz qiymətdir. Əslində mən də onların bu yanlış baxışlarını dəyişmək istəmirdim. Dəyişmək çətin deyildi. Şəstlə durub desəydim “Asif Ata yeni İnam yaradıb, yeni peyğəmbərdir”, çaxnaşma düşərdi. “Bəs Məhəmməd necə olsun, bəs İslam, bəs Quran?” adamlar dərhal əski baxışlarının müdafiəsinə qalxacaqdılar. Mənə də ağlımı başıma yığmaq tövsiyə olunacaqdı. Süni yaradılmış şan-şöhrət evi bir anda uçub-dağılacaqdı. Adamlar sevinəcəkdilər, onlardan üstün olmadığımızı, əksinə, “rüsvayçı” bir əskikliyimizin olduğunu sevinclə bəyan edəcəkdilər. Qısqanclıq qələbə çalacaqdı. Adamlar maddi üstünlükdən, şöhrət, nüfuz üstünlüyündən başqa üstünlük dərk eləmirlər. Mən əsl vəziyyətin bilinməsini istəmirdim. Asif Atanı Borçalıya gətirmək, burada onun görüşlərini təşkil eləmək arzusundaydım. Bir şey də beynimə düşdüsə, onu mütləq gerçəkləşdirməliyəm. Mənə elə gəlirdi ki, Asif Ata bunlarla görü-

şüb hər şeyi başa sala bilər və onu anlayarlar, mənim də doğru yolda olduğumu qəbul edərlər. Amma ümid bəsləmək, hələ tez idi.

12-ilin Köçəri Ayında Ataya, onu Borçalıya aparmaq istədiyimi dedim. Ata uca bir ehtirasla fikrimi bəyəndi və gedib ciddi təşkil etməyi, hazırlaşmağı tapşırdı. Mən isə hər şeyi təşkil elədiyimi dedim. Hətta Atanı Tbilisidə qarşılayacağım günü də "təyin elədim". Əslində isə mən ciddi heç nə təşkil eləməmişdim. Yalnız öz valideynlərim və yaxın qohum-əqrəbam arasında söhbətlərim olmuşdu. Evdə isə Atanı bura gətirəcəyimi demişdim. Atanın kimliyi isə, yuxarıda dediyim kimi, onlar üçün qeyri-müəyyən idi, buraya gələnin kimliyinin həqiqəti burada heç kimə aydın deyildi.

Beləcə, bir neçə gün öncədən Borçalıya getdim. Özümlə, Atanın görüşlərinə dəvət məqsədiylə hazırlanan rəngli afişalardan götürdüm. Afişa Mütləqə İnam Ocağının Bayrağının rəmzi kimi işlənmişdi: – Günəş içində Atanın şəkli, altdan və üstdən "İnsanlaşın – İnsanlaşdırın" yazılmış, ümumi hissədə "Sizi Böyük Azərbaycan filosofu Asif Ata ilə görüşə dəvət edirik" sözləri verilmiş, tarixi, günü, saatı qeyd eləmək üçün xətlər cızılmışdı. Təxminən bir il öncə, oxuduğum institutun yataqxanasında Asif Atanın görüşü keçirilərkən elan kimi bu afişadan istifadə edilmişdi. Afişa yaraşıqlı idi, rəsmi təsir bağışlayırdı. Bunun ciddi iş görəcəyinə ümid edirdim.

Borçalıya gələn kimi afişaları yapışdırmaq üçün kəndlərə yollandım. Arıxlı kəndinə getdim. Kəndin şüşəli çayxanası vardı. İçəri keçib "bunu hara vurum" deyə soruşdum. Qapının yan tərəfini göstərdilər. Sonra Həsənxocalı kəndinə, Qoçuluya, İmirhəsənə, Saraclıya, Kəpənəkçiyə. Heç kimdən soruşmuram, məsləhətləşmirəm ki, olar ya olmaz. Çünki icazə istəmək, soruşmaq ağlıma gəlmirdi. Bilmirdim ki, kənd sovetinə getmək, onları xəbərdar etmək, icazə istəmək lazımdır. Axı heç yerdə bu cür təşkilatçılıq eləməmişdim, təcrübəm yox idi. Həm də Atanın görüşünün nə demək olduğunu bilmirdim, onun məsuliyyətini

dərk eləmirdim. Xalqın içinə çıxmaq, onun ağlında oturuşmuş, həyat tərzinə çevrilmiş əski baxışları rədd eləmək, onu yeni həyat nizamına çağırmaq – o vaxt mənim anlaya biləcəyim məsələlər deyildi.

İndi bu işlərdən sonra mənə elə gəlirdi ki, artıq hər şey hazırdır. Amma siyasi anarxiyanın başladığı, hər şeyə nəzarətin sanki itdiyi bir dönəmdə mənim zahiri təşkilatçılığımla hər şey doğrudan da hazır idi. Birincisi, Atanın demək olar ki, hər bir bölgədə vaxtilə dərs dediyi adamların olması onun gəlişinə böyük maraq yaradırdı. Bir vaxtlar auditoriyalarda Atanı dinləmiş adamlar üçün onun gəlişi adi hal kimi qarşılana bilməzdi. Tanımayanları isə "Ata" sözünün özü də cəzb eləyirdi. Başqa bir tərəfdən, SSRİ dağılandan sonra nə baş verəcəyini kəsdirə bilməyən toplum üçün bu cür görüşlər ciddi maraq və əhəmiyyət kəsb edirdi. Mənim zahiri təşkilatçılığım bir o qədər önəmli rol oynamırdı. Çünki yuxarıda dediyim kimi, heç bir ünvanda hələ mən fikir işi aparmamışdım. Yalnız afişaları yapışdıranda müşahidə eləyənlərin sorğularına ümumi və qısa cavablar vermişdim. Mənim işimin əsas önəmi Atanı maşınla ünvanlara çatdırmaq və bu müddət ərzində onun qalması üçün ünvan təşkil etmək idi (bu ünvan da öz evimiz idi).

***xxx***

Ata ilə vədələşdiyimiz gündə dayımoğlunun (həm də yeznəmiz, adı Kərəmdi) "06" markalı Jiquli maşını ilə Tiflisə qarşılamağa getdik. Qatar gecikirdi – təxminən saat yarım, iki saat. Həm sevinirdim, həm də həyəcanlı idim. İndi məni yalnız bir məsələ qayğılandırırdı – bircə Ata qalmaqalsız, xoş üzlə qarşılanıb yola salınaydı! Qonaq saxlamaq da çox çətin işdir. Evdə qonağın olduğu müddətdə mühitin dəyişir, evin ab-havasını qonağın əhvalına uyğun qurmalı olursan. Hər an nəzakətli davranmaq, səsini qaldırmamaq, heç kimə acıqlanmamaq... (qonaq elə bilər onun gəlişi gərginlik yaradıb). Qonağın özü üçün də çətindir. Bir saat, iki saat qonaq olarsan, buna hər kəs dözər,

özünü qanacaqlı aparar. Amma iki gün, üç-beş gün gərgin yaşamaq, diqqətli olmaq çətindir. Bu qədər müddətdə adiləşmə, yorulma baş verə bilir. Mənası o vaxt özümə tam aydın olmayan, bu yazını yazanda mənalandırdığım gərginliklə qatarın gəlməsi elanını eşidən kimi maşından düşdüm. Yeyin addımlarla platformaya çıxdım. Bir anlıq düşündüm ki, Ata gəlməyib. Qatarın arxa vaqonlarına tərəf yüyürdüm. Ata artıq vaqondan düşmüşdü. O, boz palto geyinmişdi, Əsil (Elxan) da yanında gəlirdilər. Ata məni görüb gülümsədi. Sevinci aydınca görünürdü. Qucaqlaşdıq. Hər ikisi ilə görüşüb maşının gözlədiyi yerə getdik. Gəlib doğma kəndim Talıblıya çatdıq. Hamı maraqla maşına baxırdı. Yəqin ki, hər kəsin ağlında bir nida dolaşır: "filankəsin evinə Bakıdan qonaq gəlib. Gör bunun oğlunun nə qədər böyük hörməti, nüfuzu varmış!" Ağlımda bu fikir cilvələnir, qürur duyurdum. Üzdə o qədər hiss olunmasa da, əhvalımda gizli bir lovğalıq vardı. Maşın həyətimizə girdi. Evdə bir qələbəlik hiss elədim. Maşın dayanan kimi düşüb qabaq qapını açdım (Ata qabaqda oturmuşdu). Əlindən tutub düşməsinə yardım elədim və "Ata elimizə, evimizə xoş gəlib!" deyə əlini öpüb səcdə elədim. Mənim dalımca atam Asif Atanın əlini öpdü və qucaqlaşıb öpüşdülər. Hər kəsin üzündə bir sevinc işığı vardı. Evimizin ikinci qatına qalxan pilləkənlərə xalça döşənmişdi. Atanı yerbəyer elədik. Atam bir heyvan və hind toyuğu kəsdi. Hazırlıq görüldü. Qısa müddətdə süfrəyə yemək gətirildi. Süfrə yığışdırılandan sonra görüşlərin təşkili barədə "müzakirələr"ə keçdik.

Axşam anababam Qəhrəmanoğlu Hümbət qonaqlara baş çəkmək üçün bizə gəldi. Ata ilə görüşüb oturdular. Söhbət başladı. Burada başqa adamlar da vardı. Babam suallar verir, Ata cavablandırırdı. Söhbət bir qədər gərgin keçdi. Çünki babamın anlamadığı və elə ona görə də qəbul etmədiyi məsələlər üzə çıxdı. Uzaq gələcəyə hesablanmış ideyalar çoxlarının ağlına batmır, özəllikcə sadə insanların. Atanın din haqqında, hakimiyyət haqqında mülahizələri çətin həzm olunurdu. Ata öncə təmkinlə danışırdı, adamların dini duyğularına toxunmamaq üçün. Ona

görə də gərgin idi. Sanki suallar hər şeyi çılpaq demək tələb edirdi. Və birdən Ata tövrünü dəyişdi. Ehtiraslı bir səslə "Bilirsənmi, oğul, Hümbət bəy, vəziyyət necədir?!." Babam Atadan təxminən 25 yaş böyükdü. Buna baxmayaraq, Ata ona "oğul" deyə sözə başlayır. Bu mexaniki bir yanlışlıq idi. Amma Atanın içi elə köklənmişdi ki, o, bütün bəşər övladına öz Ocağının, İnamının Evladı kimi baxırdı. Söhbət bitdi və gərginliksə sürürdü. Ata fərəhli idi, belə anlara alışmışdı. Amma ümumi əhvalda bir süstlük, susqunluq yaranmışdı. Deyəsən, artıq düşünürlər ki, Asif Ata arzu olunan qonaq deyil. Onlar yeni İnam yaradıcısı, yeni Peyğəmbər qarşılamamışdılar, rəsmi hörməti, səlahiyyəti olan vəzifə yiyələrini qarşılamışdılar. Ata artıq elan eləmişdi ki, o məmur deyil, dövləti təmsil eləmir, özünü, İnamını, Ocağını təmsil eləyir.

Gecəni yatdıq, səhər durub hazırlaşdıq və dayım Əlinin maşınında Arıxlı kəndinə yollandıq. Atanın vaxtı ilə dərs dediyi adamlardan məktəbdə müəllim işləyənləri vardı. Bununla belə, məktəbdə görüş gərgin keçdi. Atanın din məsələsi ilə bağlı mülahizələrinə yerdən etiraz edənlər oldu. Ata onların aman vermədiyini görüb zaldan çıxdı. Mən də oturmuşdum, görüşün gedişini iri lentli maqnitofonla yazırdım. Ata zalı tərk edəndə nə edəcəyimi bilmədim. Özüm də bərk pərt idim. Atam və dayım da burada idilər, bir tərəfdə sakitcə oturmuşdular. Özümü itirdim, mənə elə gəldi ki, hər şey alt-üst oldu. Vəziyyət mənə rüsvayçılıq təsiri bağışlayırdı. Bu an Əsilin səsi ucaldı. Haraylı, ehtiraslı, yanğılı bir hayqırtı ilə Atanın gəlişinin önəmini dinləyicilərə başa salıb, onları sakitləşdirdi! Əgər onda utanmasaydım, gedib Əsili qucaqlayıb öpərdim. "Ər oğlu ərsən!" deyərdim. Deyəsən, dinləyicilər də Atanın zalı tərk eləməsindən sarsılmışdılar. Üzlərdə "qonağa sayğısızlıq olub" ifadələri vardı. Ata gülümsünə-gülümsünə məktəbin direktoru ilə birlikdə zala qayıtdı. Əsil dinləyicilərə əl çalmaq işarəsi verdi. Hamı ayağa qalxdı, alqışlarla Atanı yenidən qarşıladılar. Görüş başa çatandan sonra kəndin aydınları bizə qonaqlıq verdilər. "Hamı

Asif Atanı anlaya biləcək səviyyədə deyil” deyə münasibət bildirənlər də tapıldı. Bununla həm də baş verən olaya görə üzrxahlıq edirdilər. Yemək vaxtı da ciddi söhbət getdi. Sonra Atanın görüşləri Qoçulu kəndində, İmirhəsəndə, Həsənxocalı–Daşdıqullar kəndində davam elədi. Bu kəndlərin heç birində ciddi narazılıqlarla qarşılaşmadıq. Saraclı aydınları üçün də Atanın gəlişi yüksək maraq yaratmışdı. Sonuncu görüşümüz Kəpənəkçi kəndində oldu. Əslində birinci görüşümüz Kəpənəkçidə olmalı idi. Qatar gecikdiyinə görə görüş cədvəlimizi bütövlükdə pozmamaq üçün bu görüşü sona saxladıq. Görüş klubda keçirildi. Hədsiz dərəcədə çox adam gəlmişdi. İçəri dolmuş, qapının qarşısında da xeyli sayda adam ayaq üstə qalmışdı. Klub böyükdü, dəqiq tutumunu bilmirəm. Amma iştirakçılar yüzlərlə idi. Atam da çöldə qalanların yanında olub. Suallar vermək üçün vərəqələr paylamışdım. Verilən suallar saya gəlmirdi. Hər kəs Atadan istədiyi cavabı gözləyirdi. Ata isə öz cavabını verirdi: “Sizi mən aldatmağa gəlməmişəm, yalançı ümidlər verə bilmərəm” deyirdi... Sonra eşitdim ki, çöldə dayananlardan kimsə söyüş söyüb, atam da cumub üstünə ki, sən kimin qonağını söyürsən. Atam eldə, obada da öz mərdliyi, qoçaqlıqları ilə ad çıxarmış adam idi. Ondan, demək olar, hər kəs çəkinirdi. Görüş qurtardı. Qayıtdıq evə. Atanı rahatladıq. Sabahısı gün Bakıya dönəcəkdi.

Mənim taleyimlə bağlı hadisələrin sonrakı inkişafında mühüm rol oynamış bu görüşlərin bəzi başqa faktlarını da burada qeyd eləmək yerinə düşərdi.

*xxx*

Görüşlərin birindən qayıdanda Əsil Atanın ayağını yumaq üçün isti su istədi. İsti su və ləyən gətirdim. Qollarımı çırmaladım ki, Atanın ayaqlarını yuyam. Əsil qabağa durub “özüm yuyacam” dedi. Mən dedim mən yuyum, Əsil dedi mən yuyum. Axır ki, Əsil yumalı oldu. Bizim Atanın ayağını yumaq üstündə “çəkişdiyimiz” bir məqamda atam otağa daxil olub Atanın

əhvalını, nəyəsə ehtiyacı olub-olmadığını soruşdu. Asif Ata razılıq etdi və hər şeyin qaydasında olduğunu bildirdi. Atam olduqca ləyaqətli və qonaqpərvər kişi idi. Qapını örtüb çıxdı, amma hələlik anlamadığım tutqun bir əhvalla. İndi hər bir addım, hər bir davranış, münasibət atama fərqli rəngdə görünür, fərqli məna daşıyırdı. Şübhəsiz ki, Asif Atanın təqdim elədiyi ideyalar anlamayanlara əzici, üzücü təsir bağışlayırdı. Atamın əhvalına tutqun təsirlə daxil olan fakt ondan ibarət idi ki, Əsil və mən naşı uşaqlar kimi özümüzü "aşağılayırıq", hansısa bir alimin ayağını yumaq üçün canıyananlıq edirik.

İki ay idi evlənmişdim. Yoldaşımın Atanın görüşünə gəlməməsi mənə ədəbsizlik kimi görünürdü. Görüşlərarası istirahət vaxtı onu Atanın hüzuruna apardım. Öyrətmişdim ki, Atanın əlini öpsün və uğurlamasını dinləsin. Biz Atanın hüzurunda olduğumuz vaxt atam yenə Ataya baş çəkməyə gəlmişdi. Daha gərgin bir əhvalla döndü. "İki aylıq gəlin qaynatanın, qaynananın izni olmadan qonaqla stol arxasında oturub söhbət edir". Kənd adətinə görə bu, ədəbsizlik və özbaşınalıq kimi qiymətləndirilirdi.

Yoldaşım 17 yaşındaydı, – sadə, saf, heç bir dünyagörüşü olmayan bir kəndçi balası idi. Burada heç bir saymazlıq yox idi, suç işlənməmişdi. Bilməzlik vardı. Mən bilmirdim ki, hansı davranış qaydaya uyğundur, yaxud uyğun deyil. Çox addımları naşı bir sevincin tələbiylə atırdım. Əslində dərindən bilmədiyimiz məntiqə görə də burada yanlışlıq yox idi, – Ata sıradan bir qonaq deyildi, onun görüşündə olmaq – zamanında dərk olunmayan səadət idi.

Qonaqlığın sonuncu günü evimizə bir xeyli qohumlar toplaşmışdı. Atam məni yanına çağırtdırdı. Getdim. Yığışdıqları yer birmərtəbəli tikilidə böyük bir otaq idi. Keçib oturdum. Həyəcanlı idim. Təxminən bilirdim niyə çağırıb. Ümumi bir gərginlik vardı. Atamın rəngi boğulmuşdu, o, başını aşağı salıb dayanmışdı. Bir neçə dəqiqədən sonra tövrünü dəyişmədən ağır-ağır dilləndi: "A bala, qalıb mənlə qardaş olası deyil. Qonağımdır,

gözüm üstə yeri var. Amma Bakıya gedən kimi bundan ayrılırsan, bu, bizim adamımız deyil”. Bundan sonra qohumlar tərəfindən mənə aydın olmayan və yadımda qalmayan təkliflər gəldi. Yadımda ona görə qalmayıb ki, atamdan sonra deyilənləri eşitmirdim. Hiss edirdim ki, içimdə həlledici gərginlik baş qaldırır. Mənim üçün qorxulu məqam idi, iradəm yenilə bilərdi. Atama qarşı dura biləcəyəmmi? Asif Atadan uzaqlaşacağammı? Bu mümkündürmü? Bu gərgin əhvalnan durub otaqdan çıxdım. Bir az çöldə gəzişdim. O cür təmiz havada havam çatmırdı, boğulurdum. Elə bil ki, bu saat öləcəm. Gördüm ki, dözə bilmirəm, Atanın yanına qalxdım. Ata vəziyyəti başa düşmüşdü. Mən içəri girəndə gülümsədi. Ayaq üstə güclə dururdum. Özümü toxdatmağa çalışdım, güclə gülümsədim. Evimizdə gedən söhbəti, düşdüyüm vəziyyəti Atadan gizləməyə çalışırdım. Bir çox hallarda olduğum kimi görünməmək məndə adət halını almışdı. Amma içimdə gücüm tükənmişdi, təsəlliyə ehtiyacım vardı. Ata heç bir təsəlli vermədi. Ümumiyyətlə, Atanın təsəllidən xoşu gəlmirdi, təsəllini yalançı ümid sayırdı. Odur ki, bircə kəlmə “Oğul, sənə çox inanıram” dedi. Çox qəribədir, əhvalıma elə bil qığılcım düşdü, dikəldim. Amma bu dikəlmə davamlımı olacaq, ötəridirmi – bilmirdim. Ata mənə doğrudanmı inanır, bu inamı mən nə vaxt yaratmışam? Doğrudanmı Ata məni məndən yaxşı tanıyır? Hər şey içimdə bir-birinə qarışmışdı, nə suallar aydındı, nə cavablar. Mən etibar olunası adam idim. Lakin ağır əqidə yolunda, ağır yük altında bu etibar çox kövrək idi. Heç vaxt məslək sınağına düşməmiş, bərkiməmiş adama bu cür sınaq meydanında çox da etibar eləmək olmazdı. Amma Asif Ata nə etməliydi ki? Hazır, yetkin adamlar harada idi ki, oraya gedib çağırsın, ətrafına yığsın?!

Beləcə, bir gün də gəlib keçdi. Asif Atanı və Əsili Bakıya yola saldıq. Mənim də əsl sınaq dövrüm bundan sonra başladı. Atam hökmlü, zabitəli və sərt adam idi. Amma ürəyiyumşaqlığı da vardı. Oğul-uşaqla aradan pərdəni asanlıqla götürməyə meyilli deyildi. Elə bil bir az da buna ümid edirdim. Lakin anam

da vardı!. O xasiyyətcə tündməcaz, hökmlü, öz sözünü yürüdən adamdı. Necə dirənə biləcəm, necə dözəcəm – özümə bəlli deyildi. Hər gün deyinmələr, ağıl vermələr artıq səbrimi tükəndirirdi. Burda, öz ata evimdə qalmaq mənə əzab verirdi. Tezliklə Bakıya qayıtmaq qərarına gəldim. Buradakılar başa düşmürdülər ki, məni bezdirməklə Ataya bağlılığımı gücləndirirlər. İnstitutun beşinci kursunda oxuyurdum. Bir bəhanə ilə Bakıya yola düşdüm. Əslində atam da, anam da öz içlərində Asif Atadan ayrılacağıma inanmırdılar. Ox yaydan çıxmışdı artıq. Bunu da anlayırdılar, amma barışmaq istəmirdilər. Nəyin bahasına olur-olsun, məni "xilas" eləmək haqqında düşünürdülər. Dərində mənim tərbiyəmə ümid bəsləyirdilər: "ataya-anaya qarşı çıxmaz, bir o qədər də bədəsillik eləməz".

Bakıya çatan kimi Atanın yanına getdim. Gəlişimə çox sevindi. Vəziyyətimi, əhvalıma nəyin necə təsir etdiyini soruşdu. Özümü elə apardım ki, guya heç nə vecimə deyil, heç nə də olmayıb. Ata mənimlə ciddi danışmaq istəyirdi. Amma mənim iddialarım mənə mane olurdu, həqiqi vəziyyətimi etiraf edə bilmirdim. İdraki kallığımdan irəli gələn çıxılmazlıqlarımı Ata ilə bölüşüb öyrənmək əvəzinə, Atanın diqqətini üzərimdən yayındırırdım. Atanın nəfəsi məni tez böyüdə bilərdi, quru iddiam bunu gecikdirirdi. Ata mənim bu durumumu görüb dərinə getmədi. Ata ehtiyac duymayana süni şəkildə heç nə öyrətmirdi, təlqin eləmirdi. Bununla belə, Borçalı ilə bağlı bundan sonra nə edəcəyimi soruşdu. Elə o anda gəldiyim qənaətləri saymağa başladım: – Atanın görüş keçirdiyi ünvanlara gedəcəm, fikir evləri keçirəcəm, ədəbiyyat aparıb yayacam. Hər şeyi çox asan dedim. Ata mənə uğurlar dilədi və gərəkli bildiyi bir sıra məsləhətlər verdi.

Çox şey mənə nəzəriyyə kimi görünürdü. Çox vədlər verirdim. Vədlər özümə əməl kimi görünürdü. Sanki vədlərlə də iş gördüyümü düşünürdüm. Elə bil Ata mənim vədlərimin sevincinə qalıbmış. Sonradan başa düşəndə ki, bu vədlərə əməl eləmək gərəkdir – çətinliyə düşürdüm. Söz verdiyim üçün çalışırdım vədlərimi doğruldum. Şöhrətpərəstliyim güclü idi, ona görə də

çox vədlər verirdim. Ata bir hünərimi təqdir eləyəndə, istəyirdim mənim hünərimdən uzun müddət danışılsın. Bir dəfə bir neçə Ocaqçı (rayonlardan olanlar da burada idi) Əsilin evinə toplaşmışdılar, yaxud mərasimdən sonra idi – dəqiq yadımda deyil. Kimsə mənim Borçalıya səfər təşkilatçılığımdan söz saldı, başqa birisi tərifIədi. Başladım danışmağa. Elədiyimi də danışırdım, eləmədiyimi də. Dayanmaq bilmirdim. Lovğalanmağım qabarmasa da, duyulurdu. Amma özümü təvazökar kimi aparırdım. Bəziləri tövrünü dəyişmədən, təmkinlə qulaq asırdılar. Onlardan Özümlü (Malik) mənə elə ağıllı baxırdı ki, onun baxışları sanki mənə "səmimi ol" deyirdi.

Yanılmıramsa Novruz bayramı buraxılışında (tətildə) Borçalıya getdim. Atanın yazıları çap olunan qəzetlərdən, Ocaq Ailələrinin dərgilərindən, bülleten biçimində hazırlanmış başqa Ocaq ədəbiyyatlarından özümlə götürmüşdüm.

*xxx*

Evə gəlib hazırlaşmalıydım. Atanın görüş keçirdiyi ünvanlara getməliydim. Bu, olduqca çətin iş idi. Əvvəla, evdəki abhava, bir kənddən başqa kəndə getməyin çətinliyi – minik problemi vardı, dolana-dolana getmək (birbaşa imkan yoxdur, piyada isə 10 km-lərlə yol getməli idim), getdiyim ünvanlara ciddi söz demək imkanımın yetərsiz olması. İkinci bir tərəfdən, bu gedişlərə xeyli pul gərək idi. Heç yerdə işləmirdim, tələbə idim. Evin verdiyi pul ilə tələbəliyimi güclə yola verirdim. Amma hər nə olsa da, Ataya vədlər vermişdim. Bir də ki, içimdəki iddia! Ağlıma bir şey düşəndə onu həyata keçirmədən geri durmurdum. Kəpənəkçidə iş aparmayacam. Hay-həşir ola bilər, söz-söhbət böyüyər, atamın, anamın qulağına çatar. Odur ki, başqa bölgələrə getməli idim.

Doğrudan da evimizdə vəziyyət çox gərgin idi. Yarımca saat belə, rahat nəfəs almaq mümkün deyildi. Artıq qarşılıqlı sevgi, inam qeyb olmuş, münasibətlər demək olar korlanmışdı. Bu münasibətləri bərpa eləmək də çox müşkül görünürdü: "Necə

edim, yoldaşımı götürüb Bakıya aparım və bu mühitlə biryolluq vidalaşım?!” Bu da asan məsələ deyildi. Birincisi, Bakıda işim, evim, heç nəyim yox idi. Lap olsa idi belə, yoldaşımı mənimlə getməyə kim idi buraxan?! Oğrun aparmağı isə özümə sığışdırmırdım. Əlverişli vaxt gözləməkdən başqa əlacım qalmırdı. Hələlik isə ünvanlara getməliydim. Hara getdiyimi heç kimə bildirmədən, gizli olaraq evdən çıxdım. İlk səfərimi Arıxlı kəndindən saldım. Klubda toplantı vardı. Bu gün də fəaliyyət göstərən “Qeyrət Xalq Hərəkatı”nın bu kənddən olan fəalları toplaşmışdılar. Özümü təqdim elədim, gəlişimin səbəbini dedim. Hələ əhatəli bir şey danışmamışdım, fırtına qopdu, üstümə yeridilər, hərə bir söz deyir, bir qışqırıq qoparırdı. Heç nə anlamırdım. İlk başdan özümü itirdim, həyəcanlandım. Aralarında nisbətən yaşlı, bəstəboy bir nəfər hamını sakitləşdirməyə çalışdı. Mən də elə bil təpərləndim. Zahiri bir qətiyyətlə dayanıb şəstlə bunlara baxdım. Üstümə yerimək istəyənlər sanki çəkindilər və dayandılar. “Axı nə istəyirsiniz, xalq öz dininə qayıtmağa başlayıb, siz də deyirsiniz bizə yeni İnam verəcəksiniz. Bizə lazım deyil sizin yeni dininiz. Gedin başqalarına verin”. Hər yandan bu və buna bənzər fikirlər səsləndirirdilər. Həmin bəstəboy adam irəli yeriyib “bunlar din tərəfdarıdırlar, ona görə söhbətin burada alınmayacaq” dedi. Çox təmkinli davranırdı. Mədəniyyətli adam idi, çay qonaqlığına dəvət elədi. Təşəkkür edib, “heç olmasa alın bunu oxuyun” deyib bəzi ədəbiyyatlar verdim. “Baş üstə, oxuyarıq” deyib qəbul elədi. Bunu nəzakət xatirinə elədiyi açıqca sezilirdi. Amma şübhəm yox idi ki, oxuyacaqlar. Bu adamın adı Şükürdür, soyadı yadımda qalmayıb. “Qeyrət Xalq Hərəkatı”nın yaradıcılarından biri idi. Bu yaxınlarda (29-il) bizə rəğbət bəsləyən, mənim nəslimdən olan Kamandar adlı bir oğlanlao  kəndlərdə görüşlər keçirdim. Şükür bəy Arıxlının məktəb direktoru idi. Məni tanıdı. Oturub bir saat söhbət elədik (onun iş otağında). Sonra bütün müəllimləri müəllimlər otağına toplayaraq görüşümü təşkil elədi. Hərəkatın yaradıcılarından olduğunu da burada özü dedi. Yenə qayıdıram hay-həşir salan-

lardan ayrıldığım məqama. İçimdə güclü büdrəmə yaranmışdı. Bəri başdan bu cür qarşılanmağım əhvalıma gərginlik gətirmişdi. O biri ünvanlara gedim, getməyim, – içimdə istək və maneə üz-üzə dayanmışdı. İndi məni əhatə edən hər şey həvəsimə qarşı dayanıb. Ürəkaçan bircə vəziyyət, bircə əməl, bircə mühit yoxdur. Gedib başqa ünvanlarda nə deyəcəm, nə edəcəm?! Asif Atanın fikirlərini görüşlərdən özündən eşidənlərə cəlbedici nəsə demək mənim imkanım dışındadır. Amma xislətimdə fitri olaraq bir inadkarlıq, iddiaçılıq vardı. Ona görə hər hansı bir vəziyyətlə tez barışmırdım. Həsənxocalı kəndinə getdim. (Həsənxocalı ilə Daşdıqullar iç-içədir). Burada bizə rəğbəti olan iki-üç nəfər tapdım. Onlardan ikisi müəllim idi (birinin adı Əflatundur). Söhbətimiz uğurlu alındı. Onlara gətirdiyim ədəbiyyatlardan verdim. Yenidən görüşmək ümidi ilə ayrıldıq. Artıq ümidim sağalmışdı, özümə inanmağa başlamışdım. Mən ruhaniyyat tarixindən heç nə bilmirdim. Keçmişdə məslək adamlarının çətinliklərini, həyat yollarını, fədakarlıqlarını oxumuş, bilmiş olsaydım, hardasa ünsiyyətim alınmayanda sarsılmazdım, yeni qapıları ürəkli döyərdim. Heç Asif Atanın həyatını, keçdiyi yolların çətinliyini də bilmirdim. Bilməzlik mənə əzab verirdi, uğurlarımı ləngidirdi. Öz çabalarımdan təcrübə əldə eləmək yetərsiz idi.

Bundan sonra Qoçulu kəndinə getdim. Burada da müəyyən ilişkilər qurdum. Sonra İmirhəsəndə, Saraclıda oldum. Saraclıda kənd sovetinin başçısı Çobanov Süleyman vardı. Əhvalı həmişə fəal görünürdü. Qonaqsevər və mədəniyyətli bir adam idi. Bunlarla görüşüm maraqlı keçdi. Ancaq bu adamların heç biri İnama dayaq olmaq təsiri bağışlamırdı. Sadəcə Atanı Sovet dönəmindən tanıyanlar üçün onun indiki həyatı, fəaliyyəti maraqlı idi. Bir də mənim fanatikliyim, çəkdiyim zəhmət bunları nəzakətli, qonaqsevər davranmağa sövq edirdi. Evə fərəhli qayıdırdım. Mənə elə gəlirdi ki, hədsiz dərəcədə böyük işlər görmüşəm. Özüm haqqında yüksək fikrə düşmüşdüm. Deyəsən, məni müəllimlər, rəsmi adamlar bilikli və bacarıqlı birisi sayırdılar. Bakıya qayıdanda Ataya hesabat verirdim. Gördüyüm işləri artırılmış

deyirdim. Ayrılanda isə ani olaraq özümdən utanırdım, yüngülcə qızarır, tərləyirdim. Niyə səmimiyyətimin gücü çatmır, niyə özümü uydurmaqdan çəkinmirəm, niyə əsil həqiqəti adamlardan gizləyirəm?! Bu suallara cavab verə bilmirdim, bəzən isə vermək istəmirdim. Zəif olduğumu özümə deməkdən qorxurdum.

Beləcə Borçalıya getdikcə o ünvanlara bir neçə dəfə də baş çəkdim. Yeni ədəbiyyatlar apardım. Ancaq getdikcə əlaqələr zəifləməyə başladı. Mənim gedişimin təsirinə içəridə onlar da inanmırdı, özüm də. Mənim ömrümdə yerində sayma vardı. Təzələnmirdim, inkişafım yox idi. Gedəndə də yeni söz, yeni əhval aparmaq gərək idi. Mənim isə özümdənrazılığım təzələnməyimə mane olurdu. Əhvalımda bir quruluq, bir boşluq vardı. O vaxta qədər Atadan eşitdiklərim və vərdiş əsasında bildiklərim inkişaf eləmirdi. Mütaliə həvəsim çox zəif idi, yaradıcılıq imkanım isə görünmürdü. Belə olan halda axtarışda olmaq, düşünmək baş verə bilməzdi.

Son dəfə isti havaların birində yenə səfərə çıxdım. Bu dəfə atamın "QAZ-69" markalı vilis maşını ilə. Atam özü Rusiyada idi, maşın qarajda təkərləri qaldırılmış vəziyyətdə idi. Anam atamdan çəkinib maşını yola çıxarmağımı istəmirdi. İsrar elədim, qəlbimə dəymədi. Maşını çayda yumaq adıyla sürüb getdim. Bir-bir yuxarıda adını çəkdiyim kəndlərdə oldum. Qaçaraq bir səfər oldu. Əlaqə saxladığım adamların bəzilərini tapa bilmədim. Hərə öz işində-gücündə idi. Əflatun müəllimi də təsərrüfatını becərən yerdə tapdım. Ayaqüstü görüşdük. Hiss elədim ki, işindən ayrılmaq istəmir. Əkin-səpinin qızğın çağı idi. Bəzi ədəbiyyat verib ayrıldım. Başqa ünvanlarda da atüstü görüşlərim oldu. Geri qayıdanda fikirli-qayğılı idim. Maşın çaydan keçdiyi üçün əyləci gec tuturdu. Çox asta sürürdüm. Məndən qabaqda hamincə asta sürətlə "Niva" markalı bir maşın gedirdi. Birdən "Niva" qəflətən dayandı. Maşını saxlaya bilməyib toxundum ona. "Niva"nın sürücüsü ya erməni idi, ya da gürcü. Bizim dilimizdə təmiz danışırdı. "Sən neylədin, az qala belim sınmışdı". Yalan danışırdı. Mənim özümü itirməyimdən

istifadə edib 400 manat pul istədi. Mağmın bir durumda idim. Heç bir etiraz da eləmədim. Sürüb evə pul dalınca getdim. Anam məni pərt və dilxor halda görüb həyəcanlandı. Nə baş verib deyə soruşdu. Vəziyyəti danışdım. Anam tələsik evə girdi, 400 manat gətirib verdi. "Get ver, özündən uzaqlaşdır" dedi. Anam gözümdə bir andaca böyüdü. Necə çevik həll elədi hər şeyi!..



***Gəncliklə görüş. Beyləqan, 1 saylı orta məktəbin yuxarı sinif şagirdləri. Çiçək Ayı, 29-il (aprel, 2007).***

*xxx*

Mənim Borçalı kəndləri ilə əlaqəm təxminən iki il sürdü və birdən qırıldı. Bu cür əlaqələrin uzun illər davam eləməsi çox çətindir. Çünki insanların ideya dalınca getməsi, əqidə daşıyıcısına çevrilməsi nadir hadisədir. Onlara daim uca söz demək də, ucalıqda yaşamaq da nadir hadisədir. İnsanlar tez nəticə gözləyirlər, ömürlərini nəticəsi adi gözlə görünməyən əməllərə vermək istəmirlər. Ruhaniyyat yaratmaq mürəkkəb işdir! Kimə ali söz deyirsən, deyir məni inandır. Qarşı tərəfin naşılığı adamı gülünc duruma salır. Adamlara "İnsan gözəl ola bilər" deyəndə dərhal tanıdıqları, əhatəsində olduqları adamlardan bəzilərini gözlərinin qabağına gətirir və "bunlar dəyişib düzəlməzlər" deyirlər. Heç kim fikrini, düşüncəsini, diqqətini öz üzərinə yönəltmir. Hər kəs özünü deyil, başqasını düzəltməyə meyillidir, dəyişməni, düzəlməni, böyüməni başqasından gözləyir. Ona görə ruhaniyyatçılıq işi çox ağırdır. Yalnız səbrli və inadkar şəxslər, qüdrətli insanlar ruhaniyyat yarada bilərlər. Özünü daxilən dəyişə bilməyən, hünərə yetməyən, mənliyini böyütməyən adamlar Ruhaniyyatın da güc yoluynan, diktatura ilə yarana bilməsini düşünürlər. Halbuki güc tətbiq eləməyin özündə antiruhanilik var. Ruhaniyyatın məqsədi insana qarşı zor göstərilməsinin aradan qaldırılması olduğu halda, "zor ruhaniyyatı" düşünmək insana qarşı acığın, inamsızlığın göstəricisidir. Ona görə çətinliklə qardaşlaşmaq böyük ləyaqətdir. Heç nə asan baş verməyəcək. İnsana inam ənənəsinin başlaması gərəkdir. İnsanı ruhani varlıq kimi öyrənmək və onun göründüyündən artıq olan imkanlarına inanmaq – ruhaniyyata başlamaqdır. Bəşəriyyət ruhaniyyata başlamayıb. Çünki insanla ruhani varlıq kimi məşğul olmayıb. Bu işdə isə dinlərin zərəri çox böyükdür. Din insanı balaca sayır, Allahı böyük. "Balaca"nın böyüyə yalmançılığının gərəkliyini təlqin edir. "Allah qoysa", "Allah istəsə", "Allah imkan versə" və i.a. kimi təlqinlər insanın idrakının yolunu bağlayır. Həqiqətin yayılması mistik təbliğatla əngəllənir.

Mifoloji obrazlar gerçək insanın üzərinə tabular kimi yeriyir. Həyat İblis əməlinin əks-sədası kimi gözdən düşür.

*xxx*

Mənim ən sıxıntılı günlərim valideynlərimi incitdiyim vaxtlarda olub. Artıq onlara nəyisə izah etmək çabalarımın əhəmiyyətsiz olduğunu düşünürdüm. Onlar özlərini inandırmışdılar ki, mən yolumu azmışam, olduqca təhlükəli, pis yol tutan bir adama qoşulmuşam. Bir halda ki, qoşulduğum adam dini inkar edir, peyğəmbəri suçlu bilir və onun yaratdığı Allah obrazını rədd edir, belə bir adama qoşulmağın yaxşı bir yol olduğunu onlara sübut eləmək doğrudan da çətin idi. Valideyn övladdan ənənəvi yeriş umur. Firavan həyat qurmaq haqqında düşünməli olan övlad özünü dünyaya qarşı qoyan, risklər altında yaşayan bir adama qoşulursa, onu avara saymamaq mümkünmü?! Onunla sakit, normal davranmaq necə?! Elə bil girişi-çıxışı özümə bəlli olmayan qaranlıq tuneldə yeriyirdim. Aylarla uzanan gərgin münasibətdən tamam çaşqın idim. İşin təhlükəli cəhəti onda idi ki, halım qalxıb-enirdi. Özüm də səhv və ya doğru yolda olduğumu hələ ciddi dərk eləmirdim. Valideynlərim düzmü eləyir, səhvmi; Asif Ataya inanmaq olar, ya olmaz?! Bu məsələlərdə nə ağlımın, nə iradəmin gücü yetərli deyildi.

Mənim üçün ən böyük çətinlik içimdə idi. Yetkin bir qənaətim olsaydı, kənar maneələri yenmək o qədər də çətin olmazdı. Mən əqidəli olmağın – yaşamaq demək olduğunu dərk eləmirdim. Mənə mane olanların gücü də, dediyim kimi, içimdəki zəifliyimdən qidalanırdı.

Acığım tuturdu valideynlərimə, onların da mənə acığı tuturdu. Hər kəs öz acığında haqlı idi. Çünki ayrı-ayrılıqda heç birimiz həqiqət üçün haqlı olub-olmadığımızı dərk eləmirdik. Atanın yanına gedən kimi ilhamlanırdım, valideynlərimin yanına gələndə isə ümidsizləşir və qaralırdım. Onlar elə bilirdilər ki, mən özümə atalıq tutmuşam və o da mənim başımı aldadıb öz işinin və məişətinin qulluqçusuna çevirib. Valideynlərimin mənə

olan barışmaz, bağışlamaz münasibətləri məni Atanın yanına qovurdu. Amma Asif Ata məni valideynlərimin istəklərinin yanına qovacaq söz demirdi, addım atmırdı. Bir dəfə də olsun valideynlərimi aşağılayacaq söz deməmişdi. Ona görə məni cəlb eləməkdə üstünlük Asif Atanın tərəfində idi. Getdikcə Asif Atanın varlığı, təsiri qanıma işləyirdi. Evimizdə narazılıq o həddə gəlib çatmışdı ki, daha oraya dönmək istəmirdim. Amma yoldaşım orda idi. Necəsə onu da Bakıya gətirib Borçalı ilə vidalaşmaq haqqında düşünürdüm. Bütün sevgimlə Asif Atanın fanatına çevrilirdim. Münasibətlərimiz ilahi doğmalığa çatmış, nağıl səviyyəsinə yüksəlmişdi.

Atanın Tovuz səfərinə hazırlaşırdıq. 13-cü ilin İşıq Ayı idi. Bu səfərdə Əsil (Elxan), Uğur (Hüsaməddin), Yüksək (Əvəz) və mən iştirak etməli idik. Özüm üçün təxmini plan tutmuşdum. Yüksəklə Borçalıya getmək, yoldaşımı da götürüb Tovuza qayıtmaq. Atanın görüşlərini keçirəndən sonra birlikdə Bakıya dönmək. Ata da bu cür məsləhət bilmişdi. Amma bu iş olduqca çətin idi. Məsələni ağıl ilə həll edəcək gücüm yox idi, ata-ananın üzünə ağ olacaq qədər də kobud deyildim. Həyəcan, gərginlik məni elə yorurdu ki, əsəbi gəzirdim, özümü ələ ala bilmirdim. Münasibətlərin bu həddə çatmasına görə hər kəsdən utanırdım. Ona görə də evimizə getməzdən öncə bacımgilə (Kəpənəkçinin "Cöyüzdük" deyilən məhləsinə) getdim. Həm də bir vasitə ilə evimizin havasını öyrənmək istəyirdim. Məlum oldu ki, atam və anam öz dayılarının evindədirlər (atam və anam xalauşağıdırlar). Dayıevi də bacımın evinə lap yaxın idi. Burada da heç kim üzümə yaxşı baxmır, məni ürəknən dindirmirdi. Hər kəsin davranışında hədələyici jestlər vardı. Yüksəklə birgə dolama yollarla evimizə getdim. Evin arxa tərəfindən tövlənin həyətinə gəldik. Artıq atamla anam evdə idi. Mənim gəlişimi bilib təcili evə gəlmişdilər. Bütün bu halətlər Yüksəyi çaşdırmışdı. Saf və cavan bir oğlan görmədiyi çətinliyə düşmüşdü. Bütün günü ac-susuz, ayaq üstə – oğlan yorulmuşdu. Üstəlik bu vəziyyətin nə ilə bitəcəyi bəlli deyildi. Özüm taxta qapının arxasında duraraq

Yüksəyə onların yanına getməyi məsləhət gördüm. "Qorxma, get, atam çox ürəyiyumşaq, qonaqsevər adamdır". Oğlan çəkinir, getmək istəmirdi. Elə bu vaxt atam eyvandan dilləndi: "Ay oğul, niyə orda durursunuz, niyə evə gəlmirsiniz?" Yüksək ürəklənib irəliyə yeridi. Bu vaxt qəflətən anamın qışqırığı eşidildi. Qarajdan nöyüt qabını götürüb üstünə səpdi. Kibritlə özünü yandırmaq istəyirdi. Nöyüt kibritə tökülüb nəmləndirmişdi. Çəkdikcə ovxalanıb tökülürdü. Atam deyinə-deyinə aşağı düşdü, anam isə qəzəbindən yerə yıxılmış və huşdan getmişdi. Atam əmimgilə yollandı ki, gəlinlərdən göndərsin. Yoldaşımı evdən çıxartmışdılar – atasının evində idi. Atam gedəndən sonra anamın yanına qaçdım. Qollarımın üstündə yuxarı qata qaldırdım, çarpayının üstünə uzandırdım. Buna qədər qohumlardan qızlar, gəlinlər gəldilər və anamın nöyütlü paltarını dəyişdilər. Yüksəyin rəngi ağarmışdı, keçib o biri otaqda oturduq. Bir az əhvallar sakitləşdi. Bacım da burada idi. Atamın göstərişi ilə bizə çay-çörək gətirdi. Axşamüstü saat beş olardı. Bütün günü ac qalmışdıq. Bununla belə, heç nə yeyə bilmədim. Elə bil boğazım tikilmişdi. Heç kim məni söylətmirdi. Amma atam Yüksəklə doğma, qonaqsevərcəsinə söhbət edirdi. Yüksək gəlişimizin səbəbini demişdi. Lakin atam "İndi yox, hazırlayıb sonra göndərərik" demişdi. Söhbət yoldaşımdan gedirdi. Razılaşmaqdan başqa əlac yox idi. Gecəni yatıb, səhər o başdan Tovuza yola düşdük. Ata Əsilgilin evində qalırdı. Rayon mərkəzində Atanın bir sıra görüşlərini keçirdik və Bakıya qayıtdıq. Yolda Ata ilə üzləşdiyim vəziyyət haqqında ətraflı danışdıq. Ata "Səbrli ol, hər şey həllini tapacaq" dedi.

Növbəti dəfə Borçalıya ilkim – oğlum doğulanda getməli oldum. Mənə xəbər verdilər ki, uşaq xəstəxanada qalıb, buraxmırlar ki, yiyəsi gəlsin. Ataya zəng elədim ki, uşağa nə ad qoyur? Ata telefonda mənə xeyir-dua verdi və uşağa "Türkel" adını qoydu. Yola düşdüm. Birbaşa rayon xəstəxanasına getdim. Soraqladım, dedilər çıxarıb apardılar. Tələsik dayanacağa getdim. Ürəyim döyünürdü. Nə baş verib, nələr olub, bircə adam

olsaydı soruşardım. Dayanacaqda qayğılı, fikirli halda avtobus gözləyirdim. Yanımda bir maşın dayandı, yeznəmin (həm də dayıoğlunun) maşını idi. Yanında da əmilərim və başqa bir nəfər. İşdən gəlirdilər. İstədim doğmaca görüşəm. Amma onlar mənə məhəl qoymadan bir-biriylə söhbət edirdilər. Sadəcə qohumluq xatirinə saxlayıb məni götürmüşdülər. İradəm çatmadı, minməkdən imtina etmədim. Yolboyu sıxılır, boğulurdum. O qədər yad, o qədər uzaq görünürdülər ki, mənə, pərtliyimdən ölmək istəyirdim. Ruhsuz qohumluq nə qədər mənasız olarmış! Yalnız Kəpənəkçiyə çatanda onların burada işləri olduğunu hansındansa eşitdim və düşüb Talıblıya piyada getməli oldum. Bir az nəfəsim açıldı. Öz-özümlə danışa-danışa evə getdim. Mənim üçün Borçalıda dünya uçub dağılmışdı sanki. Burada elə bil həyat sönmüşdü. Heç nə, heç kim canlı deyildi. Ruhsuz canlı adamları əhatə eləyən təbiət də mənə yad görünürdü. Darvazadan həyətə girəndə yoldaşımı gördüm. Gülümsünərək mənə tərəf döndü. Bir az ürəyim açıldı. Yaşının hələ 18-i tamam olmayan bu gənc kəndçi qızının o qədər də isti olmayan bir sevinci burada mənim üçün yeganə həyat əlaməti idi. Atamı, anamı soruşdum. “Harasa gediblər” dedi. Uşağı soruşdum, “Yuxarıda yatırtmışam” dedi. Yoldaşım xəstəxanaya öz atasının evindən gedibmiş. Bizimkilər biləndə ki, ər evinin nümayəndəsi getmədən uşağı buraxmayacaqlar, təşkil edib uşağı evimizə gətiriblər. Sakitcə uşağın yanına qalxdım. Üzünə xeyli tamaşa elədim. “Yazıq uşaq, sənə atalıq edə biləcək cəsarətim yoxdur” deyə pıçıldadım. Yoldaşım yanımda dayanıb uşağa baxırdı. Gözünü uşaqdan ayırmadan “Adını Kamran qoydular və şəhadətnaməsini də aldılar” dedi. “Kamran nədir, onun adı Türkeldir” – bu cümləni xəyalımda söylədim. “Hanı şəhadətnaməsi?” deyərək başımı qaldırmadan soruşdum. Gətirib verdi. “Yol gəlibsən, yəqin acsan, nəsə gətirimmi” deyə mehribanlıqla soruşdu. İştaham yox idi, istəmədim. Uşağın yanından ayrılıb oturdum, dönüb yoldaşıma baxdım. Həyəcandan sinəsi qalxıb-enirdi. Hiss elədim ki, nə isə soruşmaq istəyir, amma qorxur. “Dözümlü ol, ara

sakitləşəndən sonra sizi Bakıya aparacam” dedim. Atamla anam evə qayıtmışdılar. Amma ünsiyyətimiz yox idi. Gecəni çox gərgin yatdım. Səhər durub kənd sovetliyinə getdim. Katibin otağına keçdim. Şəhadətnaməni çıxarıb üstündə də 50 manat pul verdim, uşağın adını “Türkel” yazmağı xahiş elədim. Katib xahişimə əməl edib şəhadətnaməni dəyişdi. Sevincimin hüdudu yox idi. Uzun müddət yaşadığım gərginlikdən sonra sanki böyük bir qəhrəmanlıq etmişdim. Ata sevinəcək, təqdir edəcək, hünərli deyəcək adıma. Yol boyu Türkel adına şeirlər deyə-deyə evə qayıtdım. Bir-iki gün qalıb bacımı çağırtdırdım. Vasitəçi kimi araya salıb uşağı və anasını özümlə Bakıya aparmağım üçün atamdan və anamdan icazə istəməsini xahiş elədim. Yenə icazə olmadı, yenə də Bakıya tək qayıtmalı oldum. Ata ilə görüşüb vəziyyəti ona danışdım. Ata yenə də “səbirli ol” dedi.

Növbəti dəfə Borçalıya 13-ilin Xəzan Ayında getdim. Artıq valideynlərimlə ünsiyyətim bərpa olunmuşdu. Bu dəfə də uşaqları Bakıya apara bilmədim. Soyuqların düşməsi, onları Bakıda yerləşdirə bilməyin məhdud olması bəhanə gətirildi. Doğrudan da bəhanə üçün əsas vardı. Bakıda yaşamağa ünvanım yox, iş yerim yox, üstəlik ailə ilə birlikdə yaşamaq üçün minimal vəsait belə yox idi. Özüm orda-burda qalırdım. Yenə tək qayıtdım, – qayğılı, dilxor. Çox düşünürdüm, çıxış yolu tapa bilmirdim. Mənə elə gəlirdi ki, ailə ilə birlikdə olsam, Ocaqçılıq fərəhim artacaq. Azad, müstəqil, nəzarətsiz yaşamaq həsrətiylə düşünürdüm. Artıq uşaq deyiləm, üzərimdə isə nəzarətin olması ruhumu məhv edirdi. Özümün aqibətimi düşünəndə, mənə elə gəlirdi ki, bəşəriyyətin həyat sistemi düzgün qurulmayıb. İnsan cismani münasibət səviyyəsindən yüksəyə qalxa bilmir. Doğmalıq cismanilik təmənnasından ibarətdir. Mahiyyətcə atalıq, analıq, evladlıq məsələsi özü bir ruhaniyyatdır, yaxud ruhaniyyatın ana xəttidir. Amma nədənsə bu məsələ hələ həllini tapmayıb. Övlada malı, mülkü kimi baxmaq atalığa, analığa uyğun deyil axı. Bəşəriyyətin yaratdığı doktrinaların heç biri bu problemin həllini yoluna qoymayıb, əksinə, bəlkə bir az da mürəkkəbləşdirib.

Münasibətlər ya sərt asılılıq girdabına salınıb, ya da yadlaşıb, yağılaşıb – pozularaq ayrılmalar baş verib. Din ailə məsələsində avam itaətçilik təlqin edib. Atanın, ananın övlad üzərində rolunu şişirdib və yadlaşma üçün ayaq yeri yaradıb. Siyasi, ideoloji baxışlar isə daha pis münasibət biçimi qondarıb. İnsanlığa uyğun olmayan müstəqil fərdçilik ənənələri yaranıb və i.a. Şübhəsiz ki, o vaxtlar mən bu məsələləri yetkin səviyyədə düşünə bilmirdim, amma ailə münasibətlərinin qeyri-kamilliyi ağlıma çatırdı.

Borçalıya bir də Sərt Ayının 29-u (13-cü il) getməli oldum. Avropa erasının "Yeni il" bayramı keçirilirdi. Evimizdə yenə də ciddi əsası olmayan qalmaqal yarandı. Narazılıq o qədər kəskinləşdi ki, Qar Ayının birində 4 aylıq Türkelin anası ilə birgə evimizdən çıxarılmasına səbəb oldu. Həmin gün ifadəsi çətin olan ağır hisslər keçirirdim. Nə edəcəyimi bilmirdim. Dizəcən qar yağmışdı və yağmaqda davam edirdi. Həmin gün uşaqlar əmimgildə qaldılar, mən isə Kəpənəkçidə dayımgildə. Ayın 2-də dayımın müşayiəti ilə Talıblıya qayıtdım. Dayımın qonşusunun ağır yük maşınının kabinəsində uşaqlar, bir çamadan yükümüz və mən Kəpənəkçiyə döndük. Talıblının əhalisi küçəyə toplaşmışdı. Hamı sakitcə dayanıb acı-acı seyr edirdi. Həmin gecəni ana babamgildə qaldıq. Səhər tezdən əmim, dayım və digər dayımın oğlu bizi Bakıya yola salmaq üçün Marneula gətirdilər. Tərslikdən, Bakıya gedən avtobus artıq yola düşmüşdü. Ona görə də bizi Qazaxa aparmalı oldular. Yolda maşın sındı (dayımın "Niva"sı). Detal dalınca getdilər, tapıb düzəltdilər və nəhayət, bizi gətirib Qazağa çıxartdılar. O vaxt çatdıq ki, artıq avtobus yola düşürdü. Saxladıb bizi avtobusa mindirdilər. İçimdə xeyli rahatlıq yaranmışdı. Amma sevinə bilmirdim. Uzun müddət əngəllənən ailəmi Bakıya aparmaq istəyim baş tutsa da, çox dilxor idim. Birincisi, evimizdən bu cür ayrılmaq ürəyimi sıxırdı. Axı bu rüsvayçılıq nəyə gərək idi?! Biz İnsanlaşma Ocağıyıq – belə dağıntılı münasibətlərə sevinmək mümkünmü?! Hərçəndi o vaxtlar məsələyə bu yöndən yanaşmaq üçün mənim ağlım yetərli deyildi. Lakin yol boyu düşündükcə hələ onda ağlıma

çatırdı ki, mən boşluğa gedirəm. Qalmağa yerim yox, yeməyə çörəyim. Hələlik Əsilin evinə getməyi planlaşdırmışdım. Bu oğlanın mərdliyi və qoçaqlığı məni ümidləndirirdi.

Uşağın ağlaması məni düşüncələrdən ayırdı. Uşaq bərk acıb, yemək istəyirdi, amma yeməyə heç nə yox idi. Hələ kənddə ikən yemək hazırlayıb balaca qazançada şey-şüylərimizin yanına qoymuşdular, o da qıcqırmışdı, uşağa vermək olmazdı. Ana bədəncə zəif, özü də ac. Uşağı əmizdirmək üçün südü yox idi. Dördaylıq uşağa başqa nə vermək mümkündür ki?! Avtobusu çayçıların birinin yanında saxlatdıq. Heç olmasa uşağın butulkasına şirin çay alıb əmizdirək, sakitləşsin. Ölkədə qıtlığın yarandığı dövr idi. Çayçıda şəkər, yaxud şəkər tozu tapılmırdı. Şəkər tozundan bişirilmiş şəkər kəsikləri vardı. Ona da nəsə qatmışdılar. Şirin çay başqa tam verdiyindən uşaq içə bilmədi. Əlimiz hər şeydən üzülmüşdü, uşaq da ara vermədən ağlayırdı. Özümü güclə ələ alırdım, ağlamağım gəlirdi. İlk dəfə bundan sonra sərbəstliyimin məhdudlaşacağını kəsdirdim. Övladın, ailənin ömrümü alacağını gözlərimin qabağına gətirdim. Ocaqçı ola biləcəyimin çətinliyindən diksindim. Ailəli olub, əqidəli yaşamaq iradədən başqa çox böyük idrak, mənəviyyat tələb edirdi.

Bakıya gecə yarısı çatdıq. “Azneft” meydanında düşüb taksi tutdum. Əsilin evinə tərəf yol aldıq. Əsilgil bizi çox mehribanlıqla qarşıladılar. Mənə elə gəldi ki, narahatlıqlar arxada qalıb. Doğmaca əhvallaşıb yerbəyer olduq.




***Mingəçevir televiziyasının "Mövqe" verilişində.***
***Xəzan Ayı, 25-il (10.2003)***



***"Ata Günü" Mərasimini apararkən.***
***25 Ata Ayı, 28-il.(25.09.2006)***

*xxx*

Əsilə çox inanmağıma baxmayaraq, gecəni rahat yata bilmədim. Sıfırdan başlayıb ev yiyəsi, iş yiyəsi, eləcə də ailə yiyəsi olmağın çətinliyi bütöv biçimi ilə ağlıma çatmasa da, içimdə bir rahatsızlıq yaratmışdı. Bəzən düşünürəm ki, nə yaxşı o vaxtlar həyatın doğuracağı çətinliklər ağlıma tam çatmayıb! Yoxsa üzücü sarsıntılardan ayaqda qalmağım çətin olardı. Halbuki adam çətinliklərlə üzləşmədə bərkiyir. Onu anlayır, bilir və yenir. Bununla belə, mən nə edəcəyimi bilmirdim. İlkin addımları mənim əvəzimə Əsil planlaşdırdı. Bu oğlan mənim ailə ilə birgə həyata başlamağıma öz həyatının üzvi hissəsi, işinin davamı kimi yanaşdı. Üç min manat borc götürüb məni özünün işlədiyi zavoda işə düzəltdirdi. Bir tərəfdən yenə naşı qürurum kefimi pozmuşdu. Gedib işləyəcəyim yeri görəndə naz eləməyə başladım ki, mən burada işləyə bilmərəm. Natəmiz yerdir, havası pisdir və s. Əsil və Elli (Şükür Məmmədov) – başqa bir Ocaqçı mənə təsəlli verirdilər ki, öyrəşəcəksən, gələcəkdə bəyənməsən, çıxarsan. Şükürü də bu işə Əsil düzəltmişdi. Başqa bir tərəfdən bu üç min manatı qaytarmaq da mənə mümkünsüz görünürdü. Amma borc məsələsi qısa müddətdə həll olundu. Ocaq Evladlarından Bütöv (Cəfər, Safruhun yeznəsi) Türkelin bələyinə 400 manat, Günev (Əlabbas) isə 200 manat pul qoydular. Yoldaşımın anası da Borçalıdan gələndə gizli olaraq 300 manat veribmiş. Bəri başdan bunları üst-üstə qoyub borcun bir hissəsini qaytardıq. Qalan hissəsini də maaşla-filanla ödədik.

İki ay Əsilin evində qaldıq. Yetkin (Sevinc – Əsilin arvadı, Ocaqçı) ləyaqətli və nəzakətli bir qadındı. Ev içində ev, ailə içində ailə olduqca mürəkkəb məsələdir. Buna dözmək də çətin olur. Bezikmə, aradan pərdənin qalxması gözlənilən haldır. Bu çətinliyə dözmək nadir keyfiyyətdir. Və bu nadir keyfiyyət Əsilin ailəsində özünü göstərdi. Əsil, mən də daxil olmaqla, ayrı-ayrı adamlara çəkdiyi zəhməti bir dəfə də olsun dilinə gətirmədi.

*xxx*

Ocağa gəldiyim ilk gündən Atagüzarlıqla məşğul olmağa (Atanın məişətinə yaramağa) başladım. Məndən öncə Atagüzarlıqla Elli (Şükür) məşğul olurdu. Mən yaxından məşğul olduqca, təbii olaraq, Elli bu qayğıdan uzaqlaşdı. Mənim başqa qayğılarım yox idi. İşə gedirdim, işdə olmadığım vaxtlarda isə Atanın qulluğunda dururdum. Heç bir qohumla, tanışla əlaqəm yox idi. Elə köklənmişdim ki, buna nə vaxtım olurdu, nə də həvəsim. Atanın yeməyini bişirirdim, evində ciddi səliqə yaradırdım, hətta onu çimizdirirdim, paltarlarını yuyurdum, ayaqlarını ovxalayırdım. Bir sözlə, Atanın həm sağlamlığının qeydinə qalırdım, həm də normal işləməsinə, əsərlərini, kitablarını yazmasına mane olan məişət problemlərini həll edirdim. Bundan başqa, Atanın yazılarını mətbuatda çap etdirirdim, redaksiyalarla əlaqə saxlayırdım. Atadan çoxlu sayda müsahibələr götürürdüm, səsdən sözə – yazıya çevirirdim, makinada yazdırıb özünə oxudurdum, qol çəkdirib mətbuata verirdim. Elmlər Akademiyasının kitabxanasından kitablar götürüb Ataya gətirirdim. Oxuyandan sonra qaytarıb təhvil verirdim. Hansı kitablar gərəkirdisə, Ata siyahı verirdi. Oxucu kitabçasını götürüb gedirdim. Kitabxanada iki qadın vardı. Biri nisbətən cavan, adı Nəzakət idi, o birisi bir az ondan yaşlı, adını unutmuşam (bu yaxınlarda Elmlər Akademiyasının kitabxanasına Ocaq ədəbiyyatı verirdik – Qar Ayı, 29-il. Həmin adını unutduğum qadını orada gördüm. Hələ də işləyir). Bu qadınlar Ataya ciddi sayğı bəsləyirdilər, bütün kitabları mənə etibar edib göndərirdilər. Həm də Ata Akademiyanın Memarlıq və İncəsənət İnstitutunda baş elmi işçi işləyirdi. Daha doğrusu, son dövrlər maaş alırdı, amma demək olar ki, iş yerinə getmirdi; ona verilmiş mövzu – "Muğam Fəlsəfəsi" üzərində işləyirdi. Daha çox isə öz əqidəsiylə, Ocağı ilə məşğul idi. Maaşını da mən gedib qol çəkib götürürdüm. Ata mənim adıma etibarnamə yazmışdı. Sonralar Ata o maaşdan imtina elədi. Dedi, "Oğul, mən işə getmirəm, amma maaş alıram, bu bizim ləyaqətimizə uyğun deyil". Bundan sonra Ataya maaşı Ocaq verirdi.

*xxx*

Atanın Borçalıya səfərinə qədər, yuxarıda vurğuladığım kimi, böyük bacımın evində də Ocaq ab-havası yaratmışdım. Qızı Mehribanı da "Göylü" adıyla Ocağa gətirdiyimdən təsirlərim bir az dərinə gedirdi. Özüm Borçalıya gedəndə bacıma və qızına tapşırıqlar verirdim – gündə bir dəfə Atanın evinə getmək, xörəyini bişirmək və səliqə yaratmaq. Bacım çox safdır, həm də çox sadəlövhdür. Mənim sözümdən də çıxmırdı. Hətta bu tapşırığı mən onlara əmr şəklində verirdim. Mən Borçalıdan qayıdanda Ata bacımın və qızının ona qulluq göstərmələrindən razılıq etdi və bacıma saf və sadə bir türk qadını kimi "Xatun" adını verdiyini dedi. Ancaq bu advermə Ocağa gəlmə anlamı daşımırdı.

*xxx*

13-ildə Ocağa 36 nəfər qəbul olmuşdu. Bu, Ocaq tarixində ən böyük göstərici idi. Gələnlər içərisində xeyli ADU tələbələri vardı. Onlardan bir nəfər – "Şərqi" adını almış Nuriyyə qısa müddətdə həm çox güclü Ocaq yayıcılığı həyata keçirdi (rəfiqələri Alov – Şirinxanımla və Eluca – Mədinə ilə birgə), həm də Ocaq Evladları arasında söz-söhbətlər yaratmağa başladı. Qız  Asif Atanı sevdiyini elan eləmişdi. Bu da ciddi narazılıqlara və qısqanclıqlara səbəb olmuşdu. Qızın bu cür şıltaqlıqları məndə də dərin qısqanclıq yaratmışdı. 20–22 yaşlı gözəl bir qız qısqanclıq yaratmaqdan və adamların mövzusuna çevrilməkdən həzz alırdı. Özünə qarşı ayrı-ayrı Evladlarda yaratdığı acıq hissi onun həzz duyğularını daha da alovlandırırdı. Bu, Əsildə də ciddi rahatsızlıq yaratmışdı. Hətta o, Evladlarda yaranan əhvallarla bağlı Ataya bilgi də vermişdi. O vaxt bu cür müraciətlər etməkdə Əsil daha çox haqlı görünürdü. Ata isə səbirli olmağı tövsiyə etmişdi. "Hələ gəncdi, uşaqdı, şöhrətpərəstliyi var, yoluna qoyacağıq, bu məsələni Atanın öhdəsinə buraxın" demişdi. Buna baxmayaraq, Əsil Şərqiyə Ata evinə çağırılmadan getməyi yasaq etmiş, hətta Ocaqdan çıxmağını tələb etmişdi.

Əlbəttə, bir cəhətdən Əsili anlamaq olardı. O, Atanın yaratdığı Amal yolunda çox zəhmətlər çəkmiş, gərginliklər yaşamış, sarsıntılar keçirmişdi. İndi hansısa şıltaq bir qız gəlib söz-söhbətlər yaradır...

Bu gedişatda mənim də kallığım bəzi məqamları çətinləşdirirdi. Bir dəfə Ata evinə gedəndə sarsıntı keçirdim. Qapını açıb içəri keçdim (məndə Ata evinin açarı vardı). Şərqi Atanın yorğan-döşəyinin üstündə, Ata isə stulda oturmuşdu, söhbət edirdilər.

Şərqi gözlərini süzüb mənə baxdı. Bu baxışlar məni qıcıqlandırmaq məqsədi daşıyırdı. Pərt olmuşdum. Ata ilə görüşüb mətbəxə keçdim. Onda Güntay da (Cavanşir Mənuçöhr) mənimlə Ata evinə gəlmişdi. Qanım qaralmışdı. Belimi divara söykəyib yerə oturdum. Qəzəbimdən ağlayırdım. İçimdə Atanı suçlamağa başladım – Ata bu qızın özbaşınalığına niyə göz yumur? Bir az oturandan sonra qalxıb getdim, gedəndə Ata ilə görüşmədim.

Bu o vaxt idi ki, mən ailəmlə Əsilin evində qalırdım. Oraya getdim. Axşam saat 18–19 olardı. Bizə ayrılmış balaca odaya keçdim. Yetkin (Sevinc) nə qədər soruşdusa nə baş verib, "heç nə" deyib uzandım. Əsil işdə – növbədə idi. Deyəsən saat 22-də gəldi. Qulağım çaldı ki, məni soruşur. Yetkin mənim çox pərt halda gəldiyimi bildirdi. Əsil yanıma keçib nə baş verdiyini soruşdu. Qabaqca bəhanələr gətirdim, heç nə demədim. Ancaq demək istəyirdim. Əsilin təsəllisinə ehtiyac duyurdum. Oğlan and verdi, təkid elədi. Mən isə Əsilə öz acığımın fantaziyası ilə şişirdilmiş vəziyyət söylədim. Əsil "Aydındır, mən hər şeyi bilirəm" dedi. Bu olay Köçəri ayının ortalarında üzə çıxmışdı. Ondan sonra Əsil Şərqi ilə yenə görüşmüş, Ocaqdan çıxmasını tələb etmişdi. Şərqi Əsilin suçlamalarından uzaqlaşmaq üçün Ocaqdan getməyə razılıq vermişdi.

Günəş ayının 1-i Ocağın "Yeni İl" Mərasimi olacaqdı. O vaxtlar Mərasimlər əsasən Əsilin evində keçirilirdi. Şərqi mərasimə gələndə Əsil qabağını kəsib geri qaytarmaq istəmişdi.

Qız qayıtmaq istəməyəndə oğlan onu bərk kötəkləmişdi. Ocaqkənd Ailəsinin Evladları Əsili sakitləşdirib aralayıbmışlar. Qız isə qayıdıb getmişdi. Saat 14-də Mərasim başladı. Ata ayrı-ayrı Evladların əməllərini təqdir elədi. Bu təqdirdə Şərqinin də adı vardı. Ata Şərqinin niyə gəlmədiyini soruşdu. Qızın yaxın rəfiqəsi Alov ağlamsınaraq Əsilin Şərqini döyüb qovduğunu bildirdi. Bu olay Ataya olduqca ağır gəldi. Əsilin hərəkətini Ata qarşısında özbaşınalıq, Ataya inamsızlıq və ruhaniyyata ağır zərbə kimi qiymətləndirdi. Ocağın içində kişinin qadına əl qaldırmasını bağışlanmaz bir olay kimi qarşıladı. Hətta Əsilin Ocaqdan çıxarıla biləcəyinə də işarə verdi. Əlavə etdi ki, bu olaydan kim çaşıb Ataya inamsızlıq göstəribsə, Ocaqdan getsin, kim qalmaq istəyirsə, Atanın hüzuruna gəlsin və fikrini bildirsin.

Mərasim bitdi, Atanı evinə yola saldıq. Sonra müzakirələr başladı və bu müzakirələr bir neçə gün davam etdi. Müzakirələrin başında əsasən Əsil dururdu. O, Evladlara "Asif Atasız Ocağı yaşadaq, davam edək" deyirdi. Oğlana, Şərqinin şıltaqlığına qurban getməsi (Ocaqdan çıxarılması) pis təsir etmişdi. Ona görə də nə danışırdısa, acığın təsirilə danışırdı. Şübhəsiz, o vaxtlar Ocağın Atasız yaşaması mümkünsüz bir iş, bir xəyal idi. Mən müzakirələrdən sonra çıxıb gedən Evladları avtobus dayanacağına qədər ötürürdüm və yol boyu onlara "Ocağı atmaq olmaz" deyə yalvarırdım. Bunu Əsil sezir, məndən acığı gəlirdi. Artıq münasibətlərimizdə soyuqluq başlanmışdı. Bundan sonra onun evində qalmaq mənim üçün çətinləşdi.

Kirayə ev axtarmağa getdim. Bir nəfər Amasiyalı kişinin Qaraçuxurdakı həyət evində bu imkan vardı. Köçüb oraya yığışdıq.

Mənə elə gəlirdi ki, Atanın hirsi soyuyacaq, Əsil gedib Atadan üzr istəyəcək, beləliklə bu məsələ həllini tapıb bitəcək. Əsilin Ata hüzuruna getməməsini və Ata sözünün də qəti olmasını biləndə doğrusu həyəcanlandım. Ocağı Əsilsiz təsəvvür etmirdim. Odur ki, Safruhdan mənimlə Ata hüzuruna getməyi xahiş etdim. Safruh razılaşdı və getdik. Atanın Əsili bağışlama-

sını xahiş etməyə gəldiyimizi dedik. Ata bir anlıq susub gözlərini bir nöqtəyə zillədi. Sonra qəflətən başını qaldırıb "Zaminə götürürsünüzmü?" dedi. Mənə elə gəldi ki, Ata bizim Əsilin razılığı ilə gəldiyimizi zənn eləyir, ona görə bizə bu cür sual verir. Biz Safruhla bir-birimizə baxdıq və heç nə demədik. Ata ilə görüşüb ayrıldıq.

O vəziyyətdən sonra bir sıra Ocaqçılar Ocağı tərk etdilər. Hətta Ataya təkrar sədaqət andı içənlərdən bir neçəsi də az müddətdən sonra Ocaqdan çıxdı, döndü. Ata bunu "Ocağın ələnməsi" kimi qiymətləndirdi: "O kəslər Ocaqda qalacaq və Ocağı yaşadacaqlar ki, onların ən gərgin anlarda belə ağılları çaşmır"...

*xxx*

Bu olaydan sonra mənə elə gəlirdi ki, Ocaq formal bir şeydir. Artıq ağlım da, əhvalım da su üzündə üzən çöpə dönmüşdü. Heç bir kəsər, güc hiss eləmirdim ağlımda. Atagüzarlığımın davam eləməsi isə Ataya sədaqətimdən, anadangəlmə fədakarlığımdan və qeyrət hissimin gücündən gəlirdi. Ocağı türk xalqının ruhani özülü, nicatı kimi dərk edə bilmirdim. Milli azadlığın dərinliklərinə ağlım işləmirdi. Amal yolunu ən çox ayağımla gedirdim. Mənim üçün çox şey dumanlı idi. Həqiqətin dumansız biçimləri də mənim üçün dumanlı idi. Mütləqçilik meyarını mənimsəyə bilmədiyim üçün çətinlik çəkirdim. Kallığımdan Ataya da acığım tuturdu.

Ocağın tanıdığı bir Bəhram vardı. Anası Şəfiqə xanımla birgə Yasamal tərəfdə yaşayırdı. Anadangəlmə çolaq-topal idi, ağlı isə normal işləyirdi. O vaxtlar televiziya, mətbuat bu kimi şikəst adamları gündəliyə gətirirdi. Hər kəs özünü vətənpərvər göstərmək yarışına çıxmışdı. Topalların, kimsəsizlərin onları ekranda, yaxud mətbuatda tərifləməsi üçün canıyananlıq edirdilər. Ümumən milli Azadlıq məsələsi ümumxalq səviyyəsində dərk olunmamışdı (hələ də dərk olunmayıb). Ona görə aydınlar xəlqi hadisə adı altında vurnuxurdular. Necəsə Əsil də gedib Bəhramgilə çıxmışdı (13-cü ildə). Ona Atadan, Ocaqdan danış-

mışdı. Bəhram Ocaqçı olmaq arzusunu bildirmişdi. Əsil onun xahişini Ataya çatdırmış, Ata ona "Qeyrət" adı vermişdi. O vaxtdan Ocaqçıların Qeyrətin yanına gediş-gəlişləri başlamışdı. Əsil özü oğlana fanatikcəsinə qulluq göstərirdi: başını, üzünü qırxır, çimizdirir, qucağında götürüb yerbəyer edirdi. Bu mənim gözlərimin qabağında bir neçə dəfə baş vermişdi. Artıq Qeyrət mənim ağlıma Ocaqçı kimi deyil, ona qulluq edilməsi Ocaq əməlinin tərkib hissəsi olan bir zəlil kimi daxil olmuşdu. Qeyrətin anası Şəfiqə xanım da oğluna Ocağın qulluq göstərməsinə arxayın olub hər gün evdən çıxıb gedirdi. İllərlə çolaq oğluna görə ev dustağı olan bu qadın doğrudan da yorulmuşdu. Artıq Ocaqçılardan Qeyrətə keşikçi təyin olunurdu. Çox vaxt başqa Ocaqçılar özlərinin növbə çəkmək yükünü mənə tapşırırdılar. Bu işlərin tənzimləyicisi isə Əsil idi. Bu məsələdə mən Əsilin buyruqlarını yerinə yetirirdim. Ancaq açığı, könülsüz idim, bu iş mənə fərəh vermirdi. Bu, mənim tərəfimdən məcburi icraçılıq idi. Günlərin birində Ata evinə getməli, vacib işlər görməli idim. Ataya saat 13-də gələcəyimi demişdim. Əsil isə mənə Qeyrətin yanına getməyi tapşırmış, "onu tək qoymaq olmaz" demişdi. Ata evində işlərimin olduğunu deyəndə "Ocaqçılardan kimsə gəlib səni dəyişəcək" demişdi. Razılaşıb getdim. Vaxt gəlib keçdi, heç kim gəlib məni əvəz eləmədi. Təcili Ata evinə zəng elədim və gecikməyimin səbəbini bildirdim. Ata bərk qəzəbləndi: "Siz dəli olubsunuz nədi?! Ocaq əlillər evidir? Məgər siz əlillərə qulluq eləmək üçün Ocağa gəlmisiniz?! Bütün bəşərin qeyrəti şikəstdir, Ocağın şikəst Qeyrət problemi yoxdur. O, sizin biriniz kimi düşünməli, yanına gələnlərə də Ocağı deməlidir". Elə bil ayıldım. İndi anladım ki, Atanın bu qulluqçuluq "mərhəmətimizdən" xəbəri yoxdur. Bu, Əsilin də Ocağı ciddi dərk eləməməsindən irəli gələn yanlışı idi. Sanki üstümdən ağır yük götürüldü. Bilməzlik həmişə hər şeyə zərər verir. "İndi gəlirəm, Ata" deyib dəstəyi qoydum. Qeyrətin də "qal" xahişinə məhəl qoymadan birbaşa Ata evinə yollandım. O günkü qulluq mənim Qeyrətə-Bəhramla son görüşüm oldu...







***16 saylı Cəzaçəkmə Müəssisəsində cəzaçəkənlər qarşısında Soylu Atalının görüşü. Köçəri Ayı, 28-il (5.02.2007).***

*xxx*

14-cü ildə Ocağın iç yaşamında yeni mərhələ başladı. 82 nəfərdən 18-i Ocaqdan getdi. Bu ildən mənim Amal yüküm də ciddi şəkildə artdı. Ocağın ruhani təşkilatçılıq işlərini Ata mənə tapşırmışdı. Ata Ocaq qarşısında bunu elan etmədi, bu, öz gedişi ilə alındı.

Ocaqda Atanın buyruqları, mərasimlərə hazırlıq, Atanın səfərlərinin, görüşlərinin təşkili, Atagüzarlıq; üstəlik, kirayə haqqı ödəmək, kirayədə yaşayan ailəni saxlamaq, dövlət müəssisəsində işləmək – bunların öhdəsindən gəlmək sözün əsl anlamında məşəqqətli bir çətinlik idi.

Borçalıdan gələndən sonra Türkel xəstələnmişdi. Bir neçə ay onun müalicəsi ilə məşğul oldum. Özüm də nə ailə məsələsində səriştəli idim, nə də Ocaq məsələlərində. Ata mənim işlərimi təqdir eləsə də, təşkilatçılığımı uğurlu saysa da, uzun müddət bir çox işləri Əsil səviyyəsində bacarmırdım. Özümlə isə heç məşğul olmurdum. Heç bilmirdim ki, özüylə məşğul olmaq nə deməkdir. Çox ibtidai özüylədöyüş gündəliyi yazırdım. Həm də bu yazı başqaları üçün bir görüntü təsiri yaradırdı. Özümü araşdıra bilmirdim. Özümə "balaca" deməyə, "lovğa", "qısqanc" deməyə dilim gəlmirdi. İdraksızlığımı ifadə edə bilmirdim. Mənəvi qüsurlardan arına bilmirdim. Özümü gizləyirdim. Təxminən bir partiya fəalı kimi yaşayırdım. Mənaya sevgi, həqiqətə can atmaq, müqəddəs bir ürək yiyəsi olmaq – mənim ağlımda belə şeylər yer tutmamışdı. İnamçılığı dinçi kimi icra edirdim. Ancaq fəal idim, qoçaq idim. Hər hansı bir işin çətinliyi haqqında düşünmürdüm, yeriyirdim işin üstünə. Kənardakılar elə bilirdilər mən savadlıyam, çox şeylər bilirəm. Atanın yazılarını apardığım redaksiyalarda da bu cür bilirdilər. Mən də özümü o cür aparırdım. Bütün bunlarla yanaşı, Ocaq əməllərinin fanatı idim. Eşqli idim, yetkin idrakımsa yox idi. Ziddiyyətli idim. Güclü, hünərli, həm də kal. Ailəyə heç vaxtım qalmırdı.

Bir dəfə həyat yoldaşım, ortancıl oğlumuz Ruhtayın ciddi soyuqladığını dedi. Heç nə yemir, qarnı gedir... Həkimə apardım – Qarayev adına uşaq xəstəxanasına.

Axşam iş növbəm idi. Ata evinə gedib xörək hazırladım, səliqə yaradıb işə getdim. Təxminən saat 22.30 olardı. Məni şəhər telefonuna çağırdılar. Qaçaraq telefonu götürcək, yoldaşım ağlaya-ağlaya "Ruhtay ölür" dedi. Bir anlığa özümü itirdim. Təcili iş yoldaşlarımdan icazə alıb taksiyə oturdum və birbaşa xəstəxanaya sürdürdüm. Uşağı çarpayıda uzatmış, başından sistem qoşmuşdular. Kök, ətli-canlı Ruhtay bir neçə saatın içində nə günə düşmüşdü! – çiçək kimi solmuş, yatışında ölüm əlamətləri həyat nişanələrini tamamilə əvəz etmişdi. Doluxsundum, özümü ağlamaqdan güclə saxladım. Uşaq səsimi tanıyırmış kimi, ağır-ağır göz qapaqlarını qaldırıb başını o tərəf, bu tərəfə döndərdi. Hönkürəcəyimi hiss edib, oradan uzaqlaşdım. Göz yaşları məni boğurdu. Güclə ayaqüstə yeriyirdim. Həyətdə huşdan gedəcəyimdən qorxub möhkəm hönkürdüm, ürəyimi boşaltdım. Oradan evə gəldim. O vaxt "Gənclik" metrosu tərəfdə, tramvay parkının yaxınlığında kirayədə qalırdıq. Bu kirayəni bizə Ocaq Evladı İnamnur (Reyhan) tapmışdı. Evin yiyəsi (Şakir) onun əmisi oğlu idi. Evdə yoldaşım dayısı qızı ilə oturmuşdlar. Gözlərimin yaşını silib su istədim. Bir neçə dəqiqə oturub işə qayıtdım. Səhər tezdən işdən birbaş xəstəxanaya getdim. Uşağın vəziyyəti ağır idi. Hər yerə Türkeli də özümlə aparırdım. Gah qucağıma götürür, gah əlindən tuturdum. Uşaq yorulurdu, əziyyət çəkirdi. Vaxtlı-vaxtında yedizdirə bilmirdim. Özüm isə günlərlə şirin çaydan başqa heç nə yemirdim. Axşamlar işə gedəndə isə Türkeli böyük bacımın evinə aparıb qoyurdum, səhər işdən çıxanda gedib götürürdüm, yenə də xəstəxanaya, ora-bura qaçırdım. Gün ərzində həm də Ata evinə gedir, ona yemək hazırlayır, buyruqlarını yerinə yetirirdim. Başqa yerə gedəndə qucağımda daşımaq çətin olduqundan Türkeli Ata evində qoyub gedirdim. O vaxt Türkel iki yaş yarımında idi, Ruhtay isə 10 aylıq.

*xxx*

Bu arada Asif Ata da xəstələndi. Bu xəstələnmə Atanın vəhy məqamında baş vermişdi. Tərli halda eyvanda oturub kitab yazarkən soyuqlamışdı. Onda ürək bulantısı, təngnəfəslik yaranmışdı. İştahdan kəsilmişdi, heç nə yeyə bilmirdi. Getdikcə durumu ağırlaşır, xəstəxanaya isə getmək istəmirdi. Hətta bir dəfə elə təngnəfəs oldu ki, az qalmışdı ölsün. Qorxdum. “Keçib gedər” deyə təsəlli verdi. Ancaq bu durum keçib gedənə oxşamırdı. Yenidən nəfəs çatışmazlığından boğulanda qaçıb küçədən (avtomat telefondan) “təcili yardım” çağırdım. Ağzına oksigen balışı verdilər, iynə vurdular və xəstəxanaya yerləşdirməyi məsləhət gördülər. Ata isə xəstəxanadan imtina edirdi. Həkimin cibinə pul qoymaq istədim, götürmədi. “O puldan mənim də var. De görüm bu kişinin nəyisən?” deyə soruşdu. Qısa bilgi verdim. “Yenə təcili yardım çağıranda doktor Kərimov lazımdır deyərsən” deyib getdi. Bir neçə belə təmasdan sonra dostlaşdıq. Adı İsmayıldı, əslən Göyçəliydi. Qısa müddətdə Ocağımızın yaxın rəğbətçisinə çevrildi.

Atanın vəziyyəti çox ağırlaşmışdı. İşə getmirdim, Atanın müalicəsini ciddi təşkil etmişdim. Gecə-gündüz yanında qalırdım. Evimdən, uşaqlardan xəbərim yox idi. 14 gün Ata reanimasiya çətinliyi keçdi. Bu 14 günü ömrümün ən sarsıntılı günləri sayıram. Atanın ciyərləri 60–70 faiz işləmirdi, böyrəkləri sıradan çıxmışdı. Güclü yanğısı vardı, çox tez-tez su içirdi. Həm də çox tərləyirdi. Gün boyu 10–12 dəfə yataq dəstlərini yuyub isti ütü ilə qurutmalı olurdum.

Bir dəfə təsadüfən qulağım çaldı ki, Ata anlaşılmayan sözlər deyir. Bu sözlərin içindən yalnız birini aydın eşitdim. Ata deyirdi “dağları gətir”. Möhkəm qorxuya düşdüm: “Ata dəlimi olub?!” Atadan nə istədiyini soruşanda “Heç nə, narahat olma, oğul” dedi. Dəhlizə çıxıb ağlayırdım. “Deyəsən Ata öləcək” deyə hıçqırırdım. Həmin gecəni heç yatmadım. Ata qoymurdu onunla bir otaqda qalım, keçib mətbəxdə yatmağımı tələb edirdi. İşığı söndürdüm, qapını açıb örtdüm. Nəfəsimi içimə çəkib

sakitcə dayandım. Ata mışıldamağa başladı. Stula əyləşdim, gördüm yuxu məni təntidir. Sakitcə hamama keçdim, barmağımı ülgüclə yüngülcə yaralayıb duza batırdım. Kəsik dəhşətli yanğı verməyə başladı. Dişimi-dişimə sıxıb dayandım. Səhərə yaxın dözməyib su ilə yudum.

İynə-dərman, sistemlər Atanı yaxşılaşdırmağa başlamışdı. 14 gündən sonra Ataya yavaş-yavaş yemək verirdim. Qatığa bulki qırıntıları qarışdırıb çay qaşığı ilə yedirtməkdən başladım. Yavaş-yavaş ciddi yeməklərə keçdik. Otağın havasını tez-tez dəyişir, səliqə yaradırdım. Fasilələrlə bir neçə ay müalicə getdi. Artıq Ata yaxşılaşmışdı.

Bu vaxtlar anam Bakıda qardaşım İsaxanın evində idi. Bir gün yanına getmişdim. Mənə Asif Atanın evinə gedib onunla söhbət eləmək istədiyini dedi. Dedim gərək deyil, gedib kişini narahat etməyək. And içdi ki, davasız-şavasız söhbət eləmək istəyir. Əlacsız qalıb dedim "Qoy qabaqca Atanın özü ilə danışım". Zəng elədim və anamın istəyini Ataya bildirdim. Ata etiraz eləmədi. Beləliklə, anamı apardım Ata evinə. Ata bizi çox mehribanlıqla qarşıladı. Anam başladı ki, gəlin bizi saymadı, istəyirəm oğlum ondan aralansın. Ata isə "Nə baş versə belə, ailəni dağıtmaq olmaz, ortada uşaq var" dedi. "Oğlumu əlimizdən alıbsan, bizə yaxın gəlmir, arvadını da götürüb gəlib bura. Bəs sabah qocalanda bizim axırımız necə olacaq?"... Anam artıq özündən asılı olmayaraq, hikkəli danışmağa başlamışdı. Hədsiz dərəcədə həyəcanlı idim. Onu buraya gətirdiyimə peşiman olmuşdum. Söhbət pis axara yönəlmişdi. Ata "Sizin oğlunuz həm də xalqın oğludu. Ləyaqətli oğul təkcə valideynlərin oğlu olmur" deyib mətbəxə keçdi. Bu "görüş bitdi" demək idi. Anamın qolundan tutub qaldırdım və "getmək gərəkdir" dedim. Anamı otaqdan  çıxarıb içəri qayıtdım, Atayla görüşüb çıxdım. Yolboyu anam qəzəblə danışa-danışa Atanı, məni ittiham edirdi. "28 May" metrosuna düşdük. Anamın üzündə bütün ifadələr donmuş halda sakitcə eskalatorun pilləkənində dayanmışdı. Birdən üzüqoylu qabağa aşdı. Özündən aşağı pillələrdə dayanan

adamların üstünə yıxıldı. Onu qollarımın üstünə aldım. Aşağı düşüb yenidən yuxarı qalxan eskalatora keçdim. Yuxarıda polislər bizi əhatəyə aldılar, təcili yardım çağırdılar. Ancaq anam artıq özünə gəlmişdi. Taksi tutub qardaşımın evinə apardım.

Usanırdım, yorulurdum, ancaq hiss edirdim ki, Ocağa bərk bağlanmışam, Ataya sədaqətimdən dönməyəcəm.

***xxx***

Məni usandıran Ocaq deyil, Ocağa görə üstümə yeriyən əhvallardır. Bütün bunların bir əlacı vardı – özümün içdən yetkinləşməyim. Ancaq gücüm hara qədərdir, məni hara qədər aparacaq – özümə bəlli deyildi. İmtinaçılığım üçün müdrik duyum gərək idi. Böyük imtinaları dərk eləmirdim. Görünməyən tellər məni qalmaqallara bağlayırdı. İçimdə Amal və yaşam sərhədi aydın deyildi. Amala həsr olunurdum, yaşamımı nizamlaya bilmirdim. Həyat məni idarə edirdi. Buna yol verməməyə qadir deyildim. Naşılıqdan çıxmağın yollarını bilmirdim. O yerdə ki, idrak gərəkdi – mənim işim çox çətin alınırdı.

Bir vaxtlar Ocağın Ataya maaş verməsində çətinlik yaranmışdı. Əgər o vaxt kənardan kimsə yaxşı müşahidələr aparsaydı, Ocağın bu vəziyyətdə necə yaşaması ona möcüzə kimi görünərdi. Bir dəfə gecə iş növbəmdən çıxmışdım. Evdə dincəlirdim. Yuxulu halda kişi səsi eşitdim. Yoldaşımla nəsə danışırdı. O vaxtkı Ocaq Evladı Birüzün səsi idi: “Soylunu oyat, görsün neyləyir”. Ayağa durub geyindim. Artırmaya çıxıb Birüzlə görüşdüm. “Ata acdır, evdə heç nə yoxdur” dedi. Soyuducunu açdım. Əlin yarısı boyda, çox hissəsi də sümük olan ət parçası vardı. Onu götürdüm. Zirzəmi kimi istifadə olunan qarajdan küncdə-bucaqda qalmış 4–5 kartofu və 2–3 baş xırda soğanı dənləyib ətin yanına qoydum. Bir dənə də çörək alıb Birüzü Ata evinə göndərdim. “Get piti bişir, birisi gün səhər tezdən gələcəm” dedim. Axtarıb o vaxtkı başqa bir Ocaqçını - Uğuru (Hüsaməddin) tapdım. “Hazırlaş, daş karxanasına gedəcəyik”

dedim. Bu oğlanla yaxın dost idik. Özü də mənim oxuduğum institutun başqa fakültəsini bitirmişdi.

Səhər tezdən Qaradağ rayonunun Qızılqaya qəsəbəsinə yola düşdük. Daşxana buraya yaxındır. Biz bu karxanada bundan öncə də bir-iki dəfə olmuşduq. O vaxtlar karxanada yaxşı pul qazanmaq imkanı vardı. Səhər saat 10-da işə başladıq, bütün gündüzü və gecəni – səhərə qədər işlədik, maşınlara minlərlə daş yüklədik, xeyli pul qazandıq. Şəhərə qayıtdıq, Uğur öz evlərinə getdi, mən isə Ata evinə. Bu oğlanla pulumuzu üç hissəyə bölmüşdük. İki bərabər hissəni özümüzə, xeyli az hissəni isə Atanın məişəti üçün ayırmışdıq. Halbuki biz karxanaya Atanın məişət çətinliyini həll eləmək üçün getmişdik. İndi bu işə qıyımsızlıq edirdik. Bunları düşündükcə utandım. Böyük fədakarlığın kiçik xassələri ilə üz-üzə qalmışdım. Bu kimi düyünlərdə bərkiyib mənim çətinçiliyim. Adam belə şeyləri niyə bacarmır görəsən, nədir bunun sirri? Niyə fədakarlıq nümayiş olunur, niyə adam xeyirlə daxildə doğmalaşa bilmir? Mənəmlik nə üçündür? Mən-cə, ölüm dərk olunmayanda, əbədiliyə inam olmayanda mənəmlik güclü olur. Adam görünməyən, bilinməyən əməli sevə bilmir. Bunların fəlsəfəsini mən düşünə bilmirdim. Elə buna görə də "Atanın məişət çətinliyini həll eləmək üçün pul qazanmağa getmişik" məntiqinin arxasında da dura bilmirdim. Adam olmayan şeyi bəxş etmək haqqında geninə-boluna danışa bilir. Olanı verməyə ürəyinin gücü çatmır, əli gödək olur. Nə qədər ki, pul qazanılmayıb, onu verməkdən yüksək fədakarlıqla danışırdım, pul ortaya gələndən sonra büdrəmələr qısqacına düşdüm. Ata evinə gəldim. Ata məni gözləyirdi. Məni görəndə sevindi. "Bir şey eləyə bildinmi" deyə soruşdu. Atanın sevincindən, görməsindən, bilməsindən sonra mən pulun çox hissəsinin üstünə az hissəsini də əlavə edib Ataya verdim. Sonra durub bazara getdim. Evdən çıxanda sevinirdim. Deməli, bunu "bacardım. Üzücü, yorucu büdrəmələrdən qurtardım. Sevincimdən az qala bağırmaq istəyirdim ki, mən bacardım, ruhani fədakarlıq elədim!" Çox təzadlı məsələdir. Ortada böyük əməllərim, hünər-

lərim vardı. Atanın buyruqlarının öhdəsindən uğurla gəlirdim. Ancaq bunlara təkan verən məsələ dərindəki məzmun deyildi, əsasən üzdəki keyfiyyətlər idi. Doğrudur, adam danışanda gördüyü işləri vətən üçün, xalq üçün elədiyini deyir. Lakin ömrün həqiqi durumunu öyrənəndə görürsən ki, heç də elə deyilmiş. Vətən, xalq sözünü bilirik və onun üçün elədiyimizi deyirik, özümüzü inandırırıq, başqalarını aldatmaq istəyirik, yaxud da bilmədən aldadırıq. Safruhun "Başlanğıc"ında bəzi fikirlər məndə də yaranır. O, incə bir məsələnin üstündə qayğılanır, xalq üçün filan məsələnin doğru olmadığını, filan şeyin yaxşı olduğunu vurğulayır. Aydın olur ki, bu adam ziyalıdır, vətən məsələsini, xalq məsələsini başa düşür, nə istədiyini bilir. O vaxtlar mən Vətən, xalq məsələsinin yalnız adını bilirdim. Mənim əməllərim də bu cür məsələlərin fəlsəfəsini dərk eləməyimdən irəli gəlmirdi. Yenə deyirəm, mən belə məsələlərin fəlsəfəsini anlamırdım. Məndə şöhrət duyğusu, bir qom toplumun içərisində bilinmək, görünmək həvəsi daha güclü idi. Bu, əslində bir çox fəal adamların yaşadığı aqibətdir. Zahiri keyfiyyətlərin təsiri ilə uzun müddət fəal olurlar, dərinə enə bilmirlər və tükənib gedirlər. Belə bir təhlükə məni də uzun illər təhdid edib. Sonralar anlamışam ki, fəal olub, vətən üçün, xalq üçün çalışmağı dilə gətirməklə sabahı aldatmaq mümkün deyil. Gərək doğrudan da həqiqətlə bir olasan, həqiqətçi kimi yaşayasan. Xalqın daxili keyfiyyətlərinə zidd yaşayıb, xalq üçün çalışıram deməklə uzaq getmək olmaz...

Ata evinə şey-şüy alıb qayıtdım. Bərk yuxusuz və yorğun idim. Fikrim vardı ki, Ataya xörək-çörək hazırlayıb evə gedərəm, bir az yatıb dincələrəm. Yemək hazırladım, mətbəxi sahmana saldım. Bu vaxt Ata əlində bir siyahı gətirdi ki, "oğul, bu kitabları tap gətir mənə". Akademiyanın kitabxanasına getdim, siyahıdakı kitabları alıb qayıtdım. Evə girən kimi Ata dəhlizə çıxıb qarşıma gəldi: "Oğul, "Yeni Fikir" qəzetindən zəng eləmişdilər, bu yazını xahiş edirəm, onlara çatdır". Hələ ayağımı soyunmamışdım. Yazını götürüb Azərnəşrin binasına getdim.

Qəzet burada yerləşirdi. Qalxıb yazını verdim. Redakiyanın əməkdaşları məni sorğu-suala tutdular. Arada Atanın dolanışığı ilə maraqlandılar. “Yazıq kişi hər şeyə həsrət qalıb” deyərək təəssüflənənlər də oldu. Açığı, Ataya “yazıq” demək şəstimə toxundu. “Ata ən xoşbəxt insandır” deyə qürur göstərdim. Əgər məndən soruşsaydılar, “Atanın xoşbəxtliyi nədədir?”, heç onlara izah edə bilməzdim. Ümumən Ata haqqında heç yerdə həqiqəti demirdim. Ata məişətinin çətinliyindən, yoxsulluğundan utanırdım. Çünki Atanın yaratdığı həqiqətçiliyi çatdıra bilmirdim. Ata yurdumuzda olan hər cür dünyabaxışı rədd edir. Bu fikri cəmiyyət arasında deyəndə çox vaxt etirazla qarşılaşırdım və sarsılırdım. Belə olanda içimdə Atanın kəskin mövqedə durmasını alqışlamırdım, güzəşt etməsini arzulayırdım. Ata isə deyirdi ki, yalnız Mütləq olan həqiqidir, nisbi nə varsa yalandır, riyakarlıqdır. Ata nə dediyini bilir, mən Atanın nə dediyinin dərininə gedə bilmədiyim üçün onun bu sayaq fikirləri mənə mücərrəd görünür, yalnız söz təsiri bağışlayırdı.

Redaksiyadan Ata evinə qayıtdım və orada güclü iş apardığımı dedim. Halbuki orada güclü iş aparmamışdım, sadəcə oradakıların bəzi sorğularına cavab vermişdim. Ata məni dinlədi və uğurlar dilədi. Sonra əlavə elədi ki, evdə qələm-dəftər qurtarıb, almaq gərəkdir. Evdən çıxdım. Ancaq içimdə Ataya acığım tutmuşdu. “Deyəsən, Asif Ata heç nəyi nəzərə almır, axı yuxusuzam, yorğunam” deyə-deyə dodağımın altında mızıldandım. “Əgər qayıdanda yenə harasa göndərsə, imtina edəcəm” fikrini xəyalımdan keçirdim. Qələm-dəftər aldım, qayıdıb verdim. Yalnız bundan sonra Ata canıyananlıqla “Oğul, bəlkə gedib dincələsən?” dedi. “Eybi yoxdur, Atanın başqa tapşırığı varsa, eləyim” dedim. – “Oğul, onda əgər vaxtın varsa, işıq pulunu apar ödə, gəlib bizi narahat eləməsinlər”. “Yaxşı” deyib çıxdım. Bir az pərtləşdim, özümə acığım tutdu. Ancaq gedib məsələni yoluna qoydum. Elə oradan Ata evinə zəng edib “Evə gedirəm” dedim. Yuxusuzluqdan, yorğunluqdan dodaqlarım qurumuş, başım keyimişdi.

Çox qəribədir ki, əməllərimin əhəmiyyətini dərk edə bilmirdim. "Asif Ata niyə belə eləyir?" deyib qınamağa nə var! O bu qədər vaxtda hər cür imtiyazlarından keçib, vəzifədən keçib, şöhrətdən keçib, varlanmaq imkanlarından imtina edib, ailəsini itirib, hər cür tənələri qəbul edib, hər an ölümlə görüşüb, demək olar, şəhidlik aqibəti yaşayıb. "Xalqa milli azadlıq ideyası verim, yol yaradım, fərd yaradım" deyə özünü oda-közə vurub, mən isə belə bir təhlükəsiz zəhmətdən təngə gələ bildim. Bəs necə olsun – Başlayan tək qalıb yıxılsın, yaranan məhv olsun, qurulan uçsun?! Əqidə çox yüksək tələbdir – ya etmək olur, ya da ölmək.

***xxx***

Ocağın iç qaydalarından biri ruhani ailəçilik hadisəsidir. Ocaqkənddə (Cəlilabad rayonu) bölgənin Ocaqçıları bir ruhani Ailədə birləşiblər. Onlarda birgə Amallaşma, Kamilləşmə, Xalqlaşma işi görmək, sıx əlaqə saxlamaqla bir-birindən öyrənmək, düşüncələrini bölüşmək və Ata qarşısında hesabat vermək üçün Ailə biçimi çox uğurlu alınmışdı. Ocağa gələndən sonra mən də bu qaydaya uyğun olaraq, hansısa bir ruhani Ailədə olmalı idim. Ancaq Atanın tövsiyəsi ilə biz yeni bir Ailə yaratmalı olduq – "Az.İMİ Ata Ailəsi". Məndən öncə bizim institutdan iki nəfər var idi – Uğur (Hüsaməddin) və Bilən (Elman). Məndən sonra mənim müşayiətimlə Birüz (Ülfət) gəldi. Beləliklə 13-cü il Günəş Ayının 10-da 4 nəfərdən ibarət "Az.İMİ" Ata ailəsini yaratdıq. Öz aramızda Ailənin təmsilçisi də mən seçildim. Qısa müddətdə Ailə əməlçilik baxımından çox aktivləşdi. Daxili inkişaf, fərdi özünütəsdiq yönündə ciddi uğurlarımız isə hələ yox idi. Demək olar ki, bu Ailə dağılana qədər də olmadı. Sözçülük, filolojilik dalınca qaçırdıq. Bir təmsilçi-yükümlü olaraq mənim mənəvi, idraki cazibəm yox idi. Ailədə dərin axtarışa əsaslanmayan quru çıxışlar yaradıcılığı əvəz eləyirdi. Əməl çox idi, ancaq bu birgə fəaliyyətin sonucu, yaxud ayrı-ayrı fərdi əməllərin vəhdəti deyildi, mənim əməllərim idi. Ailə günlərinin

gedişlərini sözə çevirirdim, makinada bir neçə nüsxə çıxarıb cildləyirdim. Ailənin dərgisini hazırlayırdım, çap etdirib ailəçilərə və başqa Ocaqçılara paylayırdım ki, yaysınlar. Ocaqda ilk dəfə Ailənin "Fikir Evi"ni həyata keçirdik – Atanın görüş keçirdiyi "Cəngi" zalında. Buraya xeyli institut tələbələri toplamışdıq. Orada başqa Ocaqçılar da iştirak etdilər. Tədbirlərimizə adamlar dəvət edirdik, onlara dərin ruhani bilgilər verə bilmirdik, əsasən ümumi bilgi, məlumat verirdik. Mənim özünügöstərmə meylim çox vaxt boğazdan yuxarı danışmalarıma səbəb olurdu. İnstitutumuzdan Ocağa yeni Evladlar gəlirdi, yaxud biz gətirirdik və Ailə sayca xeyli böyümüşdü: – Elgün (?), Ötgün (Camal. Bu oğlan sonralar özünü uydurub saqqal buraxdı, Allahla görüşdüyünü dedi və yavaş-yavaş Ocaqdan getdi), Yolnur (Natiq) və b. İnstitutdan olmayanlar içərisində də bizim Ailəyə üz tutanlar oldu: – Ötgün (Kamran. Tibb Universitetində oxuyurdu), Göynur (?), Uluruh (Əzizbala. Rəssam idi), yenə adları yadımda qalmayan başqaları. Sonradan (15-ci ildə) yoldaşım öz istəyi ilə Ocağa qəbul olundu, – "Ucatay" adını aldı. İnamnur (Reyhan), İnamruh (Mirzəli. İş yoldaşım) Atanın ölümündən bir il sonraya qədər bizim ailədə oldular. İnamruh yaxşı oğlan idi, amma mənim kimi onun da özünü bəzəmələri, aldatmaları vardı. Bununla belə, oğlanı Ataya həmişə tərifləyirdim. "Neftçilər" metrosunun üstündə dükan ("Xəyal" deyilən) vardı. İnamruh orada satıcı işləyirdi. Tez-tez yanına gedirdim. Bir yerdə işlədikləri mühasib, müdir müavini və başqa işçiləri ilə söhbətlər edirdik. Söhbətlər ən çox mübahisə xarakterli olurdu. Sonra da domino oynayırdıq. Bu, Ocağın 18-ci ilinə təsadüf edirdi. Bu mübahisəli söhbətləri də Ataya Ocaq əməli kimi təqdim edirdim. Beləcə özümü aldada-aldada uzun illər yol getmişəm.

*xxx*

Ata xəstələnəndə arabir evdən çıxmasını, gəzintidə olmasını gərəkli bildim. Fikrimi Ataya dedim, bəyəndi. "Necə olacaq, hara gedəcəyik, yaxşı həll elə" dedi. Həftədə bir dəfə dəniz kənarına, yaxud şəhərin başqa istiqamətlərinə çıxacağımızı Ataya bildirdim. Beləliklə, 15-ci ilin payızından (yəqin ki, ayını, gününü hardasa yazmışam) Atanın gəzintiyə çıxmaq ənənəsi yarandı. Əvvəllər Atanı tək aparırdım. Yolboyu ciddi söhbətlərimiz olurdu. Təbiidir ki, ciddi söhbətləri Ata edirdi, mən isə dinləyir, suallar verirdim. Ataya çox vaxt adi, yersiz suallar verirdim. Ata belə sualarıma cavab versə də, narazı qalırdı. Bəzən hirslənirdi də. "Oğul, indiki səviyyəni ötməlisən, adilikdə dayanıb qalmaq olmaz" deyərək etiraz edirdi. Çox vaxt könlümə dəyməmək üçün incə davranırdı.

Bir dəfə Azadlıq prospekti ilə dəniz kənarına gedirdik. Ata ciddi söhbət edirdi. Atanın qoluna girib yanı ilə addımlayırdım. Amma fikrim başqa yerdə idi. Hiss elədim ki, Ata məndən nəsə soruşdu. Diksinən kimi oldum, dönüb Ataya baxdım. Ata dayanıb səsini qaldırdı: "Sən Ataya qulaq asmırsan, fikrin hardadı?", dinmədim. Xəcalətli kimi üzünə baxdım. Yolumuzu davam elədik. Bir az gedəndən sonra Ataya izah elədim ki, eyvanların altından keçəndə fikrim orda olur, kiminsə əlindən nəsə düşə bilər, ya da kimsə qəsdən nəsə ata bilər. Çevik tərpənib Atanı xilas eləmək haqda düşünürdüm. Ata bir an susdu, sonra "Yaxşı, oğul, özün necə bilirsən elə hərəkət et" dedi. Bu məsələnin qoyuluşunda həqiqət vardı, amma özünü sığortalamaq da vardı.

Hər dəfə gəzintiyə çıxanda Ata deyirdi ki, oğul, elə marşrut seç ki, "salam" təhlükəsi olmasın. Yəni Azərbaycanın ziyalı seçkinlərinə, tanınmışlara salam verməyi Ata öz ləyaqətinə uyğun saymırdı. Ata çox təəssüf hissi ilə vurğulayırdı ki, mən üzdə olanları yumurta kimi dişimə vurdum, hamısı lax çıxdı. Ona görə də Atanı istirahət günləri deyil, iş günlərində gəzintiyə çıxarırdım. Gəzinti 3–4 saat çəkirdi – saat 11-dən 14–15-ə kimi.

Bəzən Atanın yolunu "Gənclik" metrosu tərəfdən salırdım. Ucataya tapşırırdım, saat 14 üçün xəngəl bişirirdi. Gəzintidən qayıdanda mənim kirayəmdə dayanıb nahar edirdik, sonra gəzə-gəzə Ata evinə qayıdırdıq. Bəzən gəzintimiz uzanırdı. Günortadan keçdiyinə görə yolda şirin kökə alıb Ataya yedirdirdim. Belə məsələlərdə Ata uşaq sadəliyi ilə mənə tabeçilik göstərirdi. İsti havalarda dondurma alırdım, yolda dayanıb balaca dondurma qaşığı ilə özüm yedizdirirdim. Ata olduqca sadəlövh davranırdı, onun şöhrəti, ictimai nüfuzu bizə mane olmurdu. Ataya qulluq göstərməkdən doymurdum. Ata ilə doğmalığım bir bədənin ətisümüyü kimi bütövləşirdi.

Bir dəfə mətbuatda "Asif Atanı Nəsiminin aqibəti gözləyir" başlıqlı yazı çıxdı. Bundan sonra gəzintiyə Ocaqçıları da cəlb elədim. Atanın vecinə deyildi, amma mən nə edirdimsə, mane də olmurdu. Bir dəfə Atadan soruşdum ki, üstümüzdə silah gəzdirmək olarmı? Ata çox düşünmədən "gərək deyil" dedi. Amma cibimdə ağzıbağlı balaca bir bıçaq saxlayırdım.

Bundan sonra Atanın gəzintisində 5–6 nəfər Ocaqçı iştirak edirdi. Lakin intizam tez-tez pozulurdu. Gəzinti üçün təyin etdiyim Ocaqçılar axıra qədər intizamı qoruya bilmədilər və təxminən bir aydan sonra gəzintini yenə də tək həyata keçirməli oldum. Mənim intizamı pozanlara acığım tuturdu, içimdə inzibatçılığa meyil vardı. Lakin Ata bu məsələyə görə heç kimə heç nə demirdi. Belə məsələlərdə çox təmkinli idi. Nə var idi, onunla yetərlənirdi. Bundan başqa gecələr Ata evində qalmaq məsələsini gündəliyə gətirdim. Adətən Ocaqçıları mərasimlərdən sonra saxlayıb təkliflərimi deyirdim. Yenə mərasimlərin birindən sonra Atanı yola salıb, təkliflərimi Ocaqçılara bildirdim. Ocaqçıların əksəriyyəti içlərində mənim bu təkliflərimdən narazı qalırdı. Amma üzə düşüb dillənmirdilər. Mən isə ləbbeyk deyib hər şeyin icra olunmasını istəyirdim. Atanın görüşlərdə, səfərlərdə, "Bilik" cəmiyyətində keçirdiyi "Fikir evlərində", gəzintidə, evində mühafizəsini təşkil eləmək üçün plan tutmuşdum, bölgü aparırdım. Amma bu istəyim də qısa müddətli oldu.

Heç kim axıra qədər əməl eləmədi. Əslində bu iş çox çətin idi. 10–15 nəfər daim bu işə bağlana bilmirdi. Hər kəsin işi-gücü vardı. İllərnən belə gərgin yaşamaq hər kəsin bacaracağı iş deyildi. Mən isə fanat ləbbeykçiydim, işin icrasından başqa heç nəyi ciddi düşünə bilmirdim. Ata mənim adamları yoracaq tərsliyimə qapı açmırdı, axtarışlarıma da mane olmurdu. Bununla belə, planda nəzərdə tutduğum işlərdən əl çəkmirdim, özüm təklikdə həyata keçirirdim. Tədricən Ata evində gecələmə məsələsi ciddi problem yaratdı. Demək olar ki, həftənin 4–5 gününü Ata evində özüm gecələməli olurdum. O vaxtlar Birüz kirayədə qalırdı, özü də kirayə pulunu çətinliklə ödəyirdi. Onunla danışdım ki, gəl səni Ata evinə köçürək. Həm Atanın yanında gecələr adam olsun, həm də kirayə pulu ödəməkdən azad ol. Razılaşdı. Bu fikrimi Ataya söylədim. Mənə elə gəlirdi ki, bu məsələdə yaxşı ağıl işlətdiyimi Ata təqdir edəcək. Ancaq Ata dinləyən kimi bərk qəzəbləndi: "Sənin ağlın hərdənbir çaşır, nə elədiyini bilmirsən. Hər şeyi Ocaq üçün eləmək gərəkdir, Ata evini "kameraxraneniyaya" döndərmək yox". Məsələni dərindən anlamadığım üçün gözümü döyə-döyə baxdım. Ata sərt danışmağına baxmayaraq, Birüzün burada qalmasına etiraz etmədi. Bundan sonra Ata evində 2-ci, 3-cü adamın gecələməsinə ehtiyac qalmadı. Yalnız Birüz rayona gedəndə Ata evində mən qalırdım. Birüz Şərqi (Nuriyyə) ilə ailə qurana qədər Ata evində qaldı (bir llədək). Bundan sonra bir neçə ay (Atanın ölümünə qədər) Yüksək (Fərəhim) qaldı.

***xxx***

Ata mənə çox inanırdı və məni sevirdi. Yəni sədaqətimə, etibarıma, hünərimə güvənirdi. Ona görə də naşı hərəkətlərim olanda bərk hirslənirdi. Mənim naşılığım həyatdan tam ayrıla bilməməyimdən irəli gəlirdi. Mütləq imtinaçı deyildim, bu səbəbdən də ziddiyyətlərdən xilas ola bilmirdim. Bir dəfə hardansa Ata evinə gəldim. Ata məni görcək "Oğul, yaxşı ki, gəldin, bizi Xudu Məmmədovun yubiley tədbirinə dəvət ediblər.

Gərək gedək, yaxşı ziyalı idi, onun tədbirinə getmək olar". Tədbir saat 17-də, ya 19-da keçiriləcəkdi, – M.Maqomayev adına Dövlət Filarmoniyasında. Atanı hazırladım, taksi tutub apardım. Keçib içəridə oturduq. Ata gərgin idi. Bunun səbəbini mən bilmirdim. Bir az oturduq, gördüm tədbiri hələ başlamırlar. Ataya "gəlirəm" deyib dəhlizə (foye) çıxdım. Bufetə girib şirə və şirin kökə aldım, bərk acmışdım. Sonra pəncərənin qabağına keçib bir papiros yandırdım. Qayıdıb salona girmək istəyəndə buraxmadılar, o biri qapıdan keçməyi işarə verdilər. O biri qapıya yaxınlaşdım. Buradan da buraxmadılar. Keçmək üçün israr eləyəndə bir nəfər gödək, kök oğlan ortamdan qucaqlayıb üst-başımı yoxladı. Ona "narahat olma, silahsızam, özüm də bu tədbirə Asif Atanı gətirmişəm". Bu oğlan da mənə başqa bir qapını göstərdi. Əvvəlki qapının yanına qayıtdım (Atanın oturduğu yer bu qapıya yaxın idi). Geri çəkilib sürətlə özümü qapıya çırpdım. Qapı taybatay açıldı və mən içəri düşdüm. İçəridə olanlar diksinib mənə tərəf döndülər. Arxada dövlət nümayəndələrinin arasında oturan prezident Əbülfəz Elçibəy də təəccüblə mənə baxdı. İçəri tərəfdən qapının sağ və sol tərəfində duran keşikçilər pərt və çaşqın halda dayanmışdılar. Mən isə içəri girən kimi səhnəyə (tribunaya) tərəf yeridim. Ata çıxışının son cümlələrini deyib düşməyə hazırlaşırdı. İndi başa düşdüm ki, burada prezident iştirak edirmiş və onun mühafizəsi üçün məni içəri buraxmırmışlar. Səhnədən salona enən pilləkənə yaxınlaşdım, Atanın əlindən tutub düşürdüm. Ata bərk hirslənmişdi: "Harda itib-batmışdın, birdən-birə hara yoxa çıxdın?!" Heç nə demədim, Atanın qoluna girdim və salonu tərk etdik. Küçəyə çıxanda ləngiməyimin səbəbini Ataya izah elədim. Amma papiros çəkdiyimi demədim. Elədən-elə, belədən-belə qovulduğumu, içəri necə düşdüyümü söylədim. Ata arxaya qanrılıb uca səslə qəhqəhə çəkdi. Mənim naşı qorxmazlığım Ataya ləzzət eləmişdi.

***xxx***

İnamnurun (Reyhan) qardaşı bizi əmisioğlunun adından kirayədən çıxartdı. Özünün kirayə pulunu ödəmək problemi yaranmışdı və ailəsini buraya gətirdi. Gənclikdən Montin deyilən yerə köçdük. Ata evinə yolum xeyli uzanmışdı. Bəzi işləri çatdıra bilmirdim, yorulurdum. Üstəlik Ucatayın bacısı, ailəsi ilə birlikdə bizə yük olmuşdu. Kənddən gələndə əri məni aldatmışdı ki, yük maşını alacaq, bunun üçün bütün işlərini düzüb-qoşub. Öncə özü gəldi, bizdə qaldı. Sonra da gəlib ailəsini (arvadını və qızını) gətirdi. Mən inanmışdım ki, bunların bizə yük olması müvəqqətidir, əllərindən tutaq, kömək edək, sonra özləri öz başlarını saxlayarlar. Sonra bəlli oldu ki, oğlan yalandan vədlər verib, onun bircə gün müstəqil yaşamağa belə, imkanı yoxdur. Beləcə təxminən 6 ay bu ailənin qayğısını çəkməli olduq. Naşı fədakarlığım gücümü bölürdü. Nə qədər ki, qohum-qardaşdan uzaq idim, çox fəal, hünərli Ocaqçılıq edirdim. Sonradan qohumlarla bu və ya başqa biçimdə ilişkilər Ocaq əməlçiliyimi müəyyən mənada azaltdı. Ölkədə işsizliyin çoxalması, aclığın artması mənim qohumlarımdan da yan keçmədi. Mənim bu və ya başqa şəkildə onların qayğılarına qalmağım məni yenidən həyata bağlamışdı. Hətta bəzən başım elə qarışırdı ki, çatdırıb Atanı çimizdirə bilmirdim, Ata özü su qoyub çimirdi. Sonra Bakıxanov qəsəbəsinə köçdük. Kirayədən-kirayəyə köçdükcə özümə ev almaq haqqında düşünməyə başladım. Amma ev almaq asan məsələ deyildi. Bunun üçün ciddi həsr olunmaq, pul qazanmaq gərək idi. İş yerimdən xarici ölkələrə getmək üçün turist səfərləri təşkil edirdilər. Yol xərcinin 10 faizini ödəməklə gedib-gəlmək olurdu. Bu imkandan istifadə edib üç dəfə Suriyaya getdim. Buradan satmaq üçün müxtəlif mallar alıb gətirirdim. Demək olar ki, beynim, fikrim, düşüncəm alverlə məşğul idi, qəpikləri sayırdım. Bəzən Ataya bəhanələr gətirirdim. Bundan başqa iş yerimizdə bir anarxiya yaranmışdı. Neft məhsullarının oğurlanması, su qiymətinə satılması baş alıb gedirdi. Bunu polis orqanları da bilirdi və bu işdən onlar da yararlanırdı. Biz də bu işə gedirdik. Bundan başqa iş yerimdə

kart, domino oyunları kimi əyləncələrə də qoşulmuşdum. Tamamilə adiləşmiş və geriləmişdim. Bu işlər başqaları üçün normal bir həyat tərzi idi. Mənim üçün isə böyük bir ayıb və ağrı idi. Yalnız 4 aydan sonra bu cür yaşam tərzindən ayıldım və ayrılmağa başladım. 14–15-ci illərdə yaxşı mütaliəyə başladım. Böyük kitablar oxuyurdum, dünya ədəbiyyatına meyil eləmişdim. Sonra birdən-birə geriləmə, sonra addım-addım imtinalar. İmtina da çox çətin idi, özünü ifadə eləmək də. Hamının biri olduğum halda, daxilən hamıdan ayrılmaq mümkünsüz görünürdü, – özü də mənim kimi içində yaxşı pisə, pis yaxşıya qarışmış bir adam üçün. Gülürdülər, arxamca danışıb lağ edirdilər, zarafata salıb sataşırdılar, məni görən kimi pıçıldaşırdılar. Amma dözürdüm, bəzən xəbərdarlıq edirdim, hədələyirdim. Lakin heç kimlə kin saxlamırdım, acıq eləmirdim. Atanın ölümündən sonra imtinalarımda xüsusi ardıcıllıq yarandı. Axtarışlarımda, mütaliələrimdə bir doymazlıq yarandı. Elə bil ayılmışdım, məsuliyyətim böyümüşdü. "Atanın işi davam eləməlidir, bunu mən eləməliyəm" kimi iddialar məni ayaqda saxlayırdı və inkişafa doğru çəkirdi.

***xxx***

Atanın ölüm xəbəri çox sarsıtmışdı məni, dəhşətə gəlmişdim. 18-ci lin axırlarından Atada "qan təzyiqi" əmələ gəlmişdi. Mənə elə gəlir ki, 15-ci ilin sətəlcəminin qalığı üzə çıxmışdı. Atanın barmağının biri hərdənbir qatlanırdı və açılmırdı. Bununla belə, Ata xəstəxanaya getmirdi, özünü tox tuturdu. 19-cu ilin "İdrak Günü" mərasiminə gələndə xəstə idi. Bu, üzündən hiss olunurdu. Amma necə ehtiraslı, eşqli mərasim apardı! Hətta bir vaxt dişsiz idi. Həkim protez hazırlayırdı, hələ başa çatdırmamışdı. Onda da Ata nə xəstəliyi vecinə alırdı, nə dişsizliyini. Bu isə bizi arxayın salırdı, Atanı xəstəxana müalicəsinə məcbur eləmirdik.

Mərasimlər əsasən mənim kirayələrimdə keçirilirdi. Şölə Ayının birində "Evlad Günü" Mərasimini Bakıxanov qəsəbəsin-

də – mənim kirayəmdə keçirdik. Atanı yola saldım, Ocaqçılarla "Amal borcu" və başqa qayğıları bölüşdük. Sonra hər kəs dağılıb öz evinə getdi. Axşamüstü idi, Nurruh (Sakit Məmmədov) bizə gəldi və "Ata xəstədir, səni çağırır" dedi. Həyəcanlandım, necə yəni xəstədir?! Mərasimdən onu sağ-salamat yola salmışam. Tezcə qalxıb Ata evinə getdim. İçəri keçdim. Görüşüb nə baş verdiyini soruşdum. "Oğul, zəhrimara qalmış bu qan təzyiqim mənə mane olur, işləyə bilmirəm. Gör nə eləyə bilərsən" dedi. Həkimlə məsləhətləşib papaverin hidroxlorid və dibazol aldım. Təyin olunan nisbətdə bunları qatıb Ataya vurdum. Səhər tezdən Semaşko xəstəxanasına gedib Firdovsi həkimi tapdım və Atanı nəzarətə götürməsini xahiş elədim. Firdovsi həkim bir həftəlik harasa gedəcəyini (yanılmıramsa Türkiyəyə) dedi və bir dərman yazıb hələlik o gələnədək bunu işlətməyi tapşırdı. Üstəlik, Atanın pəhriz saxlamasını məsləhət gördü. Sağollaşıb Ata evinə getdim. Həkimin dediyi dərmanı da almışdım. Dərmanın adını xatırlamıram. "Ata bu dərmanı işlətməlidir və pəhriz saxlamalıdır" dedim. Ata "Oğul, mən intizamlı xəstəyəm, nə desən edəcəyəm. Təki işləyə bilim" dedi. Pəhriz məsələsində şəkərin adını çəkəndə Ata duruxdu. Dedi, "Oğul, bütün dediyin pəhrizləri saxlayacam, amma şəkərə söz vermirəm. Andır vəhyim gələndə çox şəkər yeyirəm..."

Bir də ayın 4-də səhər Ata evinə gəldim. Ataya yemək hazırladım, yuyulası paltarları və qabları yudum. Sonra həkim dostumuz İsmayılgilə (Kərimov) getdim. Evi Nəsimi adına bazarın arxa tərəfində idi. Bir az söhbətləşdik, çay içdik. Axşam iş növbəmə getməli idim. Durub getmək istəyirdim. Ata evinə zəng elədim. Ata çox narahat danışdı. İsmayılı da yanıma alıb Ata evinə qayıtdım. Ata yerinin içində uzanmışdı. Keçib görüşdük və oturduq. Ata yenə də "təzyiqin" ona mane olduğunu dedi. İsmayıl məsləhət gördü ki, Ata az gəzsin, uzanmağa üstünlük versin. Qəribə hisslər keçirirdim. Heç nə anlamasam da, Atanın üzünə baxanda vahimələnirdim. Atanın üzü sanki uzanmış və buxağı sallanmışdı. Gözləri elə bil dərinə düşmüş,

qıyılmışdı. Məchul bir nöqtəyə baxaraq düşünürdü. İsmayıl əyilib pıçıldadı ki, heç bir iynə vurma, dərman vermə. Səhər gəl xəstəxanaya qoyaq. Sonra durub getdi. Ata yanı üstə çevrilib yatdı. Üstünə adyal örtüb mən də çıxdım. Yolumu yenə İsmayılgildən saldım. Yoldaşı Almaz xanımı darvazalarının yanında gördüm. Məni görcək "A Soylu, Asif Ata necədir?" dedi. Onun həyəcanla soruşması məni üşəndirdi. "Bəs İsmayıl sənə bir şey deməyib, kişi ölə bilər" deyib cavab gözlədi. "Əşi, sən niyə belə danışırsan, Ata yaxşıdır" dedim. Düşüncəli, qayğılı halda işə yollandım. Axşam saat 20.30-da Ata evinə zəng elədim. Dəstəyi Yüksək (Fərəhim) götürdü. Atanı soruşdum, yaxşıdır dedi.

***xxx***

Bir saat sonra yenə zəng elədim. Yüksək telefonu götürdü. Dəhlizdə Atanın ayaq səsləri eşidilirdi. Yüksəkdən telefonda kimin olduğunu soruşdu. Oğlan "Soyludur" deyəndə, "Mən özüm danışacam" deyib dəstəyi götürdü. "Oğul, özümü şox yaxşı hiss edirəm, indi də yatmağa hazırlaşıram, narahat olma". Doğrudan da Atanın səsi çox gümrah idi. Səhər saat 6 olardı. Stolun yanında ayaq üstə dayanıb köməkçimlə və başqa bir nəfərlə söhbət edirdik. Şəhər telefonuna zəng gəldi. "Səhər tezdən kim olar?" marağı ilə dəstəyi qaldırdım. – Eşidirəm. – "Soylu, Ata keçindi, tez gəl!" Bu, Nurruhun səsi idi. Bir an çaşdım. Dəstək əlimdən düşdü. Yerimdə donub qaldım. İş yoldaşım "Nə baş verib?" deyərək, qolumdan tutub silkələdi məni. "Evim yıxılıb, bacım təntiyib, xəstəxanaya götürüblər" dedim. Onlar məni anlayardılarmı? Yoxsa "qohum deyil, qardaş deyil, yad adamdır, – niyə sarsılırsan" deyə təsəllimi verərdilər?! "Mən gedirəm!" deyib dayanacağa qaçdım. Taksi saxladım.

Ağlım üstümdə deyildi, ürəyim uçqunurdu. Kaş bir saniyəyə Ata evində olaydım. Güclə eşidiləcək bir pıçıltı ilə "Xahiş edirəm, bərk sür!" dedim. Sürücü üzümə baxdı və həyəcan içində sürəti artırdı. Görünür, rəngim ağarıbmış, üzümün ifadəsi

həyəcan üçün əsas verirmiş. Bir neçə dəqiqəyə Ata evinin yanına çatdıq. Maşından düşüb evə yüyürdüm. Qapını açan kimi Alovla (Şirinxanım) Nurruhun zəng elədiklərini gördüm. Telefonu dəhlizə qoymuşdular, Atanın iş otağının qapısı örtülü idi. "Təcili yardım çağırmısınızmı?!" dedim. Təəccüblə bir-birinin üzünə baxıb heç nə demədilər. Mən də cavab gözləmədən içəri keçdim. Atanı təntimiş təsəvvür edirdim. Atanı üzü örtülü, tərpənməz görəndə yer-göy başıma fırlandı. Üzünü açıb baxdım, Ata artıq yox idi!.. Dizlərim büküldü, divanın qarşısında yerə çökdüm, başımı Atanın dizlərinin üstünə söykədim. Artıq heç nə haqqında düşünə bilmirdim, hər şey mənim üçün dayanmışdı. Dizlərimdə güc yox idi, ayağa dura bilmirdim. Təxminən bir saat, bəlkə də çox o vəziyyətdə qaldım. Artıq otaqda səslər eşidilir, qırıq hıçqırıqlar başlamışdı. Eluca (Mədinə) başımı Atanın dizlərinin üstündən götürüb üzümə su vurdu. Hərçəndi huşdan getməmişdim. Bu anda Safruh yaxınlaşıb "Soylu, əgər özünü ələ ala bilməsən, Atanın meyidi ortalıqda qalacaq. Dur göstəriş ver, hərəkət eləsinlər, qeyrət vaxtıdır" dedi. Doğrudan da elə bil ayıldım. Durub su qoydum, Fərəhi (Mikayıl) ağ parça, tənzif və başqa şeylər almağa göndərdim. İsmayıla zəng edib çağırdım. Bir az Ocaqçıları təlimatlandırdım: "Hay-həşir salmaq olmaz. Bütün tədbirləri görüb, Atanı Qədimyurda – Amal Bağına götürmək lazımdır. Qohumlar xəbər tutub molla gətirməsinlər, Atanı öz qaydamızla torpağa qoymalıyıq". Ancaq hanı öz qaydamız, hələlik bu haqda heç nə düşünmürdüm. İsmayıl gəlib çıxdı. Həkim yoldaşlarından birini çağırdı. Gəlib iynələdilər (atmosfer mühitindən qorumaq məqsədiylə). Atanı yuyub bükməcəyə bükdük. Çətinliklə də olsa, ölüm sənədi düzəltdirdik. Bu işləri əsasən İsmayıl həll etdi. Təcili yardım maşını ilə danışdıq, günortadan keçmiş Atanın nəşini Qədimyurda götürdük. Rayonlardakı Ocaqçılara zəng eləmişdik ki, birbaşa Amal Bağına gəlsinlər. Bu bağı Günev (Ələbbas) salıbdır. Növ-növ ağaclar əkib, hasara alıb və Mütləqə İnam Ocağının adına bir ünvan düzəldib. Bu əməl Günevin ruhani fədakarlıqlarından biri idi. Bu

adam içəridən Vətənə bağlı, qeyrətli, ləyaqətli bir kişidir. Atanın nəşini Günevin evinə düşürdük. 40–50 nəfər oraya toplaşmışdı. Yalnız bundan sonra Atanın necə basdırılması məni narahat etməyə başladı. Qələm-kağız götürüb otağın birinə keçdim. Oturub gedişat yazdım. Sonra Safruhu və Ocaqçılardan daha bir neçəsini içəri çağırıb gedişatımı oxudum. Bir-iki əlavələri oldu. Axşam Günevin qohumlarının da iştirakı ilə Yas Mərasimi keçirdik. "Səhər tezdən gün çıxmamış dəfn mərasiminə toplaşmalıyıq" dedim. Amma axşamdan gedib Amal Bağında sonev yerini müəyyən elədik və qazıb hazırladıq. Səhər tezdən Atanın nəşini qaldırdıq – Bayraq öndə, xərəyin üstü göy bükməcə ilə örtülmüş, əllərdə Atanın şəkli, çiçək dəstəsi. Amal Bağına ayaqla getdik. Atanın nəşini torpağa qoyandan sonra dəfn Mərasimi keçirdik. İlk dəfə ərəb nəfəsinin iştirak eləmədiyi bu özümlü tədbir əslində türk xalqı üçün yeni ənənənin başlanğıcıydı . Günev bu yeniliyin doğuracağı vəziyyətdən çox narahat idi. Ona görə təklif eləmişdi ki, qəbrin (sonevin) üstünə 8–10 maşın torpaq tökdürək. Qoy təpə əmələ gəlsin. Doğrusu, içimdə mən buna razı deyildim. Amma Günevin həyəcanı ilə hesablaşmalı oldum. Gedib bir yük maşınının sürücüsü ilə danışmışdıq da. O da bizi tamamilə arxayın salmışdı ki, daşıyacaq. Həmin gün Ocaqçıların əksəriyyəti, mən də aralarında olmaqla, Bakıya qayıtdı. Lakin Safruh da başda olmaqla bir neçə nəfər həməlik Günevin yanında qaldılar.

***xxx***

Bir gün sonra isə misli görünməmiş bir həşir qopmuşdu. Yad ruhlu, yad nəfəsli mollaların (arxası İrana bağlı olanların) haylaması ilə həm başqa kəndlərdən təşkil olunmuş, həm də Atanın basdırıldığı Örənqala kəndinin bir qrup adamları Amal Bağına hücum çəkmişdilər. Milli Təhlükəsizlik xidmətinin yerli orqanları da bu işə qoşulmuşdular. Lakin onlar özlərini elə aparırdılar ki, guya sakitləşdirici məqsəd daşıyırlar. Ciddi basqılardan sonra Atanın qəbri açıldı və çıxarılıb ata-anasının uyu-

duğu Ağstafa şəhər sonevliyinə köçürüldü. Bu işi Ocaqçılar özləri gördülər. Bu müddət ərzində çəkiliş olmuş və hadisələr görüntüyə alınmışdı. Lakin görüntü kasetini təhlükəsizlik xidmətinin əməkdaşları, qaytarmaq şərtilə, Ocaqçıların əlindən aldılar və qaytarmadılar. Lakin yas və dəfn Mərasimlərinin görüntüsü var və onlar indi də qorunur. Əlavə eləmək yerinə düşər ki, Atanın cismani qohumları – keçmiş qadını və oğlu, habelə qardaşı başda olmaqla bir neçə nəfər dəfndən bir gün sonra Örənqalaya gəlmişdilər. Onların məqsədi sadəcə yasda iştirak etmək olub. Gəlib görəndə ki, Ocaqçılara qarşı burada hay-həşir var, onlar da həşirçilərə qoşuldular. Atanın ruhuna, mənəvi haqqına qarşı kobud saygısızlıq etdilər. Həşirçilərin və təhlükəsizlik xidmətinin bəhanəsi də bu idi ki, bu bağ yaşayış yeridir, sonevlik deyil və burada ölü basdırmaq olmaz. Aydın idi ki, bura qısa müddətdə ziyarətgaha çevriləcəkdi və Asif Atanın başladığı İnam işinə ciddi sürət verəcəkdi. Atanın cismaniləri də bu hərəkəti bizim özbaşınalığımız kimi qiymətləndirərək, qarşı tərəfə dayaq olurdular. Halbuki bizim əlimizdə Atanın səs kaseti vardı və Ocaqçılar bu kaseti onlara dinlətmişdilər. Kasetdə Günev Ataya sual verirdi ki, Ata öləndə biz onu harda basdırmalıyıq. Ata öncə cavab verir ki, hələ Atanın ölməyinə çox var, gələcəkdə düşünərik. Lakin bir az düşünüb, görünür, bizim ona hazır olmağımızı nəzərə alaraq, "Əgər Atanın sağlığında Bakıda Məbəd tiksək, orada, bu olmasa, Amal Bağında" deyə cavab vermişdi. Bu söhbət Atanın ölümündən 7 il qabaq 12-ci ildə yazılmışdı. Beləliklə, Ata öz Yurdunda öləndən sonra da təqib olunmuş və məqsədyönlü şəkildə ümumi sonevliyə sıxışdırılmışdı. Bununla belə, Ağstafa sonevliyində (qəbiristanlığında) da Ata Ocaq ruhuna uyğun basdırıldı.

***xxx***

Səhər saatlarında Qədimyurddan Ata evinə zəng gəldi. Yanılmıramsa, dəstəyi Nurruh götürmüşdü. Oradan Amal Bağına hücumla bağlı bilgi verib demişdilər ki, Soylu Bakıda

hərəkət eləsin, görsün kimin vasitəsiylə təsir göstərə bilir. Alov, Eluca, mən və bir neçə başqa Ocaqçı (onlar yadımda qalmayıb) Ata evinə toplaşıb müzakirə açdıq. Çox naşı idik, özümüzü itirmişdik. Təkliflər oldu ki, birimiz Bəxtiyar Vahabzadənin, birimiz İsa Qəmbərin və daha kimlərin yanına gedib söhbət edək. Bəlkə bizə kömək elədilər. Mən İsmayıl ilə İsa Qəmbərin yanına getdim. İsmayıl küçədə gözlədi, mən Müsavatın qərargahına qalxdım. Gəlişimi İsa bəyə dedilər. Bir az keçmiş məni qəbul elədi. Yerindən durub sayğı ilə qarşıma gəldi. Atanın ölümündən təəssüfləndiyini dedi və başsağlığı verdi. Mən vəziyyəti ona danışdım. İsa bəydən həyəcanlı reaksiya gözləyirdim. Onun çox sakit, adi bir şey informasiya kimi dinləməsi, "İstəklərinizi yazın gətirin qəzetdə çap edərik" deməsi məni elə bil ayıltdı. Anladım ki, Atanın hələ öz Ocağından başqa yiyəsi yoxdur. Qırağa müraciət elədiyimə görə utandım. Ata evinə qayıtdım. Başqa yerə gedənlər də qayıtdılar. Onlar da təxminən hərəsi bir cür biganəliklə qarşılaşmışlar. Dedim Ata sağ olub bunu bilsəydi, bizi Ocağından qovardı: "Nə zəlil günə qalmısınız, imdad dilənirsiniz. Yetimliyinizi nə tez aləmə yaydınız" deyərdi. "Heç nə lazım deyil, səfərbər olunub mübarizə aparmalıyıq, Ocağı yaşatmalıyıq" dedim.

Ancaq bu dediklərim özümə aydın deyildi. Sadəcə təsəlli xarakterli iddia idi. Ocağı necə yaşatmaq, necə davam eləmək üçün ciddi ruhani güc yox idi. Təcrübə yox, ənənə yox. Partiya deyil, təşkilat deyil ki, baxasan ora-bura və sən də uyğun bir hərəkət eləyəsən. Amma mən bunları da qabaqcadan düşünə bilmirdim. Görəcəyim iş həmin anda ağlıma gəlirdi. Beləliklə rayondakıları gözlədim. Onlar qayıdandan sonra Ata evinə toplandıq və bir Andiçmə mərasimi düzənlədim: "Hamı Ataya, onun Ocağına sədaqət andı içsin ki, Atanın işini davam eləyək". Bundan sonra daha bir qalmaqal başladı. Bəlli oldu ki, Atanın keçmiş qadını Raya xanım qohumlarını yığıb Ata evində "cümə axşamı" keçirmək istəyir. Ona görə də biz Ata evini boşaltmalıyıq. Yeni həyəcan, yeni narahatlıq! Bunlar nə danışırlar, Ata

hara, cümə axşamı hara?! Telefonlarını əldə edib, Raya xanıma zəng elədim. "Sizinlə söhbət eləmək istəyirəm" dedim. "Gəl" dedi. Ünvanlarını öyrənib getdim. Evdə Raya xanım, gəlini və bir kişi (qudası) ilə görüşdüm. Sonradan bəlli oldu ki, bu kişinin polkovnik rütbəsi varmış və hüquq-mühafizə orqanlarında işləyirmiş, özü də əslən mənim Kəpənəkçi kəndimə qonşu olan Qoçulu kəndindənmiş.

Üzümü Raya xanıma tutub sözə başladım: "Siz bilirsiniz ki, Asif Ata Ruhaniyyat Ocağı yaradıb, bütün nəyi var, bu əqidəyə qurban verib. Dinləri də rədd eləyir. İndi durub onun evinə molla gətirmək böyük yanlışlıq olar. Tarix qarşısında cavab verməli olacaqsınız". Birdən qudası özündən çıxdı, ağzından tüpürcəklər sıçraya-sıçraya qışqırmağa başladı: "Sənin gözlərini çıxardaram, sən kimsən burnunu bu işə soxursan?!" deyib üstümə yeridi. "Mən onun Ocağının Evladıyam, sizdən də qorxmuram" dedim. Bu kobud adamın iştirak elədiyi yerdə söhbətin alınmayacağı bəlli idi. Raya xanım çox iradəsiz bir əhvalla "Xalid, Xalid, gərək deyil" deyə kişini sakitləşdirməyə çalışdı. "Qorxmuram" desəm də, mən bu kişinin dəli haytasından qorxmuşdum. Mənəvi haqqımı dərk eləmədiyim üçün cəsarətlənə bilməmişdim. Sadəlövh, cavan bir oğlan kimi Ata öləndən sonra hər kəsdən mərhəmət gözlədim. Amma kobudluq və sayğısızlıq gördüm. Mən elə bilirdim ki, onlar məni başa düşəcəklər. Bicliklərdən başım çıxmırdı. Sonradan başa düşdüm ki, onlar "cümə axşamını" da Atanın xətri üçün eləmirlər, evini ələ keçirmk istəyirlər. Düşünürdüm ki, necə eləsək, evi əldə saxlaya bilərik. Bu ev müqəddəs bir ünvan kimi Ocaqçıları birləşdirə və ümidləndirə bilərdi. Vaqif Ucataydan (Atanın dostu olmuş və Atadan ciddi bəhrələnmiş rəssam) eşitmişdim ki, Tahir Kərimli (hüquqşünas) ilə dostdurlar. Ona görə Vaqif bəydən xahiş elədim ki, gedək onun yanına, öyrənək görək hüquqi cəhətdən evi əlimizdə saxlaya bilərikmi. Vaqif bəy məni Tahir Kərimlinin evinə apardı. Bir az çay içib söhbətləşdik. Tahir bəy bizi işin bu cəhətini daha yaxşı bilən dostunun yanına göndərdi. Onun adı

yadımda qalmayıb. O isə bizə bildirdi ki, evi əlimizdə saxlaya bilmyəcəyik. Çünki biz hüquqi varis sayılmırıq. Ev də özəlləşdirilməyib, dövlət evidir. Sonra əlavə elədi ki, icra hakimiyyətinin qarşısında vəsatət qaldıra bilərsiniz, Ocağı qeydiyyatdan keçirməməyiniz də sizin işinizi çətinləşdirir və s. Gördüm ki, bu deyilənlərin hamısı Ocağın xəttinə ziddir. Deməli, Ata evi ilə vidalaşmalıyıq.

Qayıtdım Ata evinə. Bizi yaxınlıqdakı polis şöbəsinə çağırmışdılar. Orada rütbəli adamlar vardı. Bizi dilə tutmağa başladılar. Safruh, mən, Düzgün (Kərəm), Nurruh, Birüz orada idik. Düzgünlə Nurruh, eləcə də Safruh onların dilə tutmaları ilə razılaşmırdılar, hətta Düzgün və Nurruh sərt danışırdılar. Orqan işçilərinin yumşaq davranışları məndə təslimçi ovqat yaratmışdı. Amma başqa çıxış yolu da yox idi. Əgər biz dirəniş göstərsək, ev nə bizim olacaq, nə də onların. Dövlət qapını möhürləyib özü bildiyi kimi həll edəcək. Qarşıdurmanın mənasız olduğunu düşünərək, “Açarı verəcəyik, ancaq bir həftədən sonra” dedim. Düzgünlə mən Ata evində olan əlyazmaları, arxivi İsmayılnan danışıb onun evinə apardıq. Guya “DTK”nın diqqətini azdırırıq. Düşünürdük ki, birdən Ata irsini müsadirə eləyərlər, bizim evimizdə olmasın. İsmayılın da bizim yanımızda tez-tez görünməsinə görə arxivi onun evindən də çıxarıb daha etibarlı ünvan kimi Vaqif Ucatayın ev-emalatxanasına köçürdük. Yenə mənim naşı imtinaçılığım baş qaldırdı və Ata evindən heç bir əşyanı çıxartmadıq. Guya sübut etmək istəyirdim ki, qoy bilsinlər ki, biz Atanın evinə gəlir mənbəyi kimi baxmırıq, heç bir əşyada da gözümüz yoxdur. Amma kimə sübut edirdim, niyə sübut edirdim, bunun fərqində deyildim. Bizə oradan dorudan da heç nə gərək deyildi, amma gərək Atanın pianosunu götürəydik. Beləcə Ata evini əlimizdən aldılar və sonradan eşitdik ki, evi baha qiymətə satıblar.

***xxx***

Bu işdən açılandan sonra mənim kirayə qaldığım evdə (Bakıxanovda) bir toplantı keçirdik. Bu toplantıda mən Ata sonevinin üstünü götürmək haqqında məsələ qaldırdım. Dedim ki, "qırxına" qədər məsələ həll olmalıdır. Çünki biz tədbir görməsək, cismaniləri ar edib sonevin üstünü götürə bilərlər. Bu isə Ocaq xəttinə, bizim istəyimizə zidd olacaq. Onlar məsələni öz istədikləri kimi həll edə bilərlər. Beləliklə, maddi borc yığdıq, sonevin necə olacağını qərarlaşdırdıq və Günev, mən, Fərəh, Birüz Ağstafaya yola düşdük. Orada biz Atanın qohumlarından olan Bəsti xalanın evinə düşdük. Materialları alıb yığdıq, Birüzlə Fərəh Bakıya qayıtdılar. Günevlə mən də hörgü və beton işlərini görəndən sonra qayıtdıq.

Məsuliyyətim elə bil birə beş artmışdı. Ardıcıl mütaliə edir, düşünürdüm, yazılar yazırdım. Ocaqda isə məni narahat edən məqamlar baş qaldırmışdı. Artıq "Ata Evini Ziyarət Günü" Mərasimini ləğv eləmək haqqında söhbətlər gedirdi. Ev əlimizdən çıxıb deyə, sayca Ocağın əsas kütləsi bu tədbirin ləğv olunmasını istəyirdi. Mən isə etiraz edirdim ki, Ocaq daşdan-divardan ibarət deyil, məzmundur. Biz nələri isə ləğv eləmək haqqında düşünməli deyilik, məzmunu yaşatmalıyıq. Safruh da ləğv eləmə məsələlərinin əleyhinə idi. Qürub Ayının 1-də tədbiri mənim evimdə deyil, bitərəf bir ünvanda – Günevin qardaşı Ələsgərin kirayə qaldığı evdə keçirməyi planlaşdırdım. Necə deyərlər, burada bir taktika işlətdim. Başqa ünvanda keçirilsin deyə israr edənlər vardı. Mən də öz evimdə keçirmədim ki, gəlməyə bilərlər. Tədbirdə də narazı əhvallar baş qaldırdı. Harda mənim təşəbbüsüm vardı, ona qarşı çıxmalar başlamışdı. Buna görə də mənim içimdə acıq yaranırdı və öz bildiyimi yeritməyə çalışırdım. İçəridə artıq qruplaşma başlamışdı.

***xxx***

Gərginliklər getdikcə artırdı. Heç kim təhlükəni hesablaya bilmirdi. Günev, Ötgün və mən oturub plan düşünürdük. Mən bunlara 7 nəfərdən ibarət Ata Timsalları dəstəsini yaratmaq tək-

lif elədim. Günev bu məsələlərdə əsas rol oynamırdı. O, saf və məsum bir kişiydi, sadəcə bizim təkliflərimizi dəstəkləyirdi. Ötgün isə 7 nəfərin çox olduğunu dedi, hətta zərərli saydı. Ötgün idraklı olduğuna görə onun ağlına etibar edirdim. O, Ata Timsallarının 4 nəfərdən ibarət olmasını doğru sayırdı. Üç nəfər biz, bir də Safruh. Razılaşdıq və Safruhla söhbət eləməyi qərarlaşdırdıq. Safruh ümumən istəyin doğru olduğunu bildirdi. "Amma burada bir nəfər olmalıdır" dedi. Doğrusu mən də bir nəfərin olmasını düşünürdüm və bu işin başında özümü görürdüm. Məncə, Safruh da əsasən özünü nəzərdə tuturdu. Doğrudan da yaşına, təcrübəsinə, ağlına görə Safruhun ətrafına yığışmalı idik. Amma daxili iddialar mane olurdu və Ocağın zərərinə işləyirdi. Odur ki, Ötgün və mən Sumqayıtda (Ötgünün kirayəsində) dörd nəfərin adından Ruhani sənəd yazdıq. Daha doğrusu, Ötgünün yazdığı sənədə mənim də əlavələrimi nəzərə alıb qəbul elədik. Yağış Ayının 16-da Safruhun evində dördlükdə söhbət elədik. Safruh sənədin ziyan verəcəyini dedi. Biz isə israr elədik ki, yox, məsələni biryolluq qoyub həll eləmək lazımdır. Sənəddə başqa Ocaqçıların heysiyyatına toxunacaq sərt məqamlar vardı. Sənədin üzünü artırıb başqa Ocaqçılara paylamışdıq və 23 Yağış Ayında Safruhun evində toplantıya çağırmışdıq. Açıq şəkildə Ocağın bölünməsinə doğru gedirdik. Lakin bu, yanlış da olsa, başqa yol qalmamışdı. Çünki bir-birinə sayğı aradan getməkdə idi və Ruhani tabeçiliyə yaxın gələn yox idi. 23 Yağış Ayında tədbir gözləniləndən də sərt keçdi. Söz güləşdirmələr başlayanda ayağa durdum. "Kim mənimlə gedəcəksə – Ocaqdır, qalanları Ocaq saymayacam" deyib çıxdım. Mənimlə çıxanların sayı 14 nəfər idi. Sonradan bir nəfər (İnamnur) bizdən ayrılıb ora getdi, Fərəh onların yanından ayrılıb bizim yanımıza gəldi. İlk aylar bir əməl yarışı başladı. Mənim ən böyük işim Ocaq arxivi yaratmaqdan ibarət oldu. Atanın kitablarını toplamaq, üzünü köçürmək və s., məktəblilərlə görüşüb söhbət aparmaq, görüşlər keçirmək, təzə evlənənlərə "Beşikbaşı" mərasimləri keçirmək, Oca-

ğın Bayramlarını gerçəkləşdirmək kimi ciddi əməllər həyata keçirirdik.

Ayrıldığım (mənim üçün "keçmiş") hər hansı bir Ocaq Evladı haqqında düşünmür, yaxa dartıdırmaq həvəsim yaranmır, haqqımda danışılan hər hansı söz-söhbətə məhəl qoymur, özüylədöyüşü yeganə məqsəd seçirdim. Başqasının üzərinə yerimək, yaxud başqasının üzərində qələbə çalmaq haqqında düşünəndə ürəym sıxılır, öz gözümdən düşürdüm. Hədəf kiçilib-kiçilib aradan çıxa bilərdi. Böyük Amal eşqi ilə yaşamaq ağlımı işıqlandırır, ürəyimə güc verirdi. Atanı tanımağa, anlamağa başlamışdım, geriyə yolum yox idi artıq.

*xxx*

O vaxt Sevil Qazıyeva adına parkla üzbəüzdə kirayəçi idim. Qaldığımız yer olduqca darısqal bir odadan və ondan da kiçik olan bir mətbəxdən ibarət idi. Mətbəxdə qaz pilətəsi vardı, hisin, iyin çıxması üçün baca yox idi. Tez-tez qapını açıb havanı dəyişməli olurduq. Soyuq aylarda qapını açanda içəri buza dönürdü. İsti aylarda isə içəridə nəfəs almaq olmurdu. İşin çətinliyi təkcə bu deyildi. Həyətdə bizim qaldığımız odadan başqa bir oda da vardı. Orada ev yiyəsinin qohumu, yaşlı bir kişi qalırdı. Sərxoşluqdan ayıq vaxtı olmurdu. Yanına özü yaşda adamlar gəlirdi. İçirdilər, sonra ucadan zarafat edirdilər. Səsləri həyəti götürürdü. Tədbirlərimizdə bizə mane olurdu bu səs-küy. Məktəb yaşına çatmamış uşaqlarımız da bu həşirdən qorxurdular.

*xxx*

Tədbirlərimiz uğurlu keçirdi. Hamı söz deyirdi, iş görürdü. Möhkəm bağlılıq vardı. Bu bölgüdən sonra Ocağın necə yaşayacağı təsəvvürlərdə aydın deyildi. Ümumi saydan qrup səviyyəsinə enmə – eşidənlərə, maraqlananlara bunu izah eləməyin çətinliyi əhvallarda əndişə yaradırdı. Tez-tez bir yerə toplaşırdıq. Bu toplanmalar ən çox təsəlli xarakteri daşıyırdı.

Ümumi sayımız 14 nəfərdi. Biz üç nəfər (Günev, Ötgün, Soylu) Ata Timsalları sayılırdıq. Bu çox süni bir durum idi, – "timsallar"dan ikisi mütləq geri çəkilməli, "bir"i qabağa verməli idilər. Ancaq bu daxili güc tələb edirdi. İnsafən, Günev "bu mənim yüküm deyil" deyə geri dururdu. Mənə elə gəlir ki, Günev içdən bərk sarsılmışdı. Bizim ayaqda qalacağımız onu o qədər də inandırmırdı. Mən isə özümü ağllı göstərib onu inandırmağa çalışırdım. Həm də Günevin varlığından təsəlli tapırdım. Aramızda yetkin yaşlı adam yalnız o idi. Büruzə verməsəm də, Günevi böyüyüm sayırdım. Hər gün yanına gediridm, bəzən gündə iki dəfə. Günev ailəsi ilə "Dostluq" kinoteatrından br az aşağıda kirayəçi qalırdı. Atanın ölümündən sonra ömrümdə yaranan boşluğu, onun sanballı Evladı kimi, Günevlə doldurmaq istəyirdim. Ancaq Günev bu tələbdən qaçırdı, o sanbalı yaşaya bilmirdi. Çox keçmədi Günev yığışıb kəndə köçdü və bir daha Ocağa dönmədi. Bu ayrılıq 20-ilin payızında baş verdi. Ancaq bundan qabaq Atanın ölümünün ildönümündə Günev yenə də qeyrət və hünər göstərmişdi. Atanın Amal Bağında basdırılmasına qarşı təşkil olunan hay-həşir bu oğlanı çəkindirməmiş, Anma Mərasimini Amal Bağında keçirmək, oradan isə Ağstafa şəhər Sonevliyində Atanı ziyarət etmək istəyimizi cəsarətlə qəbul və təşkil elədi. Ciddi hazırlaşmışdıq. Mən iş yerimdən məzuniyyətə çıxmışdım. Sabunçuda bir Türkiyə şirkəti fəaliyyət göstərirdi. Fərəh (Mikayıl) orada işləyirdi. Onun təşkilatçılığı ilə Ötgün və mən bir ay müddətində orada işləyib (rəngsaz işi) pul qazanmaq qərarına gəldik. Ötgün bir neçə gündən sonra institutda (Az.NKİ, Sumqayıt) işlərinin olduğunu deyib gəlmədi. Mən tək işləməli oldum. Oradan götürdüyüm pulu səfər üçün ayırdım. Başqa Ocaqçılar da bacardıqları qədər pul verdilər. Karsan markalı xırda avtobus kirayələdik. Şölə ayının 5-i səhər saat 5–6 arası yola düşdük. Günevin 3–5 qohumunun iştirakı ilə Anma Mərasimi keçirdik. Sonra Ağstafaya getdik. Atanı ziyarət edib, söz dedik, mərasim keçirdik. Yerli adamlardan bir nəfər gəlib dedi ki, sizdən öncə buraya toplaşan-

ları polis şöbəsinə apardılar. Bizdən öncə toplaşanlar Ocağın o biri qanadı idi. Sürücü və köməkçisi təşvişə düşdülər: "Bizi niyə buraya gətirmisiniz, indi nə edəcəyik" deyə peşimançılıqla danışmağa başladılar. Dedim: "Heç bir həşirə ehtiyac yoxdur. Siz maşınla yolun qırağında bizi gözləyin, vəziyyəti öyrənib qayıdacağıq". İki nəfərlə polis şöbəsinə getdim. Odtəkin və bir neçə başqa Ocaqçılar şöbənin həyətində idilər. Nə baş verdiyini soruşduq. Bizə heç nə izah eləmədilər. "Rahatsızlıq üçün əsas yoxdur" deməklə yetərləndilər. Geri, maşının yanına döndük. Sonralar Safruhdan eşitdim ki, onlar rayon mərkəzindən Sonevliyə qədər Ocaq Bayrağını başları üzərinə qaldıraraq yürüş ediblər. Yerli müxalifətçilərdən də onlara qoşulanlar olmuşdu. Yəqin ki, polis də bunu siyasi tədbir hesab edib.

Biz Bakıya çatanda gecə saat 01 idi. Birbaşa Atanın yaşadığı binanın həyətinə getdik. Dövrə vurub Ataya "Axşam Ricası"nı və "Dünyadakı Mütləqlə Axşam Təması"nı söylədik. Atanın eyvanına çöl tərəfdən çiçəklər atdıq, qapıya bayırdan gül dəstəsi bağladıq. Getmək imkanı olanlar evlərinə getdilər, qalanlar isə gecəni mənim kirayəmdə qaldılar.

***xxx***

Bizimlə olan Ocaqçıların yarısı Ocağa Atanın ölümündən sonra gəlmişdilər.

Biz Atanın Kitablarının üzünü köçürürdük, makinada artırırdıq. İstəyirdik ki, hər bir Ocaqçıda Atanın Kitabları olsun və hamı onu oxusun. Kasetlərdən səsi sözə çevirirdik, dərgilər hazırlayırdıq. Arxiv yaratma işində ən fəal Ocaqçı Göylü idi. Maraqlı cazibə yaratmışdıq. Hər bir Ocaqçı tədbirlərimizə yeni dinləyicilər cəlb eləmək üçün cəhdlər göstərirdi.

***xxx***

Yuxarıda qeyd elədiyim kimi, işlədiyim müəssisədən üç dəfə Suriyaya gedib gəlmişdim və xırda ticarət etmişdim. Əlimdə bir az pulum vardı. Torpaq sahəsi alıb bir oda tikmək və

ailəni kirayədən qurtarmaq istəyirdim. Öz yuvam olsaydı, Ocaq üçün daha çox işləmək imkanı əldə edərdim. Çox yer axtardım. Sonra Nurtəkinin təklifi ilə Saray qəsəbəsinin sakinlərinə paylanan torpaq sahəsindən aldıq. Qabaqca bu qəsəbədə bir ev kirələdik. Ailəni köçürdüm oraya. Bura həm də bizim yeni Ocaq ünvanımız oldu. Bütün tədbirlərimiz burada keçirilirdi. Hər gün Ocaqçılar buraya baş çəkir, söhbətlər edir, Ocaq ədəbiyyatları hazırlayır, başqa işlər görürdük. Ötgünlə demək olar ki, hər gün görüşürdük. Safruh bizim əksər tədbirlərimizdə iştirak edirdi. Ocağın o biri "qol"undan bizim tədbirə başqa adam gəlmirdi. Biz də onların yanına getmirdik. Biz çox fəal idik. Artıq cəmiyyətin toy ənənəsinə müdaxilə edirdik – Beşikbaşı mərasimləri keçirirdik, – söz yox ki, toy yiyələrinin razılığı əsasında. Məktəblərə gedir, görüşlər keçirirdik. Ayrı-ayrı fərdlərlə görüşür, ədəbiyyat yayır, tədbirlərimizə çağırırdıq. Artıq Saray qəsəbəsinə səs yayılmış, bu səsdən mollalar rahatsız olmağa başlamışdılar. Məscidin baş axundunun evi mənim kirayəmə bitişik idi. Bir dəfə axşam evə gələndə Ucatay dedi ki, Axund, başında da bir dəstə adam (qəsəbə sakinlərindən), həyətə hücum eləmişdilər. Həşir salırdılar ki, onları buradan qovmaq lazımdır, bu evdə limonka (əl qumbarası nəzərdə tuturdular) partladacağıq və s. Mən də onlara cavab verdim ki, evdə kişi olmayanda qadının üstünə çox cəsarətli yeriyirsiniz. Ucatay bunları mənə danışanda Fərəh də yanımda idi. Fərəhə dedim "gedək Axundla söbbət edək". Keçib darvazasını bərk-bərk taqqıldatdım. Səsə çıxan adamdan axundu çağırmasını istədim. Axund ağır addımlarla yanımıza gəldi. Açıq hiss olunurdu ki, gündüz atdığı addıma görə çəkinir. Mən onu üstələməyə başladım: "Sən kimsən, mənim həyətimə basqın edirsən, bu əməliyin arxasında dura bilərsən?!" O:

– Siz alayı din yaradırsınız, dinimizə qarşı çıxırsınız.

– Biz Türk İnamı yaradırıq. Bunun üçün nə səndən, nə də başqasından icazə almalı deyilik – deyə biz hikkələndik.

Mən bunu deyəndən sonra axund əlini yelləyib iti addımlarla evinə getdi.

Mənə elə gəlir ki, "Türk İnamı" sözü onu çəkindirdi. Ola bilər, Türkiyənin bizim arxamızda durduğunu düşünübmüş. Sabahı gün məni qəsəbənin polis şöbəsinə çağırdılar. Sahə müvəkkili etnik kökəncə talış idi. Məni sorğu-suala tutdu. Bizim kimliyimizi, nə işlə məşğul olduğumuzu soruşdu. Mən milli dəyərlərimizdən, Ocağın altı ideyasından danışdım. Kirimək bilmirdim. Mənə elə gəlir ki, polis məni dindirməyinə peşman olmuşdu. O, dərindən bir şey anlamamışdı. Mən də yayğın, sistemsiz danışırdım. Bununla belə, hiss olunurdu ki, qüsur tapa bilmir. Başqa sözlə, çağırmasına ad qoya bilmirdi. Ona görə sabah rayon polis şöbəsinə getməyimi xahiş elədi (məhz xahiş elədi).

Səhər saat 10-da rayon (Xırdalan) polis şöbəsinə getdim. Yarım saat həyətdə gözlədim. Gəlişimlə maraqlanan olmadığı üçün içəri keçdim. Dəhlizdə sahə müvəkkilini gördüm (kapitan idi; adı, soyadı yadımda qalmayıb). Məni Milli Təklükəsizlik şöbəsi rəisinin otağına apardı.

Rəisin rütbəsi mayor, adı Adil idi (soyadını bilmirəm). İçəridə rəis və sahə müvəkkilindən (Saray qəsəbəsinin) başqa bir nəfər baş leytenant da vardı. Rəis gülərüz bir əhvalla Ata haqqında sorğu-sual elədi. Ancaq bu suallar şəxsi maraqdan irəli gəlirdi. Həm də onun marağında sayğı vardı. Mən də suallara konkret cavablar verirdim. Dedi Asif Ata mənim müəllimim olub. Axırda da vaxtımı aldıqları üçün üzrxahlıq elədi və əlavə etdi ki, bizə aid bir qulluğunuz olsa, kömək etməyə hazırıq. Bunun qarşılığında mən də onları tədbirimizə dəvət elədim. Sonda onlara "Yol" kitabı və Ocaq yazıları çap olunmuş qəzetlər bağışladım.

Mənə elə gəlir ki, sahə müvəkkili mənim gözümün odunu almaq üçün oraya çağırmışdı. Mən dəhlizə keçəndə yadımda qalmayan bir ad çəkdi. Dedi "filankəsi gözləyirdim, o burada yoxdur, səni ona görə gözlətdim". Ocaqda Göyinam (Anar) adlı bir Evlad vardı. Atası polis şöbəsində işləyirdi. Ona görə

Göyinam polislərin çoxunu tanıyırdı. Və o mənə dedi ki, sahə müvəkkilinin mənə dediyi şəxs şöbənin adamları yumruqla qorxudan əməkdaşıdır.

Göyinamın atası (Süleymanov Kazım) oğlunun Ocaqda olduğunu bilirdi və bunu istəmirdi. Göyinam Ocağa oğrun-oğrun gəlirdi. Bir dəfə Ötgünlə mənə dedi ki, atası mənim evimə gələcək. Bir gün Kazım bəy gəldi bizə. Yanında da polis dostu vardı. Ancaq hər ikisi mülki geyimdə idilər. Həyətdə tut ağacı vardı. Onun altında oturub çay içə-içə söhbət elədik. Daha doğrusu, onların suallarına cavab verirdik. Sonda İsgəndər Həmidovu bizə misal çəkdi: "İsgəndər kimi qəhrəman oğulun aqibəti necə oldu?" Biz İsgəndər Həmidov məsələsinin fərqli bir hadisə olduğunu izah elədik. Sağollaşıb getdilər.

... Qəsəbə sovetinin başçısı kirayə qaldığım evin yiyəsinə xəbərdarlıq edibmiş. Bir gün ev yiyəsi gəldi. İçəri dəvət elədim. Soruşdu ki, burada nə baş verib, siz nə işlə məşğul olursunuz? Qısaca Amalımızın milli, insani tələblərindən danışdım. Ev yiyəsi bizi ziyanlı qüvvə saymamışdı. "Burada nə qədər istəsəniz, qala bilərsiniz" dedi. Məncə, həm də kirayəçisini itirmək istəmirdi. Adamlar burada kirayəçi qalmağa o qədər meyl eləmirdilər. Görünür, söhbətin milli təsirlərindən də kişi ruhlanmışdı. Qoltuq cibindən ortadan qatlanmış bir dəftər çıxartdı və başladı mənə şeirlərini oxumağa. Qarabağdan, öz rayonundan (Cəbrayıldan) bəhs edən şeirlərini elə çılğın oxuyurdu ki, elə bil Vətən anlayışını bu kişi kəşf eləmişdi.

***xxx***

20-il başlayanda Ocaq bayramlarını gerçəkləşdirməyə başladıq. İlk bayrama ("İnsanilik" Bayramı, 14.01.20) ciddi hazırlaşdıq. Bu bayramı Ceyranbatan gölü ətrafındakı meşə zolağında keçirdik. Bu bayramda 30-dan çox adam iştirak edirdi (O zaman bu, bizim üçün böyük rəqəm idi). Uşaqlar da vardı. Qeyri-adi bir qələbəlik idi. Bu kimi uğurlar mənim tələsik nəticələr çıxarmağıma səbəb olurdu. Adamların təntənəyə maraqları ağlıma

təsir edirdi. Özüm haqqında yersiz olaraq yüksək fikrə düşürdüm. Bizim keçirdiyimiz bayram tədbirlərində Safruh da, Elçin-İşıqlı da iştirak edirdi. Safruh Ocaq adına harda söz deyilir, iş görülürdüsə, oraya getməkdən çəkinmirdi. Bu məsələlərdə o heç kimin şıltağına məhəl qoymaya bilirdi. Mən isə elə bilirdim ki, Safruh bizim yanımızda olmamaqdan peşimandır.

Safruh görməyi bacarır. Ancaq onun görməsi bir çox hallarda suçu kimi yozulub.

Son vaxtlara qədər məndə əməl həmişə düşüncələrdən qabaqda olub. Hər gün yeni təşəbbüslərlə çıxış edir, əməllər haqqında düşünür, onları gerçəkləşdirməyə çalışırdım. Ətrafımdakı adamlar mənimlə ayaqlaşa bilmirdilər. Və bu da bir qaçaqaçlıq əhvalı yaradırdı. Əslində bizim gördüyümüz işlər Amalın normal tələbləri idi. Yəni Amalı içinə çevirən insanlar elə bu cür yaşayarlar – daim iş başında. Ancaq bu, həyatdan ağılla, düşüncəylə ayrılmağın nəticəsində mümkündür. Bu baxımdan, mənim əməlçiliyimdə tələskənlik vardı. Beləliklə, bu ağırlığa Ötgün dözmədi. Yavaş-yavaş mənim əməl orbitimdə olan Ocaq Evladlarını da öz təsirində saxlamağa çalışdı. Bununla da içimizdə dağıdıcı əhvalların əsası qoyuldu. Çünki Ocaq Evladları içərisində əmələ meyilli olanlar da vardı, söhbətə meyilli olanlar da. Biz isə əməllə söhbəti birləşdirmək əvəzinə, Ocaqçıları hərəmiz özümüzə tərəf çəkirdik. Ötgündə mənə qarşı güclü acıq yaranmışdı. Bu oğlan əmələ doğmalaşa bilmirdi, mən isə çətinliklə olsa da, kitaba, düşüncəyə doğmalaşır, öz üzərimdə işləyirdim. Əgər o da əmələ doğmalaşsaydı, aramızdakı doğmalıq möhkəmlənər, gücümüz artardı. Ancaq o bunu bacarmadı, qısqanclıq duyğusuyla yaşadı, sonda mənə qarşı çıxdı. Məndə heç bir yaxşı keyfiyyət görməməyə, hər addımımı zərərli saymağa başladı.

Beləcə burada da bölündük, parçalandıq, yad adamlara, yad ünvanlara çevrildik. Bu xalqın vərdiş elədiyi parçalanmaq, qruplara bölünmək onun həyatının hər tərəfində özünü göstərir, o cümlədən, yenicə irəli çıxan Ruhaniyyat Ocağında da. Əslində bu proses müəyyən dövrlər üçün qaçılmazdır. Çünki ruhaniyyat

adına bu xalqın içində yüzillər boyu iş aparmış yad ənənələr, mədəniyyətlər onun ruhani xislətini elə dəyişib ki, xalq özünə yaxın gələ bilmir. Ayrı-ayrı fərdlərin içində baş qaldıran mənəmlik iddiaları mənəvi-ruhani gəlişməni əngəlləyir, burada yadlığın ömrünü uzadır.

Artıq üç ünvanda Ocaq adına tədbirlər keçirilir, Asif Atanın Adına Səcdə qılınır, ancaq Onun Adının cazibəsinə toplaşanlar bir-birini görmür, görməyi bacarmırlar. Bu, əslində qaragüruh əhvalıdır. Onların içində ya axtarışlar olmalı, görən, görünən; inanan, inanılan; addımı dala qoymağı bacaran fərdlər yetişməli, vahid, müqəddəs mühitə tabe olmalı, ya da özlərinin ziyanlı əhvallarının girovunda bəsit həyata pərçimlənib dağılışmalıdırlar. Ötgünün bizdən ayırdığı "Yanar Zəka" ailəsində axtarışlar getdi, ancaq tamam fərqli yöndə, fərqli məzmunda. Bu ailənin Evladları tədbirlərdə əsasən Ötgünün söhbətlərinə qulaq asırdılar. Ötgünün yetərli kitab biliyi və natiqlik bacarığı müəyyən dövr cazibə yarada bildi. Ancaq heç bir əməli addım atmadıqları üçün getdikcə Ocaqdan uzaqlaşdılar. Yurd dışından olan bilik yiyələrinə, kitab müəlliflərinə meyil, onların sevgisini aparıb, Oşo'ya (Bhaqavan Şri Racniş (1931–1990) çıxartdı. Oşo uzun müddət dillərinin əzbəri oldu. Ötgün ətrafında olanlara Oşo'nu öyürdü, Soylunu isə aşağılayırdı. Onlar Oşo'nu bildikləri və sevdikləri üçün özlərini bizdən üstün sayırdılar. Ancaq bu sevda da uzun sürmədi, hərəsi bir yana getdi. Ötgün (Şükürov Müşfiq) "azacıq aşım, ağrımaz başım" prinsipi ilə namaz qılmağa, oruc tutmağa da uydu...

"Bakı qolu"nda isə hər hansı bir axtarış getmədi, artım olmadı. Tədbirlərində əsas mövzunu Soylunun hərəkətləri, danışığı, jesti təşkil edirdi. Mənim ünvanıma aşağılayıcı sözlər demək, lağlağı eləmək tədbirdən kənarda da baş verirdi. Özəlikcə Alov (Şirinxanım), Mədinə (Eluca), Düzgün (Kərəm) redaksiyalara gedir, "Soylunun yazılarını çap eləməyin" deyirdilər. Sözsüz ki, bu əhvalla Mütləqə İnam hadisəsi dərk olunmaz və yaşadıla bilməz. Bütün bunlara baxmayaraq, mən onlarla ünsiyyətə can

atırdım və əməkdaşlıq eləmək istəyirdim. Mənim bu istəyimi yalnız Safruh doğru qiymətləndirirdi. Safruh "Bakı qolu"nda olsa da, bu "qol" dağılana qədər onun əhvalını qəbul eləmədi. Onlar da Safruhu eşitmədilər, onun çağırışına, yalvarışına məhəl qoymadılar. Mənim ünsiyyət istəyimi də peşimançılığım kimi anlayıb təpərdən, hünərdən geri çağırırdılar.

Ocağın 24-ilində qarşılıqlı istək əsasında Odtəkin, Dağtəkin, Yurdtəkin, Halal və mən bir araya gəldik. Safruhun odasında onun da iştirakıyla biryerdəlik məsələsini müzakirə etdik. Safruh söhbətə qarışmır, yalnız dinləyirdi. O birilər isə mənim qabağımda şərtlər irəli sürməyə başladılar. Şərtlərdən biri o idi ki, mən Şərqidən üzr istəməliyəm. Onların şərtləri məni hərəkətsiz, təpərsiz, küt bir varlığa çevirmək məqsədi güdürdü. Kimdənsə üzr istəməyin nə anlam daşıdığı da mənə çatmırdı. Mən kimsəni təhqir eləməmişdim. Söhbəti sakitcə dinləyən Safruh bu şərtlərə kəskin etiraz elədi: "Siz nə danışırsınız, bu oğlanın əl-qolunu bağlamaqla Ocağa xeyir verdiyinizimi düşünürsünüz?" Mən özüm də onların şərtlərinin aşağılayıcı motivlərini qəbul eləmirdim. Söhbət alınmadı, biryerdəlik də baş tutmadı. Əslində Safruh biryerdəliyin baş tutmasını arzulamırdı, bunun Ocağa ciddi ziyan gətirəcəyini düşünürdü. "Onlar yaxa dartışdırmağı bacarırlar, yaxanı ələ verməyi bacarmırlar" deyərək fikrini əsaslandırırdı. Doğrudan da "Bakı qolu" ilə ünsiyyəti davam eləmək, başlanğıcı və sonu bəlli olmayan müzakirələr açmaq – ruhani əməllərdən yayınmaq və geriləmək deməkdi.

Heç bir dedi-qoduya məhəl qoymadıq. Onlarla, yüzlərlə görüşlər keçirdik, orta və ali okulların qapılarını döydük, üzümüzə bağlanan qapılardan çaşmadıq, sarsılmadıq. Rayonlara, kəndlərə səfərlər elədik. Hər yerə Ocaq sorağı apardıq, Ocaq ədəbiyyatı yaydıq. Bu işlərdə Göylünün, Nurtəkinin misilsiz hünərləri oldu. Onlar evdə oturub makinada (sonralar bilgisayarda) Atanın əsərlərini yazır, üzünü artırır, sonra səfərlərə çıxıb yayırdılar. Bakıda, Sumqayıtda, Bakıətrafı kəndlərdə, 40-a qədər rayonlarda mənim üçün görüşlər təşkil edib, auditoriyaların

qapısını açdılar. Bu cür fədakar təşkilatçılıqlar sonradan onların müstəqil olaraq özlərinin Ata ideyalarını yaymaq üçün görüşlər keçirmələrinə qədər böyüdü, oturuşdu.

Bizim üçün heç bir görüş asan başa gəlməyib. Çox yerdə müqavimətlə, hədələrlə rastlaşmışıq. Xəlqi keyfiyyətlərin aradan getdiyi bir vaxtda insanilik harayı çəkmək asanlıqla inandırmır. Özünəyadlaşma dərin faciədir. Özünə yadlaşan toplum xeyiri yaxşı tanımır. Sən onun xeyrinə söz deyəndə o səni təqib edir. Yaşamaq üçün qaragüruha çevrilir. Haylanmağı, sürülməyi qəbul edir, xeyirin üstünə yeriyir, təki onun işinə dəyməsinlər, çörək əldə eləməsinin yolunu bağlamasınlar. Xeyirin üstünə yeriməyə, müqəddəsləri döyməyə, söyməyə görə maaş alırlar, çörək qazanırlar. Belə cəmiyyətdə azad yaşamaq mümkün deyil. Azad yaşamaq istəyən – cəmiyyəti dəyişmək haqqında düşünür, düşünməlidir.

***20 Çiçək Ayı, 30-il. Borçalı.***

***xxx***

Günevi itirdim, – sarsıldım, göynədim; Ötgünü itirdim, – ağladım, ölə biləcək səviyyəyə qədər sarsıldım. Nurtəkinin, Göylünün, Üstünün əhatəsində qaldım. Sarsıntılarımı biruzə vermədim, yıxılmadım, əyilmədim. Tutdum onlardan, onlar da məndən, hünərlərə doğru yerişimizi davam elədik. Nurtəkinin naşı inamı, Göylünün naşı sevinci, Üstünün naşı saflığı ruhuma dayaq oldu, Ataya bağlandım, gözümü Atadan çəkmədim. Odun olub Ocağında qalandım və alova çevrildim. İşıq saldım, – Uluruhu tapdım, Safnuru tapdım, Türkeli böyütdüm. Elçin-İşıqlının içində Ocaq qığılcımı qalmışdı, iş görmək istəyirdi, çağırdım, qoşdum, qoşuldum. Soltanın həvəsini, sevgisini gördüm. Yenidən Ocaqlaşacağına – Yolruh olacağına inandım, qoşdum, qoşuldum. Safruha qovuşdum, Safruhu yenidən kəşf elədim. Əlindən tutdum, əlimdən tutdu. Sevdi, öydü, evini verdi – İnam Evi'li olduq. Ağlının gücüylə, ürəyinin sevgisiylə dayaq oldu,

öyüd verdi. “Yolu” anlamaqda yardımçı oldu. Səhv eləyəndə ağladı, doğrunu göz yaşıyla anlatdı. Böyüdük, inkişaf elədik, sağlam mühitə çevrildik. Ocaq bir oldu, birdir – sarsılmaz, yenilməz bir ünvan. Doğmalıq mühiti. Düşünənlər, qananlar, Ocağa ruhani bağlananlar. Ruhaniyyat yönündən hünərlilər, əməllilər. Daxilən azadlığı, müstəqilliyi anlayanlar, dönmədən bunun təsdiqinə doğru gedənlər. Ocaqlı sevdalılar, Ataya sadiqlər. Yurduna, Ulusuna içəridən bağlananlar. Dostlu, rəğbətçili Amaldaşlar. **Türk xalqının Ruhaniyyat Ocağını yaşadanlar.** İnam Məbədini quranlar. İnsanı Məbudlaşdıran aşiqlər. Sizə güvənirəm, sizi sevirəm. Sizdən ilham alıb yaşayıram.

***xxx***

Bu yaşantı-yazını Atamızın müqəddəs “Ocaq Məramı”nın son sətirləri ilə bitirirəm:

“Biz Dünyanı və İnsanı daha gözəl və Kamil görmək istəyirik.

Dünyanın Aqibəti İnsanın əlindədir. Gözəl insanlar Gözəl Dünya yaratmağa qadirdirlər.

Azərbaycanın sinəsində yanan bu Ocaq Xalis, Qeyrətli, Pak İnsanlar yetişdirəcək, Gözəl İnsan yaratmaqla, Gözəl Dünyaya xidmət edəcək.

Qoy bir an da Qəlbimizdə Ülviyyət Odu azalmasın!

Qoy bir an da Gözlərimizdə Heyrət İşığı azalmasın! Əzmimiz, Gücümüz, Cəsarətimiz, Fədakarlığımız – Məqsədimizə bərabər olsun!

Ocağın Müqəddəs Ruhu Sönməzdir!”

**Ata Ruhu Ürəyimdədir!**
**Atamız Var Olsun!**

***29 Sərt Ayı, 04 Köçəri Ayı, 29-il.***
***Atakənd–Saray-S.***

## *SONSÖZ*

İstəkli yurddaşlarım! Adətən, yazı yazmaq özünü ifadə eləmək üçündür. Belə deyək ki, şəxs öz estetik duyğuları ilə başqalarını tanış etmək istəyir. Söz yox, daha qlobal yazılar da var ki, bu, artıq şəxsi estetika məsələsi deyil. Həyatı sənət vasitəsilə öyrənmək və tanıtmaq, ölməzlikdən soraq vermək ciddi yaradıcılıq kompleksidir. Siz mənim yazımı hansı yönə aid edirsiniz edin. Mənim sizinlə ünsiyyətə can atmaqda məqsədim başqa bir məna daşıyır. Mənim yazılarımın əsas hədəfi – öz Yurdunun mövcud olduğu min illərin içərisində milli mədəniyyət özülü axtaran Asif Atanın sizin zamanınızda başladığı İnam Yoludur. Bu Yolun qayəsi mənəviyyat dünyamıza yeni nəfəs verməkdən ibarətdir. On illərin gərgin yaşantıları və gərgin yaradıcılıq zəhmətlərinin bir bəhrəsi, bir nişanəsidir diqqətinizə təqdim olunan bu yazı.

Asif Atanın yaradıcılığı çoxşaxəlidir. Hesaba sığmayan öyrənmələri, axtarışları və sonucda dünyanın fəlsəfəsini, ədəbiyyatını, tarixini, dinlərini, estetikasını, mifologiyasını, incəsənətini məzmunu etibarilə mükəmməl bilməsi öz taleyində ciddi uğurlar yaratmasına gətirib çıxartdı. Asif Atanın ideya yaradıcılığı əsasən 45 Müqəddəs Kitabda, 7 Kəlamda öz əksini tapmışdır. Burada dünyanın, həyatın, insanın nəliyi, necəliyi, necə olacağı məsələsi hərtərəfli qoyulur və bütöv şəkildə həllini tapır. Asif Atanın yaradıcılığının bir sahəsi də ömür yaradıcılığıdır. İnsanın özünə bərabər yaşaması – onun "özüylədöyüş" (insanlaşma) ideyasında köklü şəkildə həll olunur. O bu ideyanı öz ömründə bütün cəhətləriylə ifadə etmiş və Mütləqə layiq kamil bir insan ömrü yaşamışdır. Asif Atanın ömür yolunu izlədikcə, öyrəndikcə özünüyaratmanın nə qədər ağır, çətin olduğunu görürük. Aydın olur ki, Asif Ata təkcə irəli sürdüyü ideyalara görə özünü peyğəmbər elan etməyib, həm də o Peyğəmbər ömrü yaradıb, yaşayıb.

İstəkli yurddaşlarım! Asif Atanın ömür yaradıcılığı insan üçün əlçatmaz bir təsadüf deyil. Onun ideyaları ilə ömrünün

birliyi gerçək təsirlərə malikdir. Azərbaycan cəmiyyətinə yaxşı bəlli olan bir Safruh obrazı var. Bu obraz mənəviyyat dünyamızın danılmaz bir örnəyidir. O, həm mənəviyyat örnəyi kimi tanınır, sevilir, həm də ulusal dəyər daşıyıcısı, qoruyucusu və yaradıcısıdır. Safruhun ömrü də öz kitablarının gözəlliyi ilə, təsiri ilə birdir, birgədir. Safruhun var olmasında Ata ömrü həm bir örnək kimi güclü təsirə malikdir, həm də burada özünün illərlə çəkilən zəhməti, əməyi var. Eyni zamanda, Asif Ata peyğəmbərliyinin bilinməsində, eləcə də onun Mütləqə İnam Ocağının qurulmasında və inkişafında Safruhun misilsiz əməyi olmuşdur, bu gün də var. Deməli, **Asif Ata yaradıcılığının əsas qayələrindən biri də öz yaradıcılarını yaratmaqdır.** Mənim də, Soylu Atalı olaraq, mənəvi-ruhani axtarışlarımda, qurulmağımda, inkişafımda Asif Atadan sonra Safruhun ömrü gözəl bir örnək omuşdur. Asif Atanın Mütləqə İnam Ocağında örnəklik, qurulmalar, böyümələr davamlıdır, artır, inkişaf edir. Mən bu yazıda Asif Atanın ömür yaradıcılığının başqa cəhətlərini qabartmadım, sadalamadım. Çünki sizə təqdim olunan bu yazı da əsasən yaranma-yaradılma yolundan bəhs edir.

Hamı insanı tarixdən, dindən, ədəbiyyatdan, fəlsəfədən, mifologiyalardan öyrənir. Tarixin, dinin, ədəbiyyatın, fəlsəfənin, mifologiyanın insanı bir halətdə – necə təqdim olunursa, elə də qalır, – dəyişmir, dəyişməyəcək, dəyişilməsi mümkün deyil. Bildiyimiz kimi, bütün dövrlərin təqdim elədiyi insan natam, nisbi keyfiyyətlər daşıyıcısı olub. Nəticədə insana inam yaranmayıb. O, olduğundan aşağı dərk olunub. Asif Ata insanı canlı həyatın özündə öyrəndi və gördü ki, insan tarixdən, dindən, ədəbiyyatdan, fəlsəfədən, mifologiyadan üstündür. O, dəyişilə bilər – arta, böyüyə, kamilləşə bilər. Bu səbəbdən də insana inam yaratdı, onun fəlsəfəsini yazdı, bütün ömrünü insanın var olmasına həsr elədi. Ona görə Asif Ata **İnsana İnam Peyğəmbəridir.**

İnsani problemləri həyatdan kənarda həll eləmək cəhdləri bəşəriyyətə heç nə vermədi. Din insani problemlərin insan ağlına sığmayan fantastik aləmdə həllini vəd elədi. İnsan buna

inanmayanda onun üstünə qılınc çəkdi, qorxutdu. Nəticədə problemlər nəinki aradan qalxdı, heç azalmadı da. Əksinə, qat-qat dərinləşdi, həll olunmazlıq səviyyəsinə gətirildi. Cəmiyyətdə din tərəfindən idrakın axtarışlarına qarşı qoyulan yasaq bu gün də aradan qalxmayıb. Asif Atanın İnamı həm də İdrakın işləməsinə yönəlik geniş yollar açmaqla bu "yasağ"ı rədd elədi. Bəşər həyatında misli görünməmiş bir hünər ortaya qoydu Asif Ata. O, insanın min illərdir axtardığı idealı mifologiyadan gerçəkliyə – canlı həyatın özünə bir həqiqət olaraq qaytarmışdır. İnsanın sevgisi, inamı xəyallar aləmindən yaşamın ahənginə, ömrün nizamına yönəldilmişdir. Əslində bu özü min illər öyrəniləsi İnam, İdrak əməlidir. Həm də məsələni bu yöndən öyrənməklə İnamla dinin fərqini dərk eləmək olar. Asif Ata şəxsiyyətini formalaşdıran bu amillər düşünmək üçün yeni imkanlar açır.

Bütün bunlarla yanaşı, Asif Ata ayrı-ayrı şəxslərin, aydınların simasında üzünü özümüzə tutmaq ənənəsi yaratdı. Onun Mütləqə İnam Ocağı bunu yetirir, həm də yönəldir və birləşdirici rol oynayır. Bu o deməkdir ki, yeni xalq yaranır – İnam xalqı. Bu ənənə inkişaf edir, azalmayacaq, dayanmayacaq. Bir vaxtlar Asif Ataya kimlərsə qorxa-qorxa salam verirdilər, yaxud heç vermirdilər. Amma bununla onun ruhani inadı qırılmadı. Ocağı yarandı, Evladları yetişdi, pərəstişkarları çoxaldı.

Türk xalqının içində İnam ənənəsi başlayıb. Bu başlanğıc böyük türk etnosunu bir araya gətirəcək. Xalqı parçalayan, dağıdan, özümlüyündən uzaqlaşdıran hər cür yad baxışların, doktrinaların onun mənəvi həyatını tərk eləməsi üçün Peyğəmbərlik hadisəsi, İnam ənənəsinin həyata gəlişi qaçılmazdır. Bu zərurət yaranıb. Və bu zərurət məni Asif Atanın (İnam Atanın) Böyük Yolunun başlanğıcına gətirib çıxarıb!

**Yükümüzdən Böyük Fərəhimiz yoxdur!**
**Atamız Var Olsun!**

***16 Köçəri Ayı, 29-il. Atakənd.***